**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**MAGİSTRATURA MƏRKƏZİ**

***Əlyazması hüququnda***

**Nəsirova Aytən Vaqif qızının**

# "Separatizm və şovinist millətçiliyin beynəlxalq münasibətlərə təsiri" mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı:** **060213 "Beynəlxalq münasibətlər"**

**İxtisaslaşmanın adı:** **Beynəlxalq münasibətlər və diplomatiya**

**Elmi rəhbər:**
**Dos. Seyodova.A.**

**Magistr proqramının rəhbəri:**
**Dos. Qurbanov R.M.**

**Kafedra müdiri: Prof.B.M.Abdullayev**

**BAKI – 2015**

# MÜNDƏRİCAT

**Giriş………………………………………………………………..……………....3**

**I Fəsil. Separatizmin yaranması, müasir dünyada separatizmin beynəlxalq münasibətlərə təsiri……………………………………………………......9**

1.1. Separatizmin yaranması və yayılması…………………………………..……9

1.2. Azərbaycanda separatizm hərəkatının təzahürləri və erməni separatizmi**........16**

1.3. Kürd separatizmi**...........................................................................................26**

1.4. Separatizm və Rusiya**...................................................................................34**

**II Fəsil. Şovinizm, şovinist millətçiliyin müasir dünyada yeri və nəticəsi…….39**

2.1. Şovinizmin ilk təzahürləri və yaranması………………………..……………**39**

2.2. Erməni xalqının şovinist siyasəti**..................................................................42**

2.3. Millətçiliyin ünsürləri və bu ünsürlərin insanların həyatına təsiri…………...**47**

**III Fəsil. Separatizm və şovinist millətçiliyin beynəlxalq münasibətlərə təsiri..54**

3.1. Müasir dünyada separatizm və beynəlxalq münasibətlər**.................................54**

3.2. Şovinist millətçilik nədir, müasir dünyada şovinist millətçiliyin özünü göstərməsi**.........................................................................................................65**

**Nəticə.......................................................................................................................70**

**İstifadə olunmuş ədəbiyyat siyahısı.....................................................................74**

**Резюме**

**Summary**

**Referat**

## Giriş

**Mövzunun aktuallığı.** Müasir dövrdə dövlətlər daxilində baş verən separatizm və şovinizm prosesləri dövlətlərin inkişafına , ərazilərinin kiçilməsinə və eyni zamanda ölkə iqtisadiyyatının zəifləməsinə səbəb olmuşdur. Tədqiqatçılar müasir dünyada 50 əsas separatizm ocağı olduğunu, 220 milyon əhalini və 12,7 milyon kvadratkilometr ərazini əhatə etdiyini bildirirlər. Coğrafi tipinə görə Qərbi Avropaya 8, Şərqi Avropaya 12, Asiyaya 14, Afrikaya 6, Amerikaya 4, islam tipinə görə isə 6 mərkəz düşür. Bunlardan 20-si silahlı qarşıdurma xarakteri daşıyır. Separatizm əsasən etnik mənsubiyyətdən qaynaqlanan bir hal olmaqla, həm də etnik-dini zəmində özünü göstərir. Dünyada 180-dən çox dövlət var, onlardan yalnız 20-si etnik-monoton ölkədir, yəni başqa millətlərin sayı bu ölkələrdə 5%-dən aşağıdır. Dövlətlərin 40 faizində isə ən azı 5 azsaylı xalq yaşayır. Nəzərə alsaq ki, planetdə 8 min xalq yaşayır və nəzəri baxımdan onların hər biri müstəqilliyinə can ata bilər, onda dünyanın böyük qisminin millətlərarası savaş meydanına çevrilməsini təsəvvür etmək çətin olmaz. Dissertasiya işində separatizm və şovinist millətçiliyin yaranması, yayılması, dövlətlər arasında yaratdığı gərginlik ,beynəlxalq münasibətlərdə separatizmin dövlətlərin inkişafına göstərdiyi təsir, millətçiliyin bir dövlət üçün necə nəticələr verə biləcəyi öz əksini tapmışdır.

**Tədqiqatın məqsədi.** Dissertasiya işində tədqiqatın əsas məqsədi separatizm və şovinist millətçiliyin dünya siyasətinə təsiri, sözügedən proseslərin qarşısının alınması yolları, dünya ölkələrinin bu vəziyyətdən necə çıxış yolu tapa biləcəkləri və eyni zamanda bu proseslər ərzində dövlətlərin inkişaf perspektivlərini müəyyən etməkdir.

XXI əsrin əvvəllərinə yaxın dünya birliyi beynəlxalq sabitlik üçün əsas təhdidlərdən biri ilə – bu və ya digər formalarda dünyanın əksər ölkələrində özünü büruzə verən davakar separatizmlə üzləşmişdir. Separatizmi qidalandıran etnoslararası münaqişələr bəzi hallarda hərbi-siyasi münaqişələrə, hətta dinc əhali üçün faciəvi nəticələrə səbəb olan dövlətlərarası müharibələrə çevrilir. Bundan başqa,

bir çox hallarda beynəlxalq terror təşkilatlarının gələcək kadrları məhz bu münaqişələrdə döyüş təcrübəsi keçirlər. Bu məhvedici hadisənin spesifik cəhəti ondadır ki, burada “milli özünüdərkin oyanması”, “millətlərin öz müqəddəratını təyin etmə hüququ”, “istismar olunan xalqlara azadlıq”, “insan haqları”, “Vətənlə birləşmə” kimi humanist demokratik ideyalar dəlilik həddinə çatmış qanlı hadisələrlə bir aradadır. Sonda bu, yeni “qanunsuz doğulmuş” və daha çox marginallaşmış və bir qayda olaraq dünya birliyi tərəfindən tanınmayan qurumların meydana gəlməsinə səbəb olur. Özü də gözə çarpmasa da, sonda burada əsas rolu dağıdıcı separatist prosesləri “həvəsləndirən” xarici geosiyasi amillər oynayır.Bütün bunları nəzərə alaraq, dissertasiya işimdə həmin dağıdıcı separatist prosesləri “həvəsləndirən” xarici geosiyasi amilləri öyrənməyə çalışmışam.

**Təcrübi əhəmiyyəti.** Burada əksini tapan təhlil və araşdırma müddəaları, dövlətlərin həyata keçirdiyi proseslər ,separatizm və şovinist millətçilik proseslərinin qarşısının alınması yolunda atılan addımlar , eyni zamanda bu yolda beynəlxalq təşkilatların təcrübə və məlumatlarından yararlanmağa çalışmışam.

Müasir beynəlxalq münasibətlərdə Ukraynada baş verən olaylar, xüsusilə də Krımda Rusiyanın son aktivləşməsi və muxtariyyətin mərkəzdənqaçma meyilləri postsovet məkanında da separatizm problemini yenidən gündəmə gətirib. Nəzər yetirsək, görmüş olarıq ki, postsovet məkanında öz inkişaf yolunu sərbəst müəyyənləşdirmək istəyən cəmiyyətlər, müstəqil siyasət yeritməyə meyil edən dövlətlərin hər biri separatizmdən əziyyət çəkir.

**Tədqiqatın predmeti və obyekti.** Bura separatizm və şovinist millətçiliyin nə vaxt, kimlər tərəfindən yaranması, inkişaf mərhələləri, zamanla dəyişməsi, inkişaf etməsi , fəaliyyət istiqamətləri, dünya ölkələrində bu proseslərin iqtisadiyyata, mədəniyyətə, dövlətlər arası münasibətlərə vurduğu ziyan və zərərlər, eyni zamanda bu proseslər ərzində dövlətlər arasında bu yolda olan razılaşmalar, separatist və şovinit millətçilik meyllərinin arxasında duran qüvvələrin kimliyinin müəyyənləşdirilməsi aiddir.

Separatizm meyillərinin arxasında isə birbaşa Rusiya amilinin durması heç kəsə sirr deyil. Həm Dağlıq Qarabağ, həm Abxaziya və Osetiya, həm Dnestryanı, həm də son vaxtlar aktuallaşan Qaqauziya və Krım problemləri açıq şəkildə Rusiyanın SSRİ-nin şinelindən çıxmış dövlətlərə təzyiq vasitəsi olduğunu ortaya qoyur. Qeyd edək ki, ayrı-ayrı postsovet ölkələrində mövcud olan sözügedən problemlərin əksəriyyətinin mövcudluq tarixi elə həmin dövlətlərin yaşı ilə eynidir. Bu problemlərin həll olunmaması Rusiyanın marağında olmaqla həmin dövlətləri bir növ, özündən asılı vəziyyətə salmaq məqsədi daşıyır.

Dissertasiya işinin əsas tədqiqat sahəsi eyni zamanda separatizm və şovinist millətçilik proseslərinin formalaşmasında rol oynayan dövlətlərin üzə çıxarılmasıdır. Separatçılığı doğuran səbəblər sırasına ilk növbədə ərazi iddiaları aid edilsə də, burada siyasi motivləri də nəzərdən qaçırmaq olmaz. Bunlar aşağıdakılardır: - müxtəlif etnik qruplar arasında regional, yerli və ya dövlət səviyyəsində hakimiyyət uğrunda mübarizə (Dağıstanda olduğu kimi); - hər hansı bir etnik qrupun vahid dövlət daxilində siyasi status uğrunda apardığı mübarizə (Cavaxetiya ermənilərinin indiki mərhu nisbəti dissertasiya ələdə Gürcüstan qarşısında qaldırdıqları tələb kimi); - tam müstəqillik və ya "ana vətənə" birləşmək uğrunda mübarizə (Dağlıq Qarabağ, Cənubi Osetiya, Abxaziya və Kosovodakı kimi). Bundan əlavə, separatçılığa rəvac verən səbəblərdən biri kimi iqtisadi amillər də göstərilir. Bu mübahisəli və müqayisəli prosesləri özüm üçün prioritet hesab etdiyimdən bu nisbəti dissertasiya işimdə araşdıraraq verməyə çalışmışam.

**İşin strukturu və həcmi.** Dissertasiya işinin strukturu qarşıya qoyulan məqsədə uyğun olaraq formalaşdırılmışdır. Mövzu quruluşu girişdən , üç fəsildən , nəticə və təkliflərdən və sonda istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin yazılması zamanı informasiya mənbəyi kimi mövzu ilə əlaqədar mövcud milli və xarici elmi və dərslik ədəbiyyatından , yerli və xarici alimlərin və mütəxəssislərin araşdırmalarından, internet resurslarından istifadə edilmişdir. Dissertasiya işi ümumilikdə 78 səhifədən ibarətdir.

**Dissertasiya işinin birinci fəsli** "Separatizmin yaranması, müasir dünyada separatizmin beynəlxalq münasibətlərə təsiri" adlanır. Burada separatizmin yaranma tarixi və yayılması, Azərbaycanda separatizm hərəkatının təzahürləri və erməni separatizmi, Kürd separatizmi haqqında ətraflı məlumat verilmişdir. Separatçılıq polietnik və ya federal dövlətdə yaşayan hər hansı bir etnik, yaxud dini qrupun titul xalq və dini qrupla bərabər hüquqa malik dövlət qurmaq istiqamətində apardığı siyasi fəaliyyətdir. Müasir separatizm hər bir xalqın mütləq qaydada müəyyən ərazidə öz dövlətinə malik olmasına əsaslanmış öz müqəddəratını təyinetmə kimi yanlış prinsipə söykənir. Əslində isə belə bir prinsip nə hüquq nəzəriyyəsində, nə beynəlxalq, nə də milli qanunvericilikdə yoxdur. Separatçılığın ideoloqları təbliğ etdikləri hərəkata xalqların öz müqəddəratını təyin etmək hüququ ilə haqq qazandırırlar. Müasir dünyada separatçılıq hərəkatları ilk baxışda oxşar olsalar da, onların yaranma səbəbləri, hərəkətverici qüvvələri, inkişaf tendensiyaları fərqlidir.

Azərbaycan da polietnik dövlət kimi yarandığı ilk illərdən etnik separatçılıq problemi ilə üz-üzə qalmışdır. Təcavüzkar erməni separatçılığı ilə yanaşı, Azərbaycanda zaman-zaman ləzgi, talış, avar və kürd separatçılıqları da aktiv fazaya keçərək milli təhlükəsizliyə ciddi təhdid yaratmışdır. Bu hərəkatların oxşar cəhətləri olsa da, onların yaranma səbəbləri, intişar fazaları və tarixləri bir-birindən fərqlidir.

**Dissertasiya işinin ikinci fəsli** "Şovinizm, şovinist millətçiliyin müasir dünyada yeri və nəticəsi" adlanır. Dissertasiya işinin bu fəslində Şovinizmin ilk təzahürləri və yaranması, Erməni xalqının şovinist siyasəti, Millətçiliyin ünsürləri və bu ünsürlərin insanların həyatına təsiri qeyd olunub.

Şovinizm sözü ilə millətçilik eksterminizmin müxtəlif təzahürlərini ifadə edirlər. XIX əsrin 70-ci illərində Böyük Britaniyada Şovinizm xüsusi ad - cinqoizm adını almışdır. Şovinizmin digər təzahürləri sosial-şovinizm, hakim millətçilik şovinizmidir.

İrqçi - faşist düşüncənin qaynağı şoven duyğularda yatar. Şovinizm çox vaxt irqçi görüşlərlə eynilik təşkil edir. Bu istiqamətləri ilə təcavüzkar və mürtəce xüsusiyyətlər daşıyır. Bu yolla "yurdunu, vətənini sevmə" bəhanəsiylə imperialist döyüşlər haqlı göstərilə bilər. Necə ki Birinci və İkinci Dünya Döyüşlərində kütlələri döyüşə sürmək üçün istifadə edilən şovinizm ən həddindən artıq formasını Hitler Almaniyası və Mussolini İtalyasının faşizminin ideologiyasını və siyasətində tapmışdır.

**Dissertasiya işinin üçüncü fəsli** "Separatizm və şovinist millətçiliyin beynəlxalq münasibətlərə təsiri" adlanır. Dissertasiya işinin bu fəslində Müasir dünyada separatizm və beynəlxalq münasibətlər və Şovinist millətçilik nədir, müasir dünyada şovinist millətçiliyin özünü göstərməsi haqqında qeyd olunub.

Dünyada 180-dən çox dövlət var, onlardan yalnız 20-si etnik-monoton ölkədir, yəni başqa millətlərin sayı bu ölkələrdə 5%-dən aşağıdır. Dövlətlərin 40 faizində isə ən azı 5 azsaylı xalq yaşayır. Nəzərə alsaq ki, planetdə 8 min xalq yaşayır və nəzəri baxımdan onların hər biri müstəqilliyinə can ata bilər, onda dünyanın böyük qisminin millətlərarası savaş meydanına çevrilməsini təsəvvür etmək çətin olmaz. Hətta sakit Qərbi Avropada belə separatizmin dərin kökləri mövcuddur. Böyük Britaniyada irlandlar və şotlandlar, İspaniyada basklar Fransada korsikalılar və başqalarının separatçı mübarizəsi 10 illərdir davam edir.

Avropa Birliklərinin yaradılması digər məqsədlərlə yanaşı, həm də milliyyətçiliklə mübarizə aparmaq və post-milli cəmiyyətlər qurmaq kimi hədəflərə xidmət edirdi. Bununla belə, Avropa liderləri regional və sub-dövlət milliyyətçiliyinin potensialını düzgün hesablaya bilmədilər. Dövlətin zəifləməsini şərtləndirən Avropa İttifaqı sub-dövlət elementlərinin güclənməsi ilə nəticələndi. Artıq bəzi üzv dövlətlərdə, o cümlədən Belçika, Böyük Britaniya və İspaniyada parçalanma ehtimalları o qədər realdır ki, müzakirələr atılacaq növbəti addımların üzərində qurulub.

Qısaca milliyyətçilik yox olmaq istemiyən, var olmaq və qalmaq, yüksəlmək və ucalmaq istəyən millətlərin imtina edilməz və əsla uzaqlaşdırıla bilməyən

ideologiyasıdır. Milliyyət hissi ilə milliyyətçilik şüurunun hər nə səbəb və surətlə olursa olsun bir millətə edilən ən böyük düşmənçilik və pislikdir.

**Dissertasiya işi nəticə** ilə tamamlanır. Müasir beynəlxalq münasibətlər sistemi və dünya siyasətində mövcud olan dağıdıcı faktorlardan biri də separatizmdir. Separatizm formasından və səviyyəsindən asılı olmayaraq, beynəlxalq təhlükəsizlik balansına mənfi təsir edən amillərdəndir. Tarixin müxtəlif dönəmlərində baş qaldırmış separatist meyillər bəzən kiçikmiqyaslı - məhəlli müharibələrə, bəzənsə millətlərarası ciddi qarşıdurmalara səbəb olmuşdur. Məsələn, tarixi təcrübədir ki, bir sıra imperiyalar separatist tendensiyalar nəticəsində parçalanmışdır. Bundan başqa, geniş mənada separatizm faktiki olaraq bir sıra xalqların tarixində hərəkətverici (əslində, dağıdıcı) təsir qüvvəsi kimi çıxış etmişdir. Məsələn, bir sıra dövlətlər məhz separatizm nəticəsində yaranıblar. Amma separatist hərəkətlənmələrin fonunda yaranan dövlətlərin daim münaqişə və qarşıdurma içində olması da faktdır. Hər halda, XXI əsrdə separatist meyillərə əsaslanan aktların ciddi qarşıdurma və qeyri-sabitliyə səbəb olması amilini nəzərə alsaq, qeyd edə bilərik ki, bölücülük dövlətlərin ərazi bütövlüyü və suverenliyinə qarşı təhdid olmaqla yanaşı, millətlərarası ziddiyyət və qarşıdurmaların da mənbəyini təşkil edir.

.

# I Fəsil. Separatizmin yaranması, müasir dünyada separatizmin beynəlxalq münasibətlərə təsiri

## 1.1. Separatizmin yaranması və yayılması

İlk əvvəllər separasiya (lat. separatio-ayırma) kimi işlənən bu termindən bərk maddələrin müxtəlif cinsli hissəciklərdən ibarət qarışıqlarını, emulsiyaları, habelə qaz və ya buxarda bərk və maye asılqanları ayırma prosesi kimi istifadə olunurdu. Separasiyadan faydalı qazıntıların zənginləşdirilməsində, qaz sənayesi, yeyinti (məsələn, qaymaq almaq, süd təmizləmək üçün) sənayesi və s. istifadə edilir. Separator (lat. separator-ayırıcı) separasiya aparatı mənasına gəlir. Separatorun müxtəlif tiplərinin iş prinsipi qarışıqdakı komponentlərin fiziki xassələrinin müxtəlifliyinə əsaslanır.

Separatizm (lat. separatisme - "ayrı" deməkdir) termini polietnik dövlətdə milli azlıqların ayrılaraq ayrı dövlət və ya milli dövlət muxtariyyəti yaratması səyləri mənasında işlədilir. Siyasi arenada daha çox işlədilən bu termin dövlətdaxili və dövlətlərarası münaqişələrdə özünü aydın göstərmişdir. Beynəlxalq siyasətdə də bu, bir dövlətin ərazisinin digər dövlət tərəfindən işğal edilməsi və dövlət ərazisinin parçalanması anlamına gəlir .[1]

Separatçılıq – polietnik və ya federal dövlətdə yaşayan hər hansı bir etnik, yaxud dini qrupun titul xalq və dini qrupla bərabər hüquqa malik dövlət qurmaq istiqamətində apardığı siyasi fəaliyyətdir.[2] Müasir separatizm hər bir xalqın mütləq qaydada müəyyən ərazidə öz dövlətinə malik olmasına əsaslanmış öz müqəddəratını təyinetmə kimi yanlış prinsipə söykənir. Əslində isə belə bir prinsip nə hüquq nəzəriyyəsində, nə beynəlxalq, nə də milli qanunvericilikdə yoxdur. Separatçılığın ideoloqları təbliğ etdikləri hərəkata xalqların öz müqəddəratını təyin etmək hüququ ilə haqq qazandırırlar. Demokratik fəlsəfənin bəhrəsi olan bu haqq hazırda dünyada qəbul olunmuş azadlıq və bərabərlik idealları baxımından mənəvi cəhətdən ilk

---

[1] İlham ismayıl "Açıq separatizmin məxfi tərəfləri" 24.12.2010

[2] Hall, Raymond L. (1978). Black Separatism in the United States. Hanover, New Hampshire: University Press of New England.

baxışda heç kəsdə şübhə doğurmamalıdır. Rusiyalı alim Yekatirina Naroçinskayanın fikrincə, "Öz müqəddəratını təyin etməyin azadlıq kimi özünəməxsus paradoksu var. Belə ki, heç nə ilə məhdudlaşdırılmamış azadlıq öz-özünü məhv etdiyi kimi, öz müqəddəratını təyinetmə absolyut kimi qəbul olunarsa, dünyada dövlət adında məfhum olmaz.[3] Belə ki, bu təqdirdə xaos və kollapsla nəticələnə biləcək bir-biri ilə konfliktdə olan saysız tələblərin zəncirvarı reaksiyası başlaya bilər. Milli ziddiyyətlərin həll olunma yolu kimi separatizmin fundamental qüsuru bax budur". Separatçılığı doğuran səbəblər sırasına ilk növbədə ərazi iddiaları aid edilsə də, burada siyasi motivləri də nəzərdən qaçırmaq olmaz. Bunlar aşağıdakılardır: - müxtəlif etnik qruplar arasında regional, yerli və ya dövlət səviyyəsində hakimiyyət uğrunda mübarizə (Dağıstanda olduğu kimi); - hər hansı bir etnik qrupun vahid dövlət daxilində siyasi status uğrunda apardığı mübarizə (Cavaxetiya ermənilərinin indiki mərhələdə Gürcüstan qarşısında qaldırdıqları tələb kimi); - tam müstəqillik və ya "ana vətənə" birləşmək uğrunda mübarizə (Dağlıq Qarabağ, Cənubi Osetiya, Abxaziya və Kosovodakı kimi). Bundan əlavə, separatçılığa rəvac verən səbəblərdən biri kimi iqtisadi amillər də göstərilir. Belə ki, polietnik dövlətlərin bir çoxunun iqtisadi cəhətdən inki- şaf etməməsi səbəbindən bəzi milli azlıqların sosial vəziyyəti titul xalqın sosial vəziyyətindən daha aşağı olur və milli azlıq bu bərabərsizliyə son qoyulması üçün çıxış yolunu müstəqil dövlətin yaradılmasında görür. Müasir dünyada separatçılığın intişar etməsinin əsas səbəbi keçən əsrin sonlarından beynəlxalq münasibətlər sistemində hökm sürən "ikili standartlar" siyasətidir[4]. Həm milli qanunvericilikdə, həm də hüquq nəzəriyyəsində xalqların öz müqəddəratını təyinetmə hüququ konkret bir etnosa deyil, müəyyən bir ərazidə yaşayan xalqlara şamil olunur. Buna baxmayaraq, praktikada hər hansı bir etnosun öz dövlətini qurmaq tələbi ön plana çəkilir. Avropada və postsovet məkanında keçən əsrin sonlarında baş verən hadisələr göstərdi ki, xalqların öz müqəddəratını təyinetmə tələbi, bir qayda olaraq, vahid dövlətin parçalanması formasında realizə olunmuşdur. Buna gətirib çıxaran əsas amil kimi bir sıra alimlər tərəfindən siyasi və hüquqi ədəbiyyatda

[3] Hall, Raymond L. (1978), Black Separatism in the United States, University Press of New England

[4] Utku Kızılok "Özerklik Tartışmaları ve Şovenizm" May 2014

xalqların öz müqəddəratını təyinetmə doktrinası şərh edilərkən dövlətlərin ərazi bütövlüyü prinsipinin ikinci plana çəkilməsini və onun parçalanmasına haqq qazandırılmasını göstərmək olar. Müasir dünyada separatçılıq hərəkatları ilk baxışda oxşar olsalar da, onların yaranma səbəbləri, hərəkətverici qüvvələri, inkişaf tendensiyaları fərqlidir. Məsələn, bəzi separatçılıq hərəkatlarının yaranma səbəbləri xarici amildən (Azərbaycanda baş qaldırmış erməni və ləzgi separatçılığı kimi), bəzilərinin dövlətin düzgün olmayan milli siyasətindən (Z. Qamsaxurdiyanın hakimiyyəti dövründə Gürcüstanda dövlət siyasətinin "Gürcüstan gürcülər üçün" prinsipinə uyğun aparılması nəticəsində Cənubi Osetiya və Abxaziyada separatçılıq hərəkatlarının baş qaldırması), bəzilərinin isə tarixi (Şimali İrlandiyada və İspaniyanın Bask torpaqlarında cərəyan edən hadisələr) aspektlərdən asılı olur[5]. Bütün polietnik dövlətlərdə daim separatçılıq əhvali-ruhiyyəsi ilə yaşayan insanlar olur və bu, qaçılmazdır. Lakin separatçılığın intişarı üçün dövlətin siyasi həyatında bir neçə amilin təzahürü şərtdir[6].

Birincisi, mərkəzi hakimiyyətin zəifləməsi nəticəsində yerli xalqlar arasında ziddiyyətlərin baş qaldırması və problemlərin kökündə milli dövlətin olmaması ideyasının təlqin edilməsi.

İkincisi, milli azlığın daxilində ictimai fikri formalaşdıra biləcək yüksək təhsilli ziyalılar qrupunun formalaşması.

Üçüncüsü, dövlətin parçalanmasında və sabitliyin pozulmasında maraqlı xarici qüvvələrin mövcudluğu. Məlumdur ki, xaricdən maddi və texniki dəstək almayan separatçı hərəkatlar tez bir zamanda dövlət tərəfindən söndürülür (1993-cü ildə Azərbaycanın cənub bölgələrində yaradılmış Talış Muğan Respublikasının aqibəti bu fikrimizin təsdiqidir). Separatçılıq polietnik cəmiyyətlərdə milli azlıqla titul xalq arasında bu və ya digər səbəblərdən yaranan problemlərin radikal həllinə yönəlmiş hərəkat olduğu üçün birbaşa terrorçuluğu doğurur. Terrorçuluqla separatçılıq eyni

---

5 X. Malcolm (1964). By Any Means Necessary. New York City, New York

6 Qarabağ xəbərləri "Harınlıqdan doğan separatizm" 28.09.2010

mənbədən qaynaqlanır[7]. Bu, konfliktlər, qeyri-sabitlik, dünyanın barışmaz şəkildə "biz" və "onlara" bölünməsidir. Separatçılıq həmişə milli müstəqilliyin daha təcavüzkar tərəfdarlarının terrorçuluq fəaliyyəti ilə müşayiət olunur və bu elmi ədəbiyyatda "təcavüzkar separatizm" kimi təsnifatlaşdırılır.

"Təcavüzkar separatizm" in ən bariz nümunəsi Dağlıq Qarabağda baş qaldırmış erməni separatçılığıdır. Beynəlxalq münasibətlər sistemində bir qorxulu tendensiya da var ki, bu da separatçılığın cəzalandırılması əvəzinə onun həvəsləndirilməsi və müəyyən qüvvələr tərəfindən dəstəklənməsidir. Məsələn, Kosovonun Serbiyadan ayrılmasının Qərb, Cənubi Osetiya və Abxaziyanın Gürcüstandan ayrılmasının isə Rusiya tərəfindən dəstəklənməsi, Dağlıq Qarabağda baş verən hadisələrin beynəlxalq birlik tərəfindən birmənalı qiymətləndirilməməsi dünyanın bir sıra bölgələrində separatçıları ruhlandırır və onları "tam və qəti qələbə" uğrunda mübarizəyə həvəsləndirir.

Beləliklə, separatçılıq cəzasız qaldıqda və dəstəkləndikdə ekstremist xarakter daşımağa başlayır[8]. Separatçılıq qarşısında vahid dövlətin bölünməsi və yeni dövlətin yaranması məqsədini qoyduğu üçün hər bir ölkənin təhlükəsizliyinə və suverenliyinə qarşı yönəlmiş ciddi təhdiddir[9]. Çünki yeni dövlətin yaranması nəinki ərazinin itkisi, həm də bu ərazidə yerləşən resurslardan məhrum olmaq deməkdir. Eyni zamanda, dövlət öz sərhədlərində özünə qarşı düşmənçilik siyasəti yürüdəcək yeni dövlətin mövcudluğu ilə barışmalıdır. Yuxarıda qeyd etdiyimiz kimi, separatçılığın ekstremizm, ekstremizmin isə terrorçuluğu doğurması səbəbindən onunla mübarizə dövlətin milli təhlükəsizlik sistemində prioritet vəzifə kimi qiymətləndirilməlidir[10]. Bununla bağlı dünyada cərəyan edən separatçılıq hərəkatlarının tarixinə və müxtəlif

---

[7] Nurlan Qələndərov "Separatizm neqativ geopolitik faktor kimi"

[8] Lenin "Sosyalizm ve Savaş"

[9] Bell, H. H., Holly, J. T., & Harris, J. D. (1970). Black separatism and the Caribbean, 1860. Ann Arbor: University of Michigan Press.

[10] Jenkins, B. L., & Phillis, S. (1976). Black separatism: a bibliography. Westport, Conn: Greenwood Press

dövlətlərin onunla mübarizə siyasətinə qısaca nəzər salaq. Nə qədər paradoksal olsa da, sabit və iqtisadi cəhətdən inkişaf etmiş, əhalisinin sosial durumu yüksək olan Qərbi Avropa ölkələri də separatçılıqdan əziyyət çəkirlər. Bu da öz növbəsində separatçılığın yalnız zəif inkişaf etmiş, qeyri-sabit siyasi və sosial duruma malik üçüncü dünya dövlətlərinə xas hal olması fikrini alt-üst edir. Qərbi Avropa separatizmi (Böyük Britaniyada Şimali İrlandiya, İspaniyada Basklar ölkəsi və Kataloniya, Fransada Korsika, Belçikada Flandriya ) etnokonfessional və sosial-iqtisadi amillərin aparıcı rol oynaması ilə xarakterizə olunur[11]. Qərbi Avropada separatçılıq ocaqları - Şimali İrlandiya, Korsika və Basklar ölkəsi istisna olmaqla - uzun müddətdir ki, dövlətin sabitliyinə mənfi təsir etmir. Burada, məsələn, Kataloniya və Flandriyada əhalinin yüksək ictimai fəallığı sivil siyasi mübarizə həddini aşmır. Bask separatçılarının terrorçu təşkilatı olan ETA öz fəaliyyətini Frankonun repressiv rejimi ilə mübarizə dövründə başlamış, lakin demokratiya bərqərar olunduqdan sonra da terrorçuluqdan əl çəkməmişdir. Terrorçu İrlandiya Respublika Ordusu (İRO) Britaniyaya qarşı antikolonial xalq hərəkatı zamanı yaradılmış və keçən əsrin 60-cı illərinin ortalarınadək demək olar ki, fəaliyyət göstərmirdi. Lakin Şimali İrlandiyada protestantlar Londonun dəstəyi ilə katolik azlığa qarşı hücuma keçəndə İRO terrorçuluq fəaliyyətinə başladı. Sonradan rəsmi London özünün irland siyasətinin səhv olduğunu dərk edib müəyyən pozitiv addımlar atsa da, bu gecikmiş tədbirlər terrorun qarşısını ala bilmədi. Bir qayda olaraq, Qərbi Avropa separatçılarının məqsədi müstəqil dövlət qurmaq deyil, mövcud sərhədlər çərçivəsində maksimal milli-mədəni, iqtisadi və siyasi muxtariyyət qazanmaqdır. Bu münaqişələr, İrlandiya və ABŞ-dakı irland diasporundan dəstək alan Şimali İrlandiya separatçıları istisna olmaqla, demək olar ki, xaricdən müdaxiləyə məruz qalmırlar. Əhalinin əsas hissəsi müstəqil ya- şamağın qeyri-müəyyən, aydın olmayan perspektivlərinə daha çox ümidsiz baxır. Beləliklə, müstəqil dövlət yaratmaq istiqamətində yarana biləcək çətinliklərdən çəkinməklə əhali emosional deyil, daha praqmatik qərar qəbul edir. Separatizm problemi həddindən artıq mürəkkəb olduğu

[11] Samin Həsənov "Separatizm və dini amillər", Dirçəliş – XXI əsr – 2008, Bakı

üçün onun həllinə Burundi, Ruanda, Zair və ya Şri-Lankadakı kimi hərbi güc vasitəsilə nail olmaq mümkün deyil. Məsələn, Türkiyədə keçən əsrin 30-cu illərindən başlayaraq bir neçə dəfə kürd separatçılığı baş qaldırmış, dövlət hərbi güc tətbiq edərək bu qiyam ocaqlarını lokallaşdırmış, lakin bir müddət keçdikdən sonra partizan hərəkatı yenidən alovlanmışdır[12]. Yaxud bu yaxınlarda Şri-Lankada Tamil pələngləri hərəkatının ordu tərəfindən yatırılmasına və hərəkatın nəzarəti altında olan ərazilərə mərkəzi hakimiyyət orqanlarının qayıtmasına baxmayaraq, prezident seçkiləri ərəfəsində tamillərin yaşadığı bölgələrdə terror aktları həyata keçirildi. Dünya ictimaiyyəti separatçılıqla mübarizə sahəsində diplomatik səylərdən hərbi güc tətbiqinədək, münaqişə tərəflərindən birini dəstəkləməkdən münaqişəyə beynəlxalq müşahidəçiləri cəlb edərək onun həllini beynəlxalq təşkilatların öhdəsinə buraxmağadək bir çox tədbirlər sistemini sınaqdan çıxarıb. Bəzi hallarda münaqişənin aktiv fazasının söndürülməsinə nail olunsa da, separatçı hərəkatları tam ram etmək mümkün olmamışdır. Belə ki, hazırda dünyanın beynəlxalq münasibətlər sistemi özündə separatçılığa qarşı təsirli mübarizə metodlarını və cinayətkarların cəzalandırılmasını ehtiva edən hüquqi normalara və onların realizə mexanizminə malik deyil. Bu, onu göstərir ki, separatçılığın tam aradan qaldırılması mümkün deyil. Onun yalnız ekstremist fazaya keçməsini əngəlləmək olar. Bunun üçün isə beynəlxalq təşkilatlar ikili standartlardan çıxış etməməli, hər bir münaqişənin ədalətli həlli üçün maksimum səylərini artırmalı, BMT-nin mövcud sənədlərini rəhbər tutmalıdırlar. Belə ki, BMT tərəfindən etnik zəmində yaranmış münaqişələrin həllinə dair kifayət qədər effektiv mexanizmlər işlənib hazırlanmışdır[13]. Bu mənada BMTnin suverenləşmənin sərhədlərini məhdudlaşdıran "Sülh Proqramı" adı altında tanınan konsepsiyası mövcuddur. Həmin sənəddə etnik zəmində münaqişələrin həllinin və yeni dövlətlərin yaradılmasının yalnız ikitərəfli razılaşma əsasında mümkünlüyü öz əksini tapıb.Separatizm öz aktiv fazasına, adətən, dövlətdə sosial-iqtisadi və ictimaisiyasi qeyri-sabitlik dövründə keçir və ekstremizmlə müşayiət olunur. Bu

---

[12] Anderson, Talmadge; Stewart, James B. (2007), Introduction to African American studies: Transdisciplinary Approaches and Implications

[13] Little, Malcolm (1964), The Ballot or the Bullet, April 4, 1964

fazada separatçı bölgələrdə yerli əhali arasında güclü təbliğat işi aparılır, insanlarda çaş- qınlıq və dövlətə inamsızlıq hissləri yaradaraq onları mərkəzi hakimiyyət orqanlarına itaətsizlik aksiyalarına cəlb edirlər. Daha sonra ekstremist əhvali-ruhiyyəli gənclərdən ibarət yaraqlı dəstələri yaradılır və separatçılıq açıq silahlı qarşıdurma fazasına daxil olur. Separatçılığın intişar etməsində xarici amilin rolu çox böyükdür. Belə ki, heç bir separatçı hərəkat xaricdən dəstək almasa, böyük miqdarda maliyyə vəsaitinin və texniki vasitələrin (o cümlədən silah) tələb olunduğu aktiv və silahlı qarşıdurma fazalarına keçə bilməz.

Dünyanın bir çox yerində ulus-dövlətlər separatçı hərəkətlərlə baş edə bilmənin yollarını axtarır. Hər separatçı hərəkətlə bir siyasi təşkilatlanma modeli olaraq qanuniliyi bir az daha aşınan ulus-dövlət, bu separatçı hərəkətlərin hədəfindəki dövlət modeli olunca yeni bir adla yenidən ortaya çıxarılmış olur. Separatçı hərəkətlərlə demokratik yollarla mübarizə edə bilmək üçün avtoritar dövlətlərin demokratikləşdirilməsi, təməl insan hüquqlarına hörmət göstərilməsi, federalizm, asimmetrik səlahiyyət dövrü, ortaqlıq demokratiyası və ya çokkültürcülük və çox-ulusluluk kimi üsullar məsləhət göstərilir[14]. Demokratiyası zəif və fərdi hüquqların zəmanətdə olmadığı ölkələrdə separatçı hərəkətlərin varlığı adi qarşılanır, ancaq yaxşı işləyən bir demokratiyaya sahib olan Kanada, İspaniya, İtaliya, Fransa, İngiltərə, Belçika kimi Qərb demokratiyalarının da bənzər şəkildə separatçı tələblərlə qarşı-qarşıya qalması başları qarışdırır. Rawlsa görə, konstitusiya demokratik dövlət ədalətli dövlətdir, çünki əsas insan hüquqları və siyasi hüquqların bütün vətəndaşlar üçün bərabər olaraq təmin və mühafizə edildiyi tək siyasi nizamdır. Liberal demokratik ədalət anlayışına görə, konstitusiyasında təməl mədəni və siyasi hüquqlar zəmanət altına alan hər dövlət ədalətli dövlətdir və Şimali Amerika və Qərbi Avropadakı konstitusiyalı demokratiyaya sahib olan dövlətlər "Mükəmməl" ədalətli dövlətlər olduğundan, bu ölkələrdən ayrılma tələbləri haqlı görülməz ,ancaq bu ölkələr mükəmməl ya da məqbul səviyyədəədalətlidirlərsə, Kanada, İspaniya,İtaliya,

[14] Hüseyin Kalaycı - Ayrılıkçılık Kanada

İngiltərə, Belçika və Fransa kimi konstitusiyalı demokratik dövlətlərdə separatçı hərəkətlərin ortaya çıxışı necə açıqlana bilər?

Separatizm problemi ilə demokratik yollardan mübarizə edə bilmək üçün tez-tez tövsiyə edilən federasiya modelini uzun illər tətbiq etmək və eyni zamanda yenə ulus-dövlətin böhranına həll olaraq təklif edilən çokkültürcülüğü rəsmi siyasət olaraq qəbul etmək lazımdır.

## 1.2 Azərbaycanda separatizm hərəkatının təzahürləri və erməni separatizmi

Azərbaycan da polietnik dövlət kimi yarandığı ilk illərdən etnik separatçılıq problemi ilə üz-üzə qalmışdır. Belə ki, hələ 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti öz müstəqilliyini elan edəndə erməni separatçılığının ağır nəticələrini öz üzərində hiss etmiş, sovetləşmədən sonra erməni separatçılığı aktiv fazadan daim közərən münaqişə fazasına keçmişdir[15]. SSRİ-də mərkəzi hakimiyyət zəifləyən kimi, yəni 1988-ci ildə münaqişə yenidən alovlanmış, qonşu Ermənistan və digər dövlətlərin dəstəyi ilə ölkəmizin 20% ərazisi işğal olunmuşdur. Bu münaqişənin özəlliklərindən biri də budur ki, separatçılara dəstək verən Ermənistan Azərbaycana qarşı müharibəyə başlamış və bununla da konflikt millətlərarası münaqişədən dövlətlərarası münaqişə səviyyəsinə transformasiya olunmuşdur[16].

Təcavüzkar erməni separatçılığı ilə yanaşı, Azərbaycanda zaman-zaman ləzgi, talış, avar və kürd separatçılıqları da aktiv fazaya keçərək milli təhlükəsizliyə ciddi təhdid yaratmışdır. Bu hərəkatların oxşar cəhətləri olsa da, onların yaranma səbəbləri, intişar fazaları və tarixləri bir-birindən fərqlidir. Ölkəmizdə separatçı- lıq probleminin təbiətini aydınlaşdırmaq və onunla mübarizə metodlarını araş- dırmaq üçün, zənnimizcə, hər bir hərəkatın keçdiyi transformasiya dövrlərini nəzərdən keçirmək zəruridir[17].

---

[15] Qarabağ xəbərləri “Harınlıqdan doğan separatizm” 28.09.2010

[16] Nurlan Qələndərov “Separatizm neqativ geopolitik faktor kimi”

[17] Qarabağ xəbərləri “Harınlıqdan doğan separatizm” 28.09.2010

Ləzgi separatçılığı - Ləzgilər Azərbaycanın avtoxton xalqlarından olub, Qafqaz Albaniyasının əhalisini təşkil etmiş əsas etnoslardan biridir. Tarix boyu Azərbaycanın şimal-şərq bölgələrində məskunlaşmış ləzgilərin azəri türkləri ilə heç vaxt münaqişələri olmamış, hər iki xalq dostluq və qardaşlıq mühitində yaşamışdır. Ümumi sayı 180 min nəfərə qədər olan ləzgilər ölkəmizin Qusar (bu rayonda onlar çoxluq təşkil edirlər), Xaçmaz, Quba, Qəbələ, Oğuz və Şəki rayonlarında kompakt şəkildə məskunlaşmışlar. Hazırda Qusarda ləzgi teatrı fəaliyyət göstərir, ləzgilərin yaşadıqları bölgələrdəki məktəblərdə ləzgi dili dərsləri tədris olunur, bu dildə qəzetlər nəşr edilir, Azərbaycan radiosunda yarım saatlıq veriliş yayımlanır[18]. Adətən, separatçılığa səbəb olan məsələlər sırasında hər hansı bir dövlətdə milli zəmində tarixi düşmənçilik, etnik azlıqların milli dəyərlərinin kifayət qədər inkişaf etməsinə törədilən maneələr, din, mədəniyyət və dil ayrılığı, etnik azlıqların hüquqlarının tam şəkildə realizə olunmasında dövlət tərəfindən səhv siyasətin aparılması göstərilir. Lakin yuxarıda qeyd etdiyimiz kimi, ləzgilərlə azəri türkləri arasında nə tarixi düşmənçilik mövcud olmuş, nə də ləzgilərin milli hüquqları pozulmuşdur. Düzdür, ara-sıra bəzi ləzgi ziyalıları hələ sovet dövründə də muxtariyyət tələbləri ilə çıxış etmiş, Moskva qarşısında ləzgilərin guya Azərbaycanda sıxışdırıldıqları barədə məsələ qaldırmışlar[19]. Lakin bu tələblər və iddialar ləzgi ictimaiyyəti tərəfindən qəbul edilməmiş, "muxtariyyətçilər" ziyalı- lar arasında marginal qrup olaraq qalmışlar. Lakin Azərbaycanda erməni separatçılığı baş qaldırdıqdan sonra ləzgilərin sıx məskunlaşdığı rayonlarda vəziyyətin gərginləşməsi müşahidə olunmağa başladı. Belə ki, ölkəmizdə ləzgilərin yığ- cam yaşadıqları məntəqələrə Dağıstanda yaradılmış "Sadval" ("Birlik") ləzgi xalq hərəkatının emissarlarının səfər etməsi və yerlərdə hərəkatın struktur bölmələrinin yaradılması istiqamətində təşkilati işlər görməsi qeydə alınma- ğa başladı. Keçən əsrin 90-cı illərinin əvvəllərində ölkədə hökm sürən hərcmərclik və dövlət orqanlarının kifayət qədər effektiv işləyə bilməməsi, o zamankı hakimiyyətin ifrat türkçülük siyasəti nəticəsində ləzgilər arasında dövlətə qarşı

---

18 Samin Həsənov "Separatizm və dini amillər", Dirçəliş – XXI əsr – 2008, Bakı

19 Hall, Raymond L. (1978), Black Separatism in the United States, University Press of New England

inamsızlıq hisslərinin baş qaldırması, radikal əhvali-ruhiyyəli gənclərin "Sadval"a meyillənməsi prosesi vüsət aldı. Bu işdə Ermənistanın xüsusi xidmət orqanlarının müstəsna rol oynaması haqqında Azərbaycanın hüquq-mühafizə orqanlarında kifayət qədər materiallar var və onlar ictimaiyyətə açıqlanmışdır[20]. Belə ki, 1992-ci ildə Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi tərəfindən ifşa olunmuş erməni casusu Volkovun üzərindən Ermənistan Politexnik İnstitutunun mətbəəsində çap olunmuş, ləzgiləri Azərbaycan dövləti ilə mübarizəyə səsləyən təxribat xarakterli vərəqələr aşkarlanmışdır. Casusun etirafına görə, həmin vərəqələri ona Azərbaycanda yaymaq məqsədilə erməni kəşfiyyatının əməkdaşı vermiş, görəcəyi işin müqabilində pul mükafatı vəd etmişdi. Bundan əlavə, Ermənistan kəşfiyyatı Dağıstanda ləzgilərin sıx yaşadıqları rayonlarda fəal təxribat işləri aparır, ləzgi gənclərindən ibarət yaraqlı dəstələri yaradaraq, onlara Dərbənd rayonunun Bilici qəsəbəsində və Məhərrəmkənd rayonunda təşkil etdikləri hərbi düşərgələrdə təlim keçirdilər.

Məlum olmuşdur ki, Ermənistan xüsusi xidmət orqanları 1992-ci ilin yazında Dağıstanın Qasımkənd rayonuna iki vertolyotla xeyli sayda silah-sursat gətirmiş və Dağıstanda, Azərbaycanda fəaliyyət göstərən sadvalçılara paylanmasını təşkil etmişlər. Sonradan sadvalçılar həmin silahlardan istifadə edərək 1993-cü ilin yayında Azərbaycan ərazisinə hücum etmiş, Qusar rayonunun Zuxul kəndi yaxınlığında bir polis əməkdaşını qətlə yetirmiş və iki hərbçini yaralamışlar[21]. Erməni kəşfiyyatı Azərbaycan ərazisində təxribatçı-casus şəbəkəsi yaratmaq məqsədilə 1992-ci ilin aprelində milliyyətcə ləzgi olan 17 nəfər Azərbaycan Respublikası vətəndaşının Ermənistanın Nairi rayonunun Luoker qəsəbəsinə gətirilməsini, burada yerləşən bazasında partizan müharibəsi və terror fəaliyyəti üzrə təlim keçməsini təşkil etmişdir[22]. Həmin təlim düşərgəsində olmuş sadvalçılardan biri - Oqtay Qurbanov 1994-cü il martın 19-da Bakı Metropolitenində çoxsaylı insan tələfatı ilə nəticələnmiş partlayış törədərək, özü də həlak olmuşdur. Milli Təhlükəsizlik Nazirliyinin keçirdiyi

---

[20] İlham ismayıl "Açıq separatizmin məxfi tərəfləri" 24.12.2010

[21] Qarabağ xəbərləri "Harınlıqdan doğan separatizm" 28.09.2010

[22] İlham ismayıl "Açıq separatizmin məxfi tərəfləri" 24.12.2010

tədbirlər nəticəsində Ermənistan xüsusi xidmət orqanlarının Azərbaycan ərazisində yaratdığı təxribatçı-casus şəbəkəsi ifşa olunmuş, ona daxil olan şəxslər müəyyənləşdirilərək, zərərsizləşdirilmiş və məhkəmə tərəfindən müxtəlif müddətli həbs cəzasına məhkum olunmuşlar. Əldə olunmuş materiallar əsasında Ermənistanın dövlət orqanı olan Milli Təhlükəsizlik İdarəsinin Azərbaycan ərazisində törədilmiş terror aktlarını və Dağıstan-Bakı istiqamətində hərəkət edən sərnişin qatarlarındakı partlayışları birbaşa təşkil etməsi sübuta yetirilmişdir. Səciyyəvi haldır ki, Ermənistanın dövlət səviyyəsində terroru dəstəkləməsi haqqında faktlar ictimaiyyətə açıqlandıqdan sonra bu ölkə “Sadval”la əlaqələrini zəiflətmiş və Azərbaycanda ləzgi separatçı- lığı xeyli səngimişdir. Düzdür, 1996-cı ildə özünü ləzgi xalqının imamı elan etmiş Rusiya vətəndaşı Asul Rəsulov Azərbaycan ərazisindən Rusiya hərbçilərinə hücum təşkil etmək məqsədilə ölkəmizə gələrək burada inanclı ləzgi və digər xalqların gənclərindən ibarət yaraqlı dəstələri yaratmağa cəhd göstərmiş, lakin onun fəaliyyəti əhali tərəfindən neqativ qarşılanmış və o, Milli Təhlükəsizlik Nazirliyinin keçirdiyi əməliyyat nəticəsində həbs olunaraq mühakimə edilmişdir. Göstərilənlər separatçılığın aktiv fazaya keçməsi üçün xarici dəstəyin mühüm amil olmasının bariz nümunəsidir.

Talış separatçılığı - Talışlar da ləzgilər kimi Azərbaycanın aborigen xalqlarındandırlar. Onlar bu ərazilərdə eramızdan çox-çox əvvəl məskunlaşmış, Midiya dövlətinin qədim sakinləri olmuşlar. Hazırda rəsmi statistikaya görə, Azərbaycanda 80 min talış yaşayır. Lakin əslində bu rəqəmin reallığı əks etdirməməsi, talışların daha çox olması ehtimal olunur. Məsələ ondadır ki, 1926-cı ildə keçirilmiş siyahıyaalma zamanı 77 mindən çox talış qeydə alınmış, 1937-ci ildə isə bu rəqəm 3 minə qədər azalmışdır. Yalnız 1989-cu ildə keçirilmiş siyahıyaalma zamanı 21 min nəfər milliyyət qrafasında “talış” kimi qeydə alınmış, 1999-cu ildə isə siyahıyaalmanın nəticələrinə görə, talışların sayı 80 mini ötmüşdür[23]. Rəqəmlərdəki fərq onunla izah olunur ki, sovet dövründə azsaylı xalqların nümayəndələri titul xalqın xeyrinə siyahıya alınırdı və ölkənin müstəqillik əldə etməsi azsaylı xalqlarda

[23] Qarabağ xəbərləri “Harınlıqdan doğan separatizm” 28.09.2010

milli oyanış prosesinə təkan verərək, onların öz etnik identikliyinin bərpası ilə nəticələnmişdir. Qeyd etmək lazımdır ki, ləzgilərdə olduğu kimi, talışların da milli mədəniyyətlərinin və dillərinin qorunması istiqamətində xeyli iş görülür, talış dili bu xalqın kompakt yaşadığı Lənkəran, Astara, Lerik və Masallı rayonlarının məktəblərində tədris edilir, qəzetlər və kitablar nəşr olunur, Azərbaycan radiosunda verilişlər yayımlanır. Azərbaycan millətinin ayrılmaz hissəsi olan talışlar azəri türkləri ilə o qədər qaynayıb-qarışmışlar ki, onların adət-ənənələri bir-birindən, demək olar ki, heç nə ilə fərqlənmir[24]. Tarix boyu talışlarla azəri türkləri arasında etnik zəmində heç bir münaqişə baş verməmiş, talış xalqının igid oğulları Vətənin müstəqilliyi uğrunda milli azadlıq hərəkatında fəal iştirak etmiş, Lənkəran batalyonu Qarabağ döyüşlərində misilsiz şücaət göstərərək xeyli sayda şəhid vermişdir. Lakin bununla yanaşı, bəzi talış ziyalıları 90-cı illərin əvvəllərində Azərbaycan rəhbərliyinin yürütdüyü pantürkist siyasətdən ehtiyatlanaraq, xalq arasında millətçi təbliğat aparmağa başlamış və guya talışların hüquqlarını qorumaq məqsədilə 1992-ci ilin yayında Talış Xalq Partiyasını (sonradan etnik mənsubiyyət əsasında partiya yaradılmasının beynəlxalq birlik tərəfindən birmənalı qarşılanmayacağını anlayaraq, partiya rəhbərliyi quruma Azərbaycan Xalq Bərabərlik Partiyası (AXBP) adını qoydu) təsis etmişlər. Həmin partiyanın paytaxtın "Bakı" kinoteatrında keçirilmiş təsis qurultayının kuluarlarında ilk dəfə "Talış Muğan Respublikası" ideyası ortaya atılmışdır. Partiya yaranmamış- dan əvvəl talış millətçiliyinin və separatçılığının təbliği Lənkəranda fəaliyyət göstərən "Avesta" Talış Mədəniyyət Mərkəzinin çətiri altında aparılırdı[25].

Belə ki, "Avesta"nın fəalları talışların Azərbaycanda ta qədimdən yaşamalarına, türklərin isə gəlmə xalq olmasına baxmayaraq, talışların hüquqlarının pozulmasını, onların ölkənin idarəetmə orqanlarında kifayət qədər təmsil olunmamalarını iddia edir, talış dilinə ikinci dövlət dili statusunun verilməsini tələb

---

[24] Nurlan Qələndərov "Separatizm neqativ geopolitik faktor kimi"

[25] Qarabağ xəbərləri "Harınlıqdan doğan separatizm" 28.09.2010

edirdilər. AXBP yarandığı gündən antitürk təbliğatı apararaq, ölkənin cənub bölgəsinin əhalisi arasında təxribat və pozuculuq fəaliyyəti ilə məşğul olmağa başladı. 1993-cü ilin yazında ölkədə vəziyyətin gərginləşməsindən istifadə edən separatçı talış hərəkatının liderləri o zaman müdafiə nazirinin müavini vəzifəsini tutan Əlikram Hümbətovun partiya sıralarına qoşulmasına nail olub hərəkatı Lənkəran batalyonu timsalında silahlı güclə təmin etdilər. Nəticədə, 1993-cü ilin yayında ölkədə hökm sürən hakimiyyətsizlik mühitində cənub bölgəsində Əlikram Hümbətovun başçılıq etdiyi hərbi hissənin şəxsi heyəti tərəfindən yerlərdə fəaliyyət göstərən dövlət orqanları devrildi və Talış Muğan Respublikasının (TMR) yaradılması elan edildi. Qısa zaman kəsiyində TMR-in parlamenti fəaliyyətə başladı, himni 77 və bayrağı təsis olundu. Lakin əhali tərəfindən dəstəklənməyən TMR-in ömrü heç iki ay çəkmədi. Ümummilli lider Heydər Əliyevin xalqa müraciətindən sonra ayağa qalxmış Lənkəran və digər rayonların əhalisinin Əlikram Hümbətovun rəhbərlik etdiyi hərbi hissəyə hücumu nəticəsində separatçıların fəaliyyətinə son qoyuldu, Əlikram Hümbətov isə həbs edilərək cinayət məsuliyyətinə cəlb olundu. Lakin bununla belə, Əlikram Hümbətovu qabağa verməklə kölgədə qalmış talış separatçılarının ideoloqları məsuliyyətdən yayına bilmiş və indi Rusiyaya sığınaraq internet vasitəsilə Azərbaycana qarşı pozucu təbliğat işi ilə məşğul olurlar. Həmin şəxslərin Ermənistan tərəfindən himayə olunması, onların bu ölkəyə müntəzəm səfərləri barədə mətbuatda məlumatlar yer almaqdadır. Buna baxmayaraq, hazırda ölkənin cənub bölgələrində vəziyyət sabitdir və əhali arasında separatçılıq meyilləri müşahidə olunmur[26].

Kürd separatçılığı - Azərbaycan ərazisində kürdlərin məskunlaşmağa başlaması milliyyətcə kürd olan Şəddadilər sülaləsinin hakimiyyəti dövrünə təsadüf edir. Azərbaycan torpaqları işğal olunmazdan əvvəl kürdlər kompakt şəkildə Laçın, Kəlbəcər və Qubadlı rayonlarının bəzi kəndlərində yaşayırdılar. Ərazilərimizin ilhaqından sonra kürdlər ölkənin müxtəlif bölgələrində qaçqın kimi məskunlaşmışlar. Qeyd etmək lazımdır ki, ölkəmizdə 12 min yerli və təxminən 20 min 1988- ci ildə

[26] Lenin “Sosyalizm ve Savaş”

Ermənistandan zorla köçürülmüş müsəlman kürdü yaşayır (Kürdlərin bir qismi kökü zərdüştiliklə bağlı özünəməxsus dini etiqadın daşıyıcılarıdır və onları yezidi kürd adlandırırlar. Yezidi kürdlər hazırda Ermənistanda və az bir qismi Gürcüstanda yaşayır. Maraqlıdır ki, yezidi kürdlər müsəlman kürdləri ilə ailə qurmur və bu adət indiyədək qorunub saxlanılır)[27].

Azərbaycan radiosunda kürd dilində verilişlər yayımlanır, qəzet və orta məktəbdə tədris üçün dərsliklər nəşr olunur, "Ronayi" ("Ziya") Kürd Mədəniyyət Mərkəzi fəaliyyət göstərir. Azəri türkləri Azərbaycanda yaşayan digər etnoslarla olduğu kimi tarix boyu kürdlərlə də dinc, yanaşı yaşamış, bir-biri ilə qohumluq əlaqələri qurmuşlar. Lakin hələ sovet dövründə Laçın və Kəlbəcərdə yaşayan, mənşəcə kürd olan bəzi ziyalılar kürdlərin məskunlaşdığı ərazilərdə muxtar qurum yaratmaq tələbi ilə çıxış etmiş və tələblərini guya keçən əsrin 20-ci illərində Azərbaycan SSRin tərkibində "Qırmızı Kürdüstan" adlı muxtar qurumun mövcud olması ilə əsaslandırmışlar.

Amma bu tələb yerli kürd əhali tərəfindən dəstəklənməmiş və SSRİ-nin repressiv aparatı "muxtariyyətçilər" i tez bir zamanda susdurmuşdur[28]. Qeyd etmək lazımdır ki, 1923-cü ildə Azərbaycan SSR-in Kirovun başçılıq etdiyi Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyətinin fərmanı ilə mərkəzi Laçın qəsəbəsi olan, özündə Qaraqışlaq, Kəlbəcər, Qubadlı, Qoturlu, Kürd Hacılı və Muradxanlı dairələrini birləşdirən Kürdüstan uyezdi yaradılmış, 1929-cu ildə inzibati-ərazi bölgüsünün dairə sisteminə keçidi ilə əlaqədar ləğv edilərək 1930-cu il mayın 25-dən avqustun 8-dək Kürdüstan dairəsi kimi mövcud olmuşdur. "Muxtariyyətçilər"in iddialarına baxmayaraq, bu qurum heç vaxt muxtariyyət statusu daşımamışdır. Keçən əsrin 80-ci illərinin sonunda Moskvada "Yakbun" ("Birlik") Kürd Assosiasiyası yaradıldı və erməni millətçiləri bu qurumla əlaqələr yaradaraq, kürdlərdən

---

[27] Nurlan Qələndərov "Separatizm neqativ geopolitik faktor kimi"

[28] İlham ismayıl "Açıq separatizmin məxfi tərəfləri" 24.12.2010

Azərbaycana qarşı yürütdükləri eksponsionist siyasətdə istifadə etməyə cəhd göstərdilər[29].

Belə ki, erməni emissarları və Ermənistanda yaşayan yezidi kürd ziyalılarının təhriki ilə Moskvada “Yakbun”un üzvləri “Qırmızı Kürdüstan bərpa olunsun!” şüarı ilə piketlər keçirmişlər. 1992-ci ildə Laçın rayonu işğal olunduqdan sonra Ermənistan xüsusi xidmət orqanları Qazaxıstanda və Rusiyanın Krasnodar diyarında məskunlaşmış kürdlər arasında Azərbaycanın işğal olunmuş ərazisində “Kürdüstan dövləti” yaradılması ideyasını təbliğ etməyə başladılar. Bu işdə ermənilər əslən Ermənistandan olan, uzun müddət Azərbaycan SSR-in milis orqanlarında xidmət etmiş milliyyətcə kürd Vəkil Mustafayevdən fəal istifadə etdilər. Belə ki, 1992-ci ilin may ayında Azərbaycandan Ermənistana qaçan V. Mustafayev həmin il iyunun 17-də Laçında peyda olaraq bir qrup yezidi kürdlə birlikdə işğal olunmuş rayonun ərazisində “Kürdüstan dövləti”nin yaradılmasını elan etdi. Ermənilər Laçın rayonunda bufer dövlət yaratmaq və onu sığortalamaq məqsədilə guya yaradılmış “Kürdüstan”a postsovet məkanında yaşayan kürdlərin köçürülməsi prosesini başlatmaq niyyətində idilər. Lakin Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyi və o zaman Prezidentin milli məsələlər üzrə müşaviri Hidayət Orucovun ümumi səyləri ilə görülmüş preventiv tədbirlər nəticəsində ermənilərin bu planı iflasa uğradı. 1992-ci ildə Türkiyə ilə sərhədlərin açılmasından sonra PKK SSRİ məkanında, o cümlədən Azərbaycanda yaşayan kürdləri öz ətrafında birləşdirmək istiqamətində fəaliyyətini gücləndirdi. Bunun üçün PKK kürdlərin sıx yaşadığı bölgələrə emissarlar göndərir və onlar burada partiyanın təmsilçiləri (məsulu) kimi fəaliyyət göstərirlər[30].

PKK məsulunun əsas vəzifəsi yerli kürdləri təşkilatlandırmaq, gənclər arasından partiyanın partizan dəstələrində döyüşmək üçün namizədlər seçmək, milliyyətcə kürd türkiyəli iş adamlarından xərac toplayaraq PKK-nın MDB üzrə mərkəzi qərargahı kimi Moskvada fəaliyyət göstərən “Kürd evi”nə göndərməkdir.

---

[29] Nurlan Qələndərov “Separatizm neqativ geopolitik faktor kimi”

[30] Samin Həsənov “Separatizm və dini amillər”, Dirçəliş – XXI əsr – 2008, Bakı

Eyni zamanda, PKK məsulları milliyyətcə kürd türkiyəli tələbələr arasında da fəal təbliğat və təşkilati iş aparır, Türkiyəyə qayıtdıqdan sonra onlardan istifadə etmək məqsədilə partiyaya ya üzv, ya da "yurdsevər" statusunda qoşulmalarına nail olmağa cəhd göstərirlər. Hazırda ölkəmizin ərazisində kürd separatçılığı ictimai-siyasi həyatın gündəmində deyil. Belə ki, PKK-nın lideri Abdulla Öcalanın "Nə Qırmızı, nə də Sarı Kürdüstan var, yalnız bizim uğrunda mübarizə apardığımız Vahid Kürdüstan var" açıqlaması Azərbaycan ərazisində Kürdüstan dövləti qurmaq istiqamətində pozucu fəaliyyətin xeyli səngiməsinə səbəb oldu.

Avar separatçılığı - Avarlar sayca ləzgilərdən sonra Azərbaycanda yaşayan dağıstan dilli ikinci xalqdır. 1999-cu ildə keçirilmiş siyahıya alma zamanı avarların sayının 50 mindən artıq olduğu göstərilmişdir. Avarlar ölkəmizin şimalında, Zaqatala və Balakən rayonlarında kompakt şəkildə məskunlaşmışlar. Tarixi qaynaqlarda avarların müasir Azərbaycan ərazisinə nə vaxt gəldikləri haqqında dəqiq məlumat yoxdur. Lakin artıq XVI əsrdə avarların bu bölgələrdə azad camaatlıqlar şəklində yaşamalarına dair tarixi sənədlər mövcuddur. Balakən və xüsusən Zaqatala rayonlarında bir çox xalqların nümayəndələrinin yaşamasına baxmayaraq, burada tarix boyu etnik zəmində hər hansı bir münaqişənin baş verməsi qeydə alınmamışdır[31].

Avarlar Azərbaycan cəmiyyətinə o dərəcə inteqrasiya olunublar ki, böyük şəhərlərdə yaşayan avarları azəri türklərindən seçmək belə çətindir. Azərbaycanda avar separatçılığı yalnız keçən əsrin 90-cı illərində özünü büruzə verməyə başlamışdır və bu hərəkat özündə separatçılıqdan daha çox millətçilik elementlərini daşıyırdı. Ölkəmizdə avar millətçiliyinin baş qaldırmasında Dağıstanda avar hərəkatının vüsət alması da əsas rollardan birini oynamışdı. Lakin həmin dövrdə yerli avarlardan yaradılan yaraqlı dəstələri bölgənin Azərbaycanın tərkibindən çıxmasını deyil, avarların yerli dövlət orqanlarında və biznes sahəsində daha çox təmsil olunması tələbini irəli sürürdülər. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsi və ölkədə, o cümlədən şimal bölgələrində vəziyyətin sabitləşməsi avar

31 İlham ismayıl "Açıq separatizmin məxfi tərəfləri" 24.12.2010

millətçiliyinin səngiməsinə səbəb oldu. Lakin Ermənistanın xüsusi xidmət orqanları Azərbaycanın şimal bölgələrində sabitliyi pozmaq və etnik zəmində yeni münaqişə ocağı yaratmaq məqsədilə avar hərəkatının bəzi liderləri ilə əlaqə quraraq onları dövlətə qarşı silahlı mübarizə aparmağa təhrik etmişlər. Zaqatala və Balakən rayonlarından olan bir qrup şəxs yaraqlı dəstə yaradaraq meşələrə çəkilsə də, polis, Daxili Qoşunlar, Dövlət Sərhəd Xidməti və digər hüquq-mühafizə orqanlarının birgə həyata keçirdikləri əməliyyat-axtarış və döyüş tədbirləri nəticəsində silahlı dəstə zərərsizləşdirilmiş, onun üzvləri həbs olunaraq cinayət məsuliyyətinə cəlb edilmiş və cinayət əməllərinin erməni kəşfiyyatının təhriki ilə törədilməsi sübuta yetirilmişdir.

Erməni separatizmi - Azərbaycan 22 ildir ki, etnik separatizmdən əziyyət çəkir. Çoxmillətli respublikamızın içində separatizm ocağı qalayan və onu böyük yanğına çevirən etnik qrup ermənilərdir. Bir neçə etnik qrupun eyni vaxtda başladığı etnik separatizm konfliktləri ilə baş-başa qalan qonşu Gürcüstandan fərqli olaraq, Azərbaycanda yalnız ermənilər Azərbaycan dövlətinə qarşı müharibəyə başlayıblar. Bir neçə başqa milli azlıqların sırasında epizodik qımıldanmalar olsa da, bu, diletant və məsuliyyətsiz qrupların həvəskar çıxışlarından uzağa getmədi. Məlum oldu ki, Azərbaycanda yaşayan milli azlıqlarla milli çoxluğun arasında həll olunması mümkün olmayan elə bir ciddi problem yoxdur[32].

Əslində ermənilərin separatçı hərəkətlərinin səbəbləri heç də siyasi, sosial-iqtisadi, demoqrafiq problemlərə dayanmır. Hələ sovet dövründə ermənilərin kompakt yaşadığı Dağlıq Qarabağ Muxtar Vilayətinin əhalisi öz rifah səviyyəsinə, məşğulluq dərəcəsinə görə ölkənin digər regionlarından üstünlüyü ilə fərqlənirdi. Azərbaycanın dörd bir yanında qazanılan pullar məhz DQMV-yə axırdı. Bu, əsasən dövlət dotasiyası şəklində olurdu, ancaq başqa kanallar da mövcud idi.

Ölkənin cənub, qərb, şimal və aran rayonlarında tapılmayan ərzaq məhsulları, geyim məmulatları məhz DQMV-də tapılırdı. Bu vilayətdə ermənilər muxtariyyətin ən ali növünə sahib idilər. Stepanakert, Martuni və Mardakertdən keçən adamlar şahidlik edə bilərlər ki, bu şəhər və qəsəbələrin heç yerində Azərbaycan dilində

---

[32] Utku Kızılok "Özerklik Tartışmaları ve Şovenizm" May 2014

yazılmış lövhələrə, elan və şüarlara rast gəlmək mümkün deyildi. Hər bir yazı erməni dilində idi. Nabələd adam bu yerlərin Ermənistana məxsus olduğunu zənn edərdi. Ermənilər öz dillərində təhsil alır, qəzet nəşr edir, radio yayımı həyata keçirirdilər. DQMV-nin Azərbaycandan asılılığı yalnız kağız üzərində idi və daha çox mərkəzdən subvensiya və dotasiya almaq üçün işə yarayırdı. Hər hansı bir basqıdan, milli zəmində zülmdən, istismardan söhbət belə gedə bilməzdi. Buna görə də iddia etməyə əsas var ki, erməniləri separatizmə sürükləyən başlıca səbəb milli muxtariyyatın zəifliyi, formallığı yox, onun həddindən artıq ermənilərin həzm edə biləcəyindən çox olması olub. Sadəcə, ermənilər DQMV-ni öz müstəqil dövlətləri hesab etdikləri üçün əllərinə düşmüş ilk fürsətdə onu rəsmən elan etməyə qalxdılar.

Bu zaman onlar sovet-kommunist totalitarizminin, SSRİ imperiyasının bir qədər zəifləmiş olmasından istifadə etdilər. Əgər DQMV ərazisində baş qaldıran ilk separatizm dalğası sovet dalğaqıranlarına dəyərək amansızlıqla qırılsaydı, ermənilər Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək niyyətini bir neçə on il təxirə salacaqdılar. Amma SSRİ rəhbərliyi boş, yumşaq tərpəndi və nəticədə SSRİ dağıldı.

Erməni separatizmi dünya ölkələrində mövcud olan bölücülük hərəkatlarının heç birinə bənzəmir. Bəzən erməni alimləri müxtəlif ölkələrdəki separatçılıq və ya milli-azadlıq hərəkatları özləri arasında ümimi cəhətlər, bənzərliklər tapmağa çalışır, böyük-böyük məqalələr yazırlar. Məsələn, Vahan Sərkisyan adlı erməni linqvisti az qala sübut etməyə çalışır ki, İspaniyadakı basklar ermənilərlə eyni kökdəndir və ona görə bu qədər azadlıq sevəndirlər. Sərkisyan erməni və bask dillərində bir-birinə identik olan sözləri toplayaraq balaca bir sözlük də tərtib edib. Ancaq basklarla ermənilər arasında böyük fərqlər olduğu kimi, onların bölücülük ideyaları, eləcə də məqsədəçatma taktikaları arasında da böyük fərqlər var.

### 1.3. Kürd separatizmi

Kürd separatizmi son zamanlar Yaxın Şərq və Cənubi Qafqaz regionları üçün təhlükə mənbəyinə çevrilmiş fəaliyyətlər həyata keçirir. Kürd separatizmi yeni deyil

və on illərdir ki, Türkiyə, Suriya, İraq siyasətinin mərkəzindədir. PKK-KADEK lideri Öcalan 5 ölkənin ərazilərini özündə birləşdirən "konfederasiya" qurmaq istədiyini bildirib. "Konfederasiya"nın tərkibinə Azərbaycanın 4 rayonu da daxildir[33].

Yaxın Şərq regionunda, xüsusilə, Türkiyə, İraq, İran və Azərbaycanda kürd faktorunun xeyli aktivləşdiyi və terrorist separatizmlə müşahidə olunan bu aktivliyin bölgə üçün ciddi təhlükəyə çevrildiyi müşahidə edilir.

ABŞ-ın işğalından sonra kürdlər İraqın yeni dövlət quruluşunun təşkilində əsas xalq kimi iştirak edir (ölkə əhalisi kürd, şiə və sünni kimi üç qrupa bölünüb), icra strukturu və parlamentdə təmsil olunurlar. Paralel olaraq Türkiyədə PKK terror təşkilatının qanlı əməliyyatlarının sayı artıb və bu addımlar Türkiyədə 2009-cu ilin 11 dekabrına qədər leqal şəkildə fəaliyyət göstərmiş və həmin tarixdə Türkiyə Konstitusiya Məhkəməsinin qərarı ilə qapadılmış Demokratik Toplum Partiyası, eləcə də qeyri-hökumət təşkilatları, eyni zamanda media yolu ilə tamamlanır[34]. Suriya ilə bağlı ABŞ administrasiyasının mövqeyinin kəskinləşməsi fonunda Suriyaya qarşı kürd faktorundan istifadə ediləcəyinə dair planlar hazırlandığı bildirilir və 1,5 milyon kürdün yaşadığı həmin ərəb ölkəsində fəaliyyət göstərən "Yekiti" təşkilatının imkanlarından istifadə edilməsini nəzərdə tutan layihələrin mövcudluğu istisna edilmir. İranla bağlı Ağ Evin gələcək planlarında da bu ölkədə yaşayan kürd etnosunun adı gündəmə gətirilir[35].

Nəhayət, Azərbaycanda kürd probleminin, özü də PKK-ya bağlı separatçı qüvvə şəklində dövlət idarəçiliyində belə özünə yer tapması sirr deyil. Kremlin himayəsindən yəhudi marağına bəllidir ki, regionda kürd kartıdan ilk əvvəl keçmiş SSRİ-nin xüsusi xidmət orqanları fəal şəkildə istifadə edib, kürd qruplaşmalarının ideoloji baxımdan sol plaftorma əsasında təşkilatlanması istiqamətində məqsədyönlü

---

[33] Samin Həsənov "Separatizm və dini amillər", Dirçəliş – XXI əsr – 2008, Bakı

[34] Hall, Raymond L. (1978). Black Separatism in the United States. Hanover, New Hampshire: University Press of New England

[35] Arenson, Karen W. (April 19, 2006). "CUNY Program to Help Black Men Is Called Discriminatory". New York Times.

işlər görüb[36]. Bu özünü həm Türkiyə ərazisində PKK-nın formalaşdırılması və yönləndirilməsi, həm də İraqın şimalında 1961-ci ilin sentyabrında Məsud Bərzaninin atası Mustafanın rəhbərliyi altında başlanmış silahlı hərəkatın dəstəklənməsində göstərib.

Hazırda isə kürd etnosunun əsas dayağı Ağ Ev sayılır. ABŞ-ın kürd faktoruna müraciət etməsinin əsas səbəbi Yaxın Şərqdə strateji müttəfiq saydığı İsrailin maraqlarının təmin olunmasıdır. Belə ki, İsraillə müharibə vəziyyətində olan Suriyada, İraqda, eləcə də İranda kürdlərin varlığı ortaq düşmənə qarşı müttəfiqlik ilişkilərinə yol açıb[37]. Türk mətbuatının son dövrlərdə açıqladığı bir məlumata görə, hələ Ədalət Partiyası iqtidarı dövründə ABŞ Türkiyə rəhbərliyinə qonşu dövlətlərdə kürdlərin yaşadığı əraziləri əhatə etməklə (Türkiyənin şərq əyalətləri, İraqın və İranın Şimalı, Suriyanın bir hissəsi və Azərbaycanın işğal olunmuş üç rayonu daxildir) Türkiyə tərkibində bir federasiya yaratmağı təklif edib.

2001-ci il sentyabrın 11-də Nyu-Yorkda baş verən terror hadisəsindən sonra ABŞ-ın Yaxın Şərq siyasətində köklü dəyişikliklər meydana çıxdı. Genişləndirilmiş Böyük Yaxın Şərq Layihəsi şəklində konseptual bir yanaşma ortaya qoyuldu. Bildirildiyinə görə, layihədə Şimali Afrikadan tutmuş İndoneziya və Mərkəzi Asiyaya qədər ərazidə rejimlərin xarakterini dəyişdirmək, bu regionda müttəfiqlik baxışlarına yenidən baxmaq, yeni müttəfiqlik əlaqələri yaratmaq nəzərdə tutulur. Bu kontekstdə ABŞ-ın kürdlərlə əlaqələrinin də müttəfiqlik səviyyəsinə yüksəldiyi, İsrailin də xüsusən Şimali İraqdakı administrasiya ilə əlaqələri hərtərəfli inkişaf etdirdiyi müşahidə olunur[38]. Hələ 1991-ci ildə İsraildə dərc olunmuş "İraq üçün "Marşall planı" və İsrail iqtisadiyyatı" məqaləsində belə bir fikir irəli sürülürdü ki, Amerika yaxın dövrlərdə İraqa hücum etsə, İsrailin iqtisadiyyatında köklü dəyişikliklər meydana çıxacaq. Hələ həmin dövrdə İraqın üç hissəyə bölünməsinin

---

[36] Hüseyin Kalaycı – Ayrılıkçılık, Kanada

[37] D.L. Horowitz's "Patterns of Ethnic Separatism", originally published inComparative Studies in Society and History, 1981, vol 23, 165-95. Republished in John A. Hall, The State: Critical Concepts, Routledge, 1994.

[38] Howell, Nancy B. "Radical Relatedness and Feminist Separatism"

zəruriliyi vurğulanır, bu zaman ölkənin ayrı-ayrı hissələrinin yeni infrastrukturunun təşkil olunması, eləcə də əsasən amerikalılardan ibarət 70 minədək əsgərin ölkənin təhlükəsizliyini təmin etməyə cəlb olunması təklifi səslənirdi.

2003-cü ildən sonra yaranmış vəziyyət İran rejiminin öz ərazisində yaşayan kürdlərlə münasibətlərdə də fərqli taktika yeritməyə sövq edir. Əvvəllər rəsmi Tehran Cənubi Azərbaycanın qərb ərazilərində kürdlərlə Azərbaycan türkləri arasında münasibətləri nəzarətdə saxlamaq üçün kürdlərə kart-blanş verməyi üstün tuturdusa, sonrakı mərhələdə bu xətdə bir qədər ehtiyatlılıq görsənir. Xüsusilə terrorçu PKK təşkilatının İran qolu kimi qələmə verilən "PJAK"ın adının bir sıra təxribat aksiyalarının səbəbkarı kimi hallandırılması fonunda İran rejiminin Türkiyə ilə əməkdaşlıq görüntüsü yaratmağa çalışdığı müşahidə edilir. Bu əlaqələr istər hökumət başçıları, istərsə milli təhlükəsizlik şuraları və müvafiq dövlət strukturları səviyyəsində davam etdirilsə də, Tehranın hər hansı səmərəli nəticələr təqdim etdiyi məlum deyil[39].

2006-cı ildə Güney Azərbaycanın Maku şəhərində Abdulla Öcalanın ad günü münasibətilə kürdlərin Azərbaycan türklərinə yönəlmiş təhdidlə dolu vərəqələrin yayılmasında da Tehranın maraqlı olduğu bir sıra müşahidəçilər tərəfindən vurğulanır. İranın PKK ilə əməkdaşlıq etməsi, həmin terror qurumunun şimal-qərb ərazilərdə, İraqla sərhəddə bazalarının, hətta xəstəxanalarının olduğuna dair məlumatlar Güney Azərbaycan fəallarının elektron KİV-ində dəfələrlə təfsilatı ilə açıqlanıb.

Güney Azərbaycanın Türkiyə və “İran Kürdüstanı” sərhəd bölgələrində planlı şəkildə məskunlaşan kürdlərin silahlandırılması prosesində rəsmi Tehranın paniranist və fars şovinizmi mərkəzləri də istənilən imkanları yaradırlar. Son bilgilərə görə təkcə Urmu şəhərinin “Bərq” (işıq) dördyolu məntəqəsində məskunlaşmış kürd əhalisinin sayəsində 10 min nəfərlik qeyri rəsmi silahlı qüvvələr yaradılmaqdadır. Hətta bu hərbi birliklərin İraq üzərindən bölgəyə daşınan silahlarla təchiz

[39] İlham ismayıl “Açıq separatizmin məxfi tərəfləri” 24.12.2010

olunmasında heç bir problem yoxdur. İran rejimi isə kürd əhalisinin əlində olan bu silahların qanuniləşdirilməsi üçün dövlətin rəsmi orqanı olan SEPAH-ın (İslam İnqilabı Keşikçilər Korpusu) və ETTEALAT-ın idarələrində xüsusi qeydiyyat bölümünü də yaratmışdır. Hətta kürdlərə məxsus evlərin damlarında "İran Kürdüstanı"nın bayraqlarının dalğalanmasına dövlətin rəsmi qurumları tərəfindən heç bir yasaq yoxdur. Sulduz, Urmu, Xoy, Maku, Səlmas, Sayınqala, Tikantəpə və Qoşaçay şəhərlərinə köçmüş kürdlərə məxsus dükanlarda, şirkətlərin binasında, çayxana və qəhvəxanalarda "İraq Kürdüstanı Muxtariyyəti"nin lideri Məsud Bərzani və İraq prezidenti CəlalTələbaninin, PKK lideri Abdulla Öcalanın belə portretləri asılmışdır. Bu bölgələrdə kürdlərə məxsus minik avtomobillərində həmin türk qatillərinin şəkillərinin, "Kürdüstan" xəritəsi və bayrağının vurulması halları çox geniş yayılmışdır. Bu xəritələrdə Güney Azərbaycanın Urmu vilayəti, Türkiyənin güney-doğu vilayətləri, Azərbaycan Respublikasının Laçın, Kəlbəcər, Zəngilan, Qubadlı və Füzuli rayonlarının əraziləri də daxil edilmişdir. Son dönəmdə Sulduz, Urmu, Tikantəpə, Səlmas, Xoy, Makı, Sayınqala, Qoşaçay və digər şəhərlərə köç etmiş kürd tayfaları isə bunlardırlar: keçelan, torini, adaman, koçgiri, holikan, elimiho, trigever, karabalan, gerdeyari, vəznə, gülbahə, siyalə, mametkan, seli yetimi, hadranlu, ağucanan, derviş cemala, sağman və haverki. Bu əşirətləri bir araya gətirərək böyük bir siyasi gücə çevrilmələri üçün PDK və PJAK-ın çox güclü təbliğat şəbəkəsi də qurulmuşdur. Bu yöndə "pyam.nu" internet səhifəsi əsas təbliğat tribunası hesab olunur[40].

Güney Azərbaycanın Sulduz şəhərinə köçərək məskunlaşan kürdlər burada "Sazemane Defa əz Hüquqe Bəşər Dər Kordestan" adı ilə "hüquq müdafiə" təşkilatını yaratmışlar. Halbuki, İran tipli avtoritar və diktator rejimində hər hansı bir ictimai qurum, mətbu orqan ilk öncə ölkənin daxili işlər nazirliyində qeydiyyatdan keçməlidir. Bu yöndə xüsusi icazə almayanların fəaliyyəti isə qanunsuz sayılır. Bu qurum PKK və PJAK kimi qatı antitürk kürd partiyalarını açıq şəkildə müdafiə edir.

[40] Абдулатипов Р. Г. Этнополитология. СПб.: Питер, 2004. С. 249

“Sazemane Defa əz Hüquqe Bəşər Dər Kordestan” qurumunun son bəyanatlarından birində belə qeyd olunur:[41] “Sulduz bölgəsi ələvi qızılbaşlarının qədim torpaqlarıdır və onlar etnik mənşə baxımından kürd olmuşlar. Sulduz şəhərinə yaxın olan Urmu, Makı, Xoy, Səlmas, Sayınqala, Qoşaçay, Bicar, Gövrə və digər bölgələr ən qədim kürd torpaqlarıdır”.

Tehrandan siyasi, ictimai və silah dəstəyi alaraq Urmu vilayətində məskunlaşmış kürdlər bölgədə sərbəst şəkildə silahlı halda gəzə bildikləri üçün Azərbaycan Türklərinə qarşı yeni üsullardan istifadə etməyə cəhd göstərirlər. Gəlmə kürdlər işadamlarından, dükan sahiblərindən, digər iaşə obyektlərindən, istehsal sahələrindən aylıq qeyri rəsmi “xərac” ödənilməsi siyasətinə üz tutmuşlar. Kürdlər silahlı qruplar şəklində hətta Güney Azərbaycan Türklərinə məxsus kəndlərə belə basqılar edərək kəndlilərin hər ay onlara bac ödəmələrini tələb edirlər. Belə bir aksiyaların birində bölgədə hərbi xidmətdə olan Məcid Talibi və Əli Sadıqzadə kürdlərin bu qanunsuz əməllərinin qarşısını almaq istədiklərində onlar terror olunaraq öldürülmüşlər. Tehran rejiminin “xeyir-duası” ilə ölkə parlamentinə deputat seçilmiş Bəhaəddin Ədəb paniranistlərin ona arxa olmasından yararlanaraq “Urmu Azərbaycan Türklərinin deyil, kürdlərin qədim şəhəridir” açıqlamasını verdikdən sonra, dərhal üzr istəmişdir. Ancaq, İran parlamentinin digər deputatı Xədicə Mənsuri isə “Urmu hər zaman kürdlərin bölgəsi olmuşdur” deməklə yanaşı, ona qarşı Azərbaycan Türklərinin deputatları öz etirazlarını bildirdiklərində, heç bir üzrxahlıqda bulunmaq istəmədiyini bildirmişdir[42].

Güney Azərbaycanda son illər məskunlaşan kürdlərin arasında Quzey İraqdakı Mustafa Bərzani hökumətinin dəstəyilə dərc olunan “Türkiyə və Güney Azərbaycan arasında bütün kürdlər məskunlaşaraq bufer rolunu oynamalıdırlar” təbliğatlarını aparan kitablar, dərgilər, broşürlər yayılmaqdadır. Həmin ədəbiyyatlarda kürdlərin səfərbər olunması, 19-cu yüzilin sonlarında və 20-ci yüzilin ilk onilliyində silahlandırılaraq Azərbaycan Türklərinə qarşı mübarizə aparmaları

---

[41] Hall, Raymond L. (1978), Black Separatism in the United States, University Press of New England

[42] Lenin “Sosyalizm ve Savaş”

yönündə təşviqedici təbliğata geniş yer verilmişdir. Tehran rejimi isə dağlıq yollarla Güney Azərbaycana gətirilən bu ədəbiyyatlara hər dəfə olduğu kimi göz yummaqla yetinməkdədir. Urmu vilayətinin bütün şəhərlərində yerli məmurlar bu "zərərli ədəbiyyatlarla" bağlı Tehran hökumətinə şikayətlər etsələr də, hələ ki, bunun qarşısı alınmır. Yerli idarəetmə strukturklarının belə kürdlərin "işi"nə qarışmaq hüququ yoxdur. Tehran rəsmilərinin fikrincə Güney Azərbaycanda daha geniş şəkildə vüsət alan Milli Hərəkatın qarşısını almaq üçün bir sıra süni problemlərin gündəmə gəlməsi bəlli strategiyanın inkişaf etməsi üçün daha məntiqlidir. Çünki, Güneydəki Milli Hərəkat "mərkəzi hökumət"lə deyil, "kürd separatizmi"nə qarşı mübarizə aparcağı təqdirdə, teokratik rejim üçün bunun daha faydalı ola biləcəyi düşünülür[43].

Əslində kürdlərin öz milli muxtariyyətlərini qurmaq iddiası Tehran rejimi üçün nə qədər təhlükəli sayılsa da, Güney Azərbaycan Milli Hərəkatının yüksəlişi fars şovinizmi və paniranizm çevrələri üçün daha çox qorxulu hesab olunur. Tehran rejiminə məxsus mərkəzlərin təhlillərində o da qeyd olunur ki, kürdlər və Azərbaycan Türkləri bir-birilərilə savaşa, münaqişələrə cəlb olunacaqları təqdirdə, nəticə etibarı ilə bu iki qonşu toplum tamamilə yorulacaq və sonda isə fars mərkəzli rejim qalib olacaqdır.

2006-cı ildə İran prezidenti Mahmud Əhmədinejat Quzey İraqdakı "BİrIəşmiş Kürdüstan Cəbhəsi" təşkilatı ilə dialoqa girmək üçün çoxlu cəhdlər etdi. Mahmud Əhmədinejat İran Kürdüstanı ilə bağlı yaranmış bütün problemlərin həlli istiqamətində tezliklə bunların həll olunmasına çalışacağı vədlərini də irəli sürmüşdü. "Birləşmiş Kürdüstan Cəbhəsi"nin o dönəmdəki lideri Bəhaəddin Ədəb isə ilk addım kimi "İran Kürdüstanı"nın hüquqlarının tanınması şərtlərinin tezliklə həll edilməsini istəmişdi:[44]

"İran Kürdüstanında yerli özünü idarəetmə hüquqlarının olması, kürd dilinin rəsmi dövlət dili statusunda çıxış etməsi, İrandakı hakimiyyətdə strateji vəzifələrdə kürdlərin sayının artırılması" və digər tələbləri irəli sürmüşdü. Dialoq şərtlərinə "İran

[43] Hüseyin Kalaycı - Ayrılıkçılık Kanada

[44] Little, Malcolm (1964), The Ballot or the Bullet, April 4, 1964

Kürdüstan Demokrat Partiyası"nın, "Komala – Kürdüstan Kommunist Partiyası"nın, "Kürdüstan İşçi Partiyası"nın, "PJAK"-ın siyasi hüquqlarının Tehran rejimi tərəfindən tanınması istənilmişdir. İran tərəfi PJAK lideri Rəhman Hacı Əhmədinin (Almaniyada yaşayır) 2007-ci ilin iyun ayında ABŞ-a rəsmi səfərində maliyyə və silah dəstəyinin verilməsini istəməsini gündəmə gətirərək, sol yönümlü kürd partiyalarının tanınmasını qeyri məqbul hesab etmişdi[45].

Türkiyə və Azərbaycanda kürd separatizmi.

Türkiyə dövləti ilə onun əhalisinin 15-20 faizini təşkil edən kürdlər arasında dərin düşmənçilik hissi var.

Kürdlər nəsillər boyu Türkiyə hakimiyyətindən sərt rəftar görüblər. Kürdlərin 1920-30-cu illərdəki üsyanlarından sonra onların bir çoxunun məskənləri dəyişdirilib, kürd adları və geyimləri qadağan edilib, kürd dilindən istifadə məhdudlaşdırılıb və hətta kürd etnik kimliyinin mövcudluğu inkar edilib, onlar "dağ türkləri" adlandırılıblar.

1978-ci ildə Abdullah Ocalan Türkiyənin daxilində müstəqil dövlət qurulmasına çalışan PKK-nı yaradıb. O vaxtdan bəri 40 min insan öldürülüb və minlərlə başqaları yurdlarından didərgin düşüb.

1990-cı illərdə PKK müstəqillik tələbindən geri çəkilib, əvəzində mədəni və siyasi muxtariyyətə çağırıb, lakin eyni zamanda mübarizəni də davam etdirib. 2012-ci ildə hökumət və PKK sülh danışıqlarına başlayıblar və növbəti ildə atəşkəs razılaşması əldə edilib. PKK döyüşçülərindən İraqın şimalına keçmək tələb olunub, lakin toqquşmalar yenə də kəsilməyib[46]. Ankara İD-i təhlükə hesab etsə də, Türkiyə kürdlərinin sərhədi keçərək PKK-nın Suriyadakı qolu sayılan PYD-ə qoşulacağından və Türkiyə ərazisinə hücumlar edəcəyindən də qorxur. .Türkiyə həmçinin bəyan edib ki, Suriya prezidenti Bəşər əl-Əsəd hakimiyyətdən devrilməyincə ABŞ-ın rəhbərliyi altında İD-ə qarşı koalisiyaya dəstək verməyəcək.

---

[45] Abbott, Philip. "Utopian Problem-Solving: 'The Great Divorce' and the Secession Question", The Journal of Politics, Cilt. 62, No. 2 (Mayıs, 2000), ss. 511-533.

[46] Ağaoğulları, Mehmet Ali. Ulus-Devlet ya da Halk Egemenliği (Ankara: İmge, 2006)

Uzun müddət Türkiyə üçün problemlər yaradan kürd separatizmi hazırki dönəmdə yeni bir mərhələni yaşamaqdadır. Belə ki, Türkiyədə fəaliyyət göstərən Demokratik Toplum partiyasını tam şəkildə kürd separatizminin leqal forması hesab etmək olar. PKK-ilə münasibətlərin gərgin dönəmində açıqdan-açığa terrorizmi dəstəkləyən, hətta sərbəst şəkildə PKK bazalarına gedib gələn DTP liderlərinin böyük əksəriyyəti bir zamanlar əllərinə silah götürərək terrorçu kimi fəaliyyət göstəriblər. Düzdür DTP-nin siyasi düzəndə yer alması Ankaranın özünü Avropaya Milli azlıqlara hörmətlə yanaşan və dinc kürd etnosuna qarşı qərəzçilik etmədiyini göstərməsi ilə bağlıdır. Amma son reallıqlar da onu göstərdi ki, bu yanaşma nəticə etibarı ilə kürd separatizminin leqal formada Türkiyə siyasətində söz sahibinə çevrilməsinə gətirib çıxarır[47].

## 1.4. Separatizm və Rusiya

Ukraynada baş verən olaylar, xüsusilə də Krımda Rusiyanın son aktivləşməsi və muxtariyyətin mərkəzdənqaçma meyilləri postsovet məkanında separatizm problemini yenidən gündəmə gətirib. Nəzər yetirsək görmüş olarıq ki, postsovet məkanında öz inkişaf yolunu sərbəst müəyyənləşdirmək istəyən cəmiyyətlər, müstəqil siyasət yeritməyə meyil edən dövlətlərin hər biri separatizmdən əziyyət çəkir[48]. Separatizm meyillərinin arxasında isə birbaşa Rusiya amilinin durması heç kəsə sirr deyil. Həm Dağlıq Qarabağ, həm Abxaziya və Osetiya, həm Dnestryanı, həm də son vaxtlar aktuallaşan Qaqauziya və Krım problemləri açıq şəkildə Rusiyanın SSRİ-nin şinelindən çıxmış dövlətlərə təzyiq vasitəsi olduğunu ortaya qoyur.

Qeyd edək ki, ayrı-ayrı postsovet ölkələrində mövcud olan sözügedən problemlərin əksəriyyətinin mövcudluq tarixi elə həmin dövlətlərin yaşı ilə eynidir.

---

47 Curtois, Stéphane. Démocratie délibérative et sécession", Revue Canadienne de science politique, Cilt. 37, No. 4, (Aralık 2004), ss. 811-838.

48 Д. В. Заяц выделял 54 очага — вместе с Сербией, Черногорией и Восточным Тимором, которые стали независимыми государствами, признанными ООН

Bu problemlərin həll olunmaması Rusiyanın marağında olmaqla həmin dövlətləri bir növ, özündən asılı vəziyyətə salmaq məqsədi daşıyır[49].

Azərbaycanın üzləşdiyi Dağlıq Qarabağ separatizminə nəzər yetirsək görərik ki, bu problem uzun illərdir ki, ölkəmizin inkişafının qarşısında bir növ səddə çevrilib. Problemin mövcud olduğu 26 ildir və hazırda Azərbaycan torpaqlarının 20%-i işğal altındadır. Bu torpaqlarda yaşayan 1 milyon əhali isə məcburi köçkün vəziyyətindədir. Əlbəttə ki, onların bütün problemləri dövlətin üzərində bir yükdür. Həmçinin problemin həllinin açarının Rusiyanın cibində olması ölkəmizin müəyyən məqamlarda bu dövlətin maraqlarını nəzərə almasını zəruri edir. Bu isə Azərbaycanın inkişafına müəyyən mənada da olsa. öz təsirini göstərir. (Son dövrlər Rusiyanın Azərbaycana təsir imkanlarını minumuma endirəcək ciddi addımlar atılmışdır. Məsələn, ölkənin iqtisadi-enerji müstəqilliyinin möhkəmləndirilməsi, Qəbələ RLS-in bağlanması və s. Lakin digər ölkələr hələ də bunu reallaşdıra bilmirlər. Bu isə Azərbaycan dövlətinin uğuru kimi qiymətləndirilə bilər)[50].

Abxaziya və Osetiya problemləri isə Gürcüstanın inkişafını və Avropaya inteqrasiyasını əngəlləməkdədir. Bu separatizm Rusiya tərəfindən xüsusilə açıq dəstək görməkdədir. Hətta məlum olduğu kimi, Rusiya bu separatçı qurumları dövlət kimi də tanıyıb.

Dnestryanı, Qaqauziya problemləri isə Moldovanın qarşısında səddir. Dnestyanı problemi çoxdan mövcud olsa da, Qaqauziya Moldovanın assosiativ üzvlüklə bağlı Avropa İttifaqı ilə bağladığı müqavilədən sonra ortaya çıxıb.

Krım bölgəsində baş verən separatçılıq hərəkətləri isə məlum olduğu kimi, Rusiyameyilli Yanukoviçin devrilməsindən sonra aktuallaşdı. Qeyd edək ki,

---

49 Абдулатипов Р. Г. Этнополитология. СПб.Питер, 2004. С. 249.

50 Бодрова Е. В. К вопросу о причинах роста национального сепаратизма на Северном Кавказе в годы Великой Отечественной войны // Знание. Понимание. Умение. — 2005. — № 2. — С. 23-30.

Ukraynada Qərbyönümlü qüvvələrin hakimiyyətə gəlişindən sonra Rusiyanın adekvat addımlar atacağı gözlənilən idi. Lakin onun açıq şəkildə separatist və təcavüzkar reaksiyası dünya ictimaiyyətini bir növ şok vəziyyətinə salıb[51].

Göründüyü kimi, Rusiya regional proseslərdə öz maraqları naminə hər cür varianta əl atmaqdadır. Xüsusilə də Ukraynanın Gömrük İttifaqı və Avrasiya Birliyi kimi Rusiyanın rəhbərliyi ilə yaradılan birliklərdən imtinası onun üçün bağışlanmazdı.

Müşahidələr göstərir ki, Rusiya postsovet ölkələrini öz təsir dairəsində saxlamaq üçün 20 ildən çoxdur ki, eyni taktikadan istifadə edir. Dünyanın dəyişməsinə, siyasi proseslərin, beynəlxalq münasibətlərin yeni çalarlar kəsb etməsinə baxmayaraq Rusiyanın hələ də öz köhnə metodlarından əl çəkmək fikrində olmadığı ortadadır. Məhz Rusiyanın bu mahiyyəti köhnə müttəfiqlərini ondan üz döndərməyə meyilləndirir[52]. Rusiyanın separatizmə dəstək vasitəsilə təzyiq siyasəti müəyyən mənada işə yarasa da, əslində həmin dövlətlər, cəmiyyətlər öz yollarına davam etməkdədirlər. Digər tərəfdən Rusiyanın bu metodu cəmiyyətlərdə, xalqlarda ona qarşı bir növ, aqressiya yaradır, ikrah doğurur. Demokratiyanın növbəti dalğasının başlandığı, qloballaşmanın vüsət aldığı bir dövrdə Rusiyanın öz maraqarını yalnız aqressiv metodlarla müdafiə etməsi yalnız müvəqqəti effekt verə bilər. Çünki sirr deyildir ki, Rusiyanın təsir altında saxlamağa cəhd göstərdiyi bütün bölgələr ondan uzaqlaşmağa, Qərbə, Avropaya inteqrasiyaya can atırlar. Bu dövlətləri Qərbə meyilləndirən nədir? Əlbəttə ki, sivil demokratik cəmiyyət, hüquqi dövlət,

[51] Конституція України | від 28.06.1996 № 254к/96-ВР (Сторінка 2 з 4)

[52] Elxan Şahinoğlu “Ukraynanın separatizm üzərində qələbə çalmaqdan başqa alternativi yoxdur” 23.01.2015

sərbəst bazar iqtisadiyyatı, bərabərhüquqlu münasibətlər və s. qurmaq, yaratmaq arzusu[53].

Lakin Rusiya öz təsir dairəsində olan regionda böyük qardaş funksiyasını yerinə yetirmək iddiasından imina etməməkdə, təzyiq, hədə metodundan istifadə etməkdə israrlı görünür. Bu isə əlbəttə ki, köhnə tərəfdaş dövlətlərin ondan uzaqlaşmasına gətirib çıxarır.

ABŞ və ümumilikdə Qərb ölkələrinin də dünyanın müxtəlif bölgələrində öz maraqlarını reallaşdırmağa cəhd göstərdiyi də sirr deyil. Lakin onlar bunu, müəyyən istisnalarla, daha çox sivil, şirnikləndirici yolla həyata keçirməyə çalışdıqları halda, Rusiya hələ də aqressiv metodlardan əl çəkmir. Bu isə Rusiyanın bir növ, demokratik və sivil dünya ictimaiyyətinə əks olan dövlət imicinin formalaşmasına gətirib çıxarır.

Təhlillər göstərir ki, Rusiya postsosialist dövlətlərini təzyiq üsulları ilə deyil, ancaq şirnikləndirici vasitələrdən istifadə etməklə öz ətrafında saxlaya bilər. Bu, həm siyasi, həm də iqtisadi müstəvilərdə reallaşdırılmalıdır[54]. Ümumiyyətlə ətrafında Qərblə mübarizə aparmaq gücünə sahib olan bir ittifaq yaratmaq niyyətində olan bir dövlətin xüsusilə yaxın qonşuları və köhnə müttəfiqləri ilə münasibətlərinə həssaslıqla yanaşması zəruridir. Lakin görünən odur ki, bunu Rusiyanın bəzi dairələri dərk etməkdə çətinlik çəkirlər.

Həmin dairələrin atdığı addımlar imperiyaya çevrildiyi XVIII əsrdən uzun bir dövr keçməsinə baxmayaraq Rusiyanın öz imperiya iddialarından bu gün də əl çəkmək niyyətində olmadığını nümayiş etdirir. Rusiya ötən əsrlərdə həm xarici siyasətdə, həm də öz təbəəsi altına keçmiş xalqlarla münasibət aspektindən daxili

---

[53] Elxan Şahinoğlu "Ukraynanın separatizm üzərində qələbə çalmaqdan başqa alternativi yoxdur" 23.01.2015

[54] Бодрова Е. В. К вопросу о причинах роста национального сепаратизма на Северном Кавказе в годы Великой Отечественной войны // Знание. Понимание. Умение. 2005. — № 2. — С. 23-30

siyasətdə hansı iş üslubundan çıxış edirdisə bugünkü demokratik adlandırılan siyasi sistemə malik olduğu bir vaxtda da eyni yanaşmalara üstünlük verir[55].

Bu isə birbaşa Rusiyanın artıq oturuşmuş ənənəvi imperiya iddialarından irəli gəlir. Yəni Rusiya artıq imperiya xüsusiyyətlərini, imperiya baxışlarını, imperiya maraqlarını mənimsəmiş və onlara alışmış bir dövlətdir. Bir vaxtlar «Avropanın jandarmı» rolunda köhnə qitədə baş verən mühüm mütərəqqi tarixi prosesləri əngəlləməyə cəhd göstərən Rusiya Sovet İttifaqı adı altında bu fəaliyyətini davam etdirmiş, özü ilə bərabər, bir sıra postsosialist dövlətlərinin inkişafını da 70 il ləngitmişdi. Rusiya bu gün də müəyyən mənada ənənəvi missiyasını davam etdirməkdədir. Bu onun son dövrlər artan aqressiv siyasi kursunda özünü açıq-aşkar büruzə verir.

Əslində hər bir böyük dövlət istər regional, istərsə də dünya miqyasında öz maraq və iddialarını təmin etməyə cəhd göstərir və bu, normaldır. Lakin Rusiyanın öz iddialarını müəyyən güc və təzyiq metodlarına üstünlük verməklə reallaşdırması qəbuledilməzdir. Öz nüfuz dairəsi hesab etdiyi regionda Rusiyanın müasir dünyanın qəbul etdiyi metodlardan deyil, özünün ənənəvi yanaşmalarına üstünlük verməsi, region ölkələrinə, Qərbə inteqrasiya xətti götürən cəmiyyətlərə, xalqlara təzyiqlər göstərməsi, müxtəlif iqtisadi- tranzit və enerji layihələrinə maneçilik törətməsi, ən əsası isə separatizmi dəstəkləməsi onun imperialist maraqlarının təzahürüdür.

---

[55] Кримінальний кодекс України | від 05.04.2001 № 2341-III (Сторінка 4 з 13)

## II Fəsil. Şovinizm, şovinist millətçiliyin müasir dünyada yeri və nəticəsi

### 2.1. Şovinizmin ilk təzahürləri və yaranması.

Şovinizm (fr. chauvinisme) — millətçiliyin ifrat, mürtəce formalarından biridir. Başqa millət və xalqlara nifrət və ədavəti qızışdırmağa yönəlmişdir. Milliyyətçiliyin, bir xalqın digərindən ya da digərlərindən üstün olduğu, başqa xalqları boyunduruq altına alan və milli qarşıdurmaların həddindən artıq mürtəce forması şovinizm olaraq adlandırılır. Şovinzm siyasəti "ikinci dərəcəli" millət və irqlər üzərində hökmranlıq etməli bir millətin milli müstəsnalığını təbliğ edir. Ən geniş mənasıyla şovinizm, hər hansı bir qrupa olan həddindən artıq, səbəbə söykənmədən ibarət olan bağlılıqdır, digər tərəfə qarşı olan nifrət və pis niyyət duyğularını da bərabərində gətirər. Eyni zamanda şovinizm hər hansı bir şeyə olan həddindən artıq, səbəbli və ya səbəbsiz bağlılıqdır. Xüsusilə də başqa millətlərə qarşı dözümsüzlük və təcavüzkarlıq, həddindən artıq və fanatik milliyyətçilik mənasında istifadə edilən bir termindir. Həddindən artıq milliyyətçi və vətənpərvər bir düşüncədir. Bu milliyyətçi və fanatik bağlılığı sərgiləyən kimsəyə də, şovinist deyilməkdədir[56].

Şovinizm termininin ilkin mənası, 1815-ci ildən sonra yayılan və əsgərliklə əlaqədar hər şeyi ucaltma ehtirasına söykənirdi. Hal-hazırda "Şovenizm" bir adamın aid olduğu yerə ya da qrupa, həddindən artıq və romantik bağlılığını ifadə etmək üçün də istifadə edilir. Amma əsl mənasıyla milliyyətçiliyin böyük ölçüdə abartılmasına söykənən mürtəce burjua ideologiyası və siyasətidir[57].

Şovinizm boyun əydirilən digər xalqların talan edilməsi məqsədinə yönəlmişdir, öz ulusunun üstün ulus olduğunu irəli sürərkən digər xalqları aşağı səviyyəli görür və təhqir edər. Kobud bir ayrı-seçkilik təməlinə oturan bu ideologiya

---

[56] Əhməd Şahidov "XXI əsrin ideal tələbəsi ifrat dini və şovinist ideyalardan uzaq olmalıdır" 12.05.2012

[57] Michael Korda, Male Chauvinism! How It Works. New York: Random House, 1973

heç bir elmi təmələ əsaslanmır. Ən əhəmiyyətli metodu demaqoqluq, ən yetkin silahı irqçilik və antikomunizmdir[58].

Şovinizm termini 1831-ci ildə Fransada yazılmış komediyalardan birinin qəhrəmanı - Napoleonun işğalçılıq siyasətinin pərəstişkarı Nikola Şovenin adından yaranmışdır. Napoleonun ordusunda əsgər olan bu Fransız, 17 dəfə yaralandı və yenə də Fransa üçün döyüşməyə davam etdi. Özünü ölkəsi uğruna fəda etməkdən qaçınmayan Napoleonun əsgəri Chauvinin təcavüzkar vətənpərvərliyinə şovinizm deyilməyə başlandı. Bu dövrdən etibarən də həddindən artıq dərəcədə başqalarına həyat haqqı tanımayan növdən bir milliyyətçilik anlayışı "şovinizm" olaraq adlandırılmışdır.

Şovinizm sözü ilə millətçilik eksterminizmin müxtəlif təzahürlərini ifadə edirlər. XIX əsrin 70-ci illərində Böyük Britaniyada Şovinizm xüsusi ad - cinqoizm adını almışdır. Şovinizmin digər təzahürləri sosial-şovinizm, hakim millətçilik şovinizmidir.

İrqçi-faşist düşüncənin qaynağı şoven duyğularda yatar. Şovinizm çox vaxt irqçi görüşlərlə eynilik təşkil edir. Bu istiqamətləri ilə təcavüzkar və mürtəce xüsusiyyətlər daşıyır. Bu yolla "yurdunu, vətənini sevmə" bəhanəsiylə imperialist döyüşlər haqlı göstərilə bilər. Necə ki Birinci və İkinci Dünya Döyüşlərində kütlələri döyüşə sürmək üçün istifadə edilən şovinizm ən həddindən artıq formasını Hitler Almaniyası və Mussolini İtalyasının faşizminin ideologiyasını və siyasətində tapmışdır[59].

Şovenizm anlayışından yaranmış bir başqa anlayış daha vardır: “İctimai şovinizm”. Sosial şovinizm, proletariat enternasyonalizmini, xalqçılıq adına yaxınlıq mənasını verir. Leninin məşhur əsəri “Dövlət və İnqilabın ön sözündə ictimai şovinizm”. Sözdə sosialist, praktikada şovinist olan öz dövlətlərinin maraqlarına alçaqca ayaq uydurma rəftarı olaraq təyin olunar.

---

[58] Mansbridge, Jane; Katherine Flaster (2005). "Male Chauvinist, Feminist, Sexist, and Sexual Harassment: Different Trajectories in Feminist Linguistic Innovation". American Speech (Harvard University) 80 (3): 261

[59] Utku Kızılok “Özerklik Tartışmaları ve Şovenizm” May 2014

Bu sözdə sosialist praktikada şovinist olan kəslər xalqların öz müqəddəratını təyin haqqını sözlə tanıdıqları halda, bir ulusun əzilməsi, "şəxsən öz" xalqlarının etdiyi bir iş olduğu zaman, o ulusun azadlığı istiqamətində heç bir xəbərdar və təbliğat etmək səyi göstərməzlər[60].

Yaxın tarixdə Şovenizm termininə yeni bir ölçü daha qazandırılmaq istənildi və "Erkək şovinist", "Dişi şovinist" kimi bir ayrı-seçkilik edilib və bu termin qarşı cinsə üstünlük göstərmək məqsədiylə istifadə edilməyə başlandı. Ancaq bilinməlidir ki, bu istifadə səhvdir və şovenizmin dişilik və erkəklik ilə heç bir əlaqəsi yoxdur. Başqalarına həyat haqqı tanımayan növdən bir milliyyətçilik anlayışı olan şovinizm kapitalizmin işçi sinifi üzərində ayrı-seçkilik etmə, xalqları bir-birinə qırdırmaq məqsədiylə istifadə etdiyi bir silahdan ibarətdir[61].

Eyni zamanda şovinizm öz milli üstünlüyünü vurğulayan və davamlı olaraq bu üstünlüyü təhdid edən düşmənlər təyin edən, yaradan və bu "düşmənlərə" qarşı təhrik edici bir dil istifadə edərək ictimai fikir yaratmağa çalışan bir suveren sinif fikridir. Şovinizm ən başından bəri işğalçı bir motivə sahib olan sərmayənin ehtiyaclarını bütün xalqın ehtiyacları olaraq anlatmasının ən vəhşi ideologiyası olaraq ayrı-bir xüsusiyyətə sahibdir[62].

İnsanlıq tarixinin gördüyü ən böyük iki döyüş daxil olmaqla, kapitalizmin qopmaz bir parçası olan bütün döyüşlərdə, şovinizm hərəkətə keçirici təməl fikir olaraq işləyir[63]. Sol içində öz suveren sinifinin maraqlarını müdafiə mənasını verən ictimai şovinizm ictimaiyyətin şovenizmin praktik nəticələrinə razı edilməsində bir sıra "günahsız" fikirlərdən istifadə edir. Sosial şovinizm suveren sinifin şiddət, ayrı-

---

60 Əhməd Şahidov "XXI əsrin ideal tələbəsi ifrat dini və şovinist ideyalardan uzaq olmalıdır" 12.05.2012

61 Jenkins, B. L., & Phillis, S. (1976). Black separatism: a bibliography. Westport, Conn: Greenwood Press

62 Imagined Communities: Reflections on the Origin and Spread of Nationalism (New York: Verso, 1983)

63 Suavi Aydın, Modernleşme ve Milliyetçilik, Gündoğan Yayınları

seçkilik, döyüş, vəsvəsə tələb edən şovenizmindən yalnız tək bir vurğuyla ayrılır: vətənpərvərlik[64].

Vətənpərvərlik sosial şovenizmin arxasına gizləndiyi maskadır. I Dünya Döyüşünün başlanğıcında işçi sinifinin birləşmiş təşkilatı olan II Enternasyonalın bölünməsində açar rolu oynamışdır[65]. Almaniyada sosialistlər, Almaniyanın döyüşə girməsi lehinə mövqe aldıqlarında, işçi sinifinin beynəlxalq həmrəyliyi və hər ölkənin işçi sinifinin öz suveren sinifini devirməsi yerinə, fərqli ölkələrdəki işçilərin milli üniformalarla döyüş meydanlarında bir-birini boğazlamasını müdafiə başladı. "Yurd müdafiəsi" işçilərin bir-birini qətl etmək üçün o dövrün sosial şovenistlərinin ən çox müraciət etdiyi iddia oldu.

## 2.2. Erməni xalqının şovinist siyasəti

1917-ci il fevral inqilabından sonra baş verən hadisələrə nəzər saldıqda bu qənaətə gəlmək olur ki, ermənilər bölgədə baş verən dəyişikliklərdən məharətlə istifadə etməyə davam etmiş, cəfəng, [66]avantürist istəklərini həyata keçirmək üçün ilhamlanmışdılar. Bu dövrdə Avropa ölkələrində «erməni məsələsi»nin siyasət aləminə daxil olunması təmin edilmiş, erməni «Daşnaksütyun» partiyasının əsas qüvvələri Cənubi Qafqaza, xüsusilə Bakıya yığılmış və onlar «Böyük Ermənistan» yaradılması üçün yeni taktikaya keçmişdilər[67]. Rus, eləcə də ingilis, fransız hökumətləri ilə bağlı olan və onlara xidmət edən «Daşnaksütyun» partiyası «Böyük Ermənistan» xəritəsini əllərində gəzdirərək, millətlər arasında, xüsusilə

---

[64] Aktürk, Şener. "Etnik Kategori ve Milliyetçilik: Tek-etnili, Çok-etnili ve Gayri-Etnik Rejimler", Doğu Batı, Cilt 9, No. 38, Ağustos-Ekim 2006, ss. 23-53.

[65] Alan, Remezan. "Ulusal edebiyatın önündeki çalılık" (Kürtçeden çeviren: Serhat Resul Çaçan), Birikim, 195, Temmuz 2005, ss. 66-70.

[66] Alonso, Sonia. "Enduring Ethnicity: The Political Survival of Incumbent Ethnic Parties in Western Democracies", American Political Science Association (APSA), 1-4 Eylül 2005, ss. 1-30

[67] Imagined Communities: Reflections on the Origin and Spread of Nationalism (New York: Verso, 1983)

Azərbaycanda gərginlik yaradaraq, azərbaycanlılara qarşı düşmənçiliyi daha da qızışdırırdı: "Erməni şovinist millətçilərinin bu hərəkətləri, hətta, Cənubi Qafqazda bütün partiyaların narazılığına səbəb olmuşdu. Bu dövr daşnak partiyasının mürtəce sifəti artıq kimsəyə sirr deyildi. Bu baxımdan maraqlıdır ki, hətta 1917-ci ilin sentyabrında erməni eserlərinin konfrası daşnaklarla blokdan imtina etmişdi[68]. Oktyabr siyasi çevrilişinin əldə etdiyi nailiyyətlərə qarşı mübarizə aparan əksinqilabçı daşnaksütyun Ermənistan ərazisində erməni iri ticarət – sənaye burjuaziyanın diktaturasını qurmaq və Turkiyənin (Şərqi Anadolunun yeddi vilayəti), Gürcüstanın (Axalkalaki, Borçalı və b.) və Azərbaycanın (Qarabağ, Naxçıvan və b.) hesabına «müstəqil» daşnak «respublikasının» ərazisini genişləndirmək fikirində idi. Qeyd etmək lazımdır ki, vaxtilə daşnakların burjua millətçi siyasətini Bakıda gənc erməni inqilabçıları qrupu ciddi tənqidlə qarşılamışdı. Bu qrupun başında A.İ.Mikoyan dururdu və onun tərkibinə Mirzəbekyan, A.Qriqoryan, A.Akopyan, S.Tumayan, Q.Tovmasyan, Q.Əlixanyan və Qr.Poqosyan daxil idilər[69]. Lakin hadisələrin sonrakı gedişində yuxarıda adları qeyd olunan ermənilər daşnaklarla ittifaqda azərbaycanlılara qarşı soyqırımda aktiv iştirak etmişdilər. Daşnak partiyasının qızğın millətçilik siyasəti o dərəcədə genişlənmişdi ki, hətta milli şovinizm telləri ilə sıx bağlı olan RSDF(M)P-nin Zaqafqaziya Vilayət Komitəsi rəhbərlərinin də etirazına səbəb olmuşdu. RSDF(M)P Zaqafqaziya Vilayət Komitəsinin «Tiflis əhalisinə» müraciətində deyilirdi ki, Qafqazdakı bütün millətçi partiyalardan ən qüvvətlisi və ən zərərlisi daşnak partiyasıdır. Yalnız bu partiyanın dağılması zəhmətkeşlərin davamlı və həqiqi beynəlmiləl həmrəyliyinə nail olmaq üçün möhkəm zəmin yaradar. Bu partiyanın fəaliyyətinə qədər Zaqafqaziyada sakitlik idi. Burada millətlərarası ziddiyyətlər nəzərə çarpmırdı. Azərbaycan, gürcü və erməni millətləri əsrlərlə birgə dinc yaşamışlar. Lakin şovinist erməni millətçilərinin meydana çıxması ilə

[68] Baer, Josette. "Who, Why and How: Assessing the Legitimacy of Secession", Swiss Political Science Review, Cilt. 6, No. 3, 2000, ss. 45-69

[69] Tural Mehbaliyev "Millətçilik nədir? Tarixi əsasları və inkişafı" 21.10.2014

münasibətlər dəyişmiş, ziddiyyətlər əmələ gəlmişdi[70]. Başqa bir əsərdə göstərilir ki, Türkiyədə, eləcə də Qafqazda erməni xalqının bədbəxtliyinin əsas mənbəyi Daşnaksütyun təşkilatıdır. Azərbaycan türklərinin (o cümlədən Azərbaycanda yaşayan başqa xalqların) qəddarlıqla qətlə yetirilməsində bilavasitə iştirak etmiş Tatevos Əmirovun qardaşı, Bakı XKS üzvlərindən biri olmuş A.Əmiryan 1917-ci il dekabrın 19-da «Cinayətkar siyasət» adlı məqaləsində yazmışdı:[71]

Daşnaksütyun nə deməkdir? Bu ifrat erməni millətçilərinin partiyasıdır, bu partiya öz varlığının 25 ili ərzində sosializmə qarşı, inqilabi ideyaların erməni xalq kütlələri içərisində yayılmasına qarşı mübarizə aparıb, bu partiya bütün qonşu xalqlara qarşı təcavüzkar, həyasız siyasət yeridib. Biz bolşeviklər «Daşnaksütyun» partiyasına qarşı həmişə mübarizə aparmışıq. Lakin Qafqaz menşevikləri də ona qarşı ölüm-dirim mübarizəsi aparmışlar. Uzun illərin təbliğat, terror və qorxutma siyasəti nəticəsində, daşnaklar öz başlıca məqsədlərindən birinə çatmışdılar: əməkçi erməni xalqı artıq şovinizm virusu ilə zəhərlənmişdi və daşnakların ardınca gedirdi".

Ermənilər Azərbaycanın Qərb torpaqlarını zəbt edib, "erməni dövləti" yaratmaq planlarını həyata keçirmək üçün 1917-ci il fevral burjua inqilabından sonra bütün qüvvələrini və imkanlarını işə saldılar:[72]

"Uzun müddət Türkiyənin ərazisində erməni dövləti yaratmaq fikiri ilə ermənilər Avropa dövlətlərinin, xüsusən Rusiya imperiyasının, sonra isə Leninin qurduğu Sovet Rusiyasının himayəsinə sığınaraq, onlardan istifadə etmək istəyirdi. Lakin bu məkrli siyasət türklərin güclü müqaviməti nəticəsində baş tutmadıqda, erməni şovinistləri həmin planı Cənubi Qafqazda, Azərbaycan torpaqları hesabına

---

[70] Tanıl Bora, Türk Sağının Üç hali MİlliyetÇilik, Muhafazakarlık, Birikim, İstanbul, 1999

[71] Balı, Ali Şafak. Çokkültürlülük ve Sosyal Adalet. "Öteki" ile Barış İçinde Yaşamak (Konya: Çizgi Kitabevi Yayınları, 2001)

[72] Brown, Graham K. "Horizontal Inequalities, Ethnic Separatism and Violent Conflict: The Case of Aceh, Indonesia" (PDF). United Nations Human Development Report 2005

həyata keçirmək fikirinə düşmüşdülər[73]. Ermənilər siyasi mərkəz olan Tiflis və Bakıda siyasi və hərbi təşkilatların rəhbərliyini ələ almaq, Cənubi Qafqazda siyasi hakimiyyətə yiyələnmək və gələcəkdə Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq planını hazırlayırdılar. Buna görə də Cənubi Qafqazda, o cümlədən, Bakıda ermənilərin siyasi fəallığı artmış və genişlənmişdi. Bu dövrdə Bakıda siyasi cəhətdən fəallaşan və hegemonluq etmək istəyən erməni daşnakları daha çox diqqəti cəlb edirdilər. Onlar müxtəlif siyasi təşkilatların əsasən rəhbər orqanlarında təmsil olunurdu. Bolşeviklərin sıralarında St.Şaumyan, A.Akopyan, A.Mravyan, S.Xanoyan, A.Mikoyan, A.Əmiryan və başqaları vardı. "Daşnaksütyun" partiyası Bakı və Bakı quberniyasına xüsusi maraq göstərirdi. Bu dövrdə artıq elə bir nüfuza malik olmasalar da Hnçak partiyası öz fəaliyyətini genişləndirmişdi. Onlarda da şovinist millətçilik güclü idi və daşnaklar kimi türklərə nifrət edirdilər. Hnçakistlərin də əsas məqsədi «Türkiyə Ermənistanı»nı Osmanlı imperiyasından ayırmaq idi. 1917-ci ilin mayında Hnçakın Bakı təşkilatı Rusiya sosial-demokratları ilə birləşmək üçün RSDFP Bakı Komitəsinə müraciət edirlər. Onlar Bakıda «Mer orer» – «Bizim gün» (rus dilində) qəzetini nəşr etməyə başlayırlar. Lakin Hnçakistlərin də əsas mübarizə metodu zorakılıq və terror idi[74]. Hnçakistlər də daşnaklar və bolşeviklər kimi hərbi təşkilatlanmaya xüsusi diqqət verirdilər. Eyni zamanda St.Şaumyanın rəhbərlik etdiyi bolşevik təşkilatının himayəsindən istifadə edirdi. Onlar St.Şaumyanın yaxından köməyi ilə özlərinin hərbi batalyonlarını yaradırdılar. Şübhəsiz, hnçakistlərin bolşeviklərə yaxınlaşmaları, onlara sevgindən deyil, qarşılarına qoyduqları məqsədlərinə çatmaq üçün lazım idi. Böyük bir hissəsi Ermənistandan xaricdə olan hnçakistlərin 1917-ci ildə 14 min üzvü vardı. Hnçak partiyasının təşkilatları Ermənistanda, eyni zamanda Tiflisdə, Bakıda, Batumda fəaliyyət göstərirdi. Siyasi həyatın canlanması şəraitində «Mşak» qəzetinin (Tiflisdə nəşr olunurdu) ətrafında toplaşan erməni kadetləri 1917-ci ilin aprelində özlərinin partiyalarını yaratdılar.

[73] D.L. Horowitz's "Patterns of Ethnic Separatism", originally published in Comparative Studies in Society and History, 1981, vol 23, 165-95. Republished in John A. Hall, The State: Critical Concepts, Routledge, 1994

[74] Bariteau, Claude. "Le Québec comme nation politique, démocratique et souveraine", Michel Venne (der.), Penser La Nation Québécoise, (Montréal: Editions Québec Amérique, 2000), ss. 229-243

Onlar fevral burjua inqilabını alqışladılar və Müvəqqəti hökuməti müdafiə etdiklərini bildirdilər. Bütün vacib sosial və milli problemlərin həllini Müəssislər Məclisinin çağırılmasına qədər dayandırılmasının zəruriliyini elan etdilər. Erməni kadetləri özlərini Ermənistan xalq partiyası adlandırdılar. 1917-ci ildə fəaliyyət göstərən təşkilatlardan biri də erməni sosial-inqilabçıları idi”[75].

Erməni sosial-inqilabçıları öz ideya baxışlarına görə “Daşnaksütyun” partiyasından fərqlənmirdilər: “Bu partiyanın Tiflis, Bakı, Aleksandropol, Qars, İrəvan, Yelizavetpol, Batum və başqa yerlərdə az saylı şöbələri vardı. Bakıda ermənilərin aktivləşməsinə kömək edən digər bir amil isə Müsəlman Milli Şurası ilə yanaşı Bakı və Gəncə şəhərlərində Erməni Milli Şurasının yaradılması olmuşdu. Bakıda Erməni Milli Şurasının sədri Y.Qukasov idi. Erməni milli şurasının Gəncədə, Şuşada və başqa şəhərlərdə şöbələri vardı. Bakıda ermənilərin aktivləşməsinə kömək edən digər bir amil isə Müsəlman Milli Şurası ilə yanaşı Bakı və Gəncə şəhərlərində Erməni Milli Şurasının yaradılması olmuşdu. Bakıda Erməni Milli Şurasının sədri Y.Qukasov idi. Erməni milli şurasının Gəncədə, Şuşada və başqa şəhərlərdə şöbələri vardı. Şuşada bolşeviklərin də təşkilatı fəaliyyət göstərirdi[76]. Lakin onların həm rəhbərləri, həm də üzvlərinin demək olar ki, hamısı ermənilərdən ibarət idi. Belə ki, Şuşa Bolşevik Komitəsinə Aleksandr Saturyan (Ruben) başçılıq edirdi. 1917-ci il oktyabrın 13-də Bakı Sovetinin menşevik – eser İcraiyyə Komitəsi istefaya çıxmağa məcbur olmuşdu.

Həmin gün başda St.Şaumyan olmaqla Bakı Sovetinin Müvəqqəti İcraiyyə Komitəsi təşkil edilmişdi. Lakin Bakı Sovetinin rəhbərliyi bolşeviklərin əlində olsa da, onlar Sovetdə möhkəm və sabit çoxluğa malik deyildilər. Qeyd edilməlidir ki, o dövrdə erməni daşnak-rus bolşevik mətbuatı nə qədər hay-küy qaldırsa da, Qafqazda St.Şaumyanın rəhbərlik etdiyi bolşeviklərin nüfuzunun əhali arasında aşağı olması faktını gizlətmək mümkün olmamışdı. Tiflisdəki Amerika konsulu Smit oktyabr

---

[75] Baer, Josette. “Who, Why and How: Assessing the Legitimacy of Secession”, Swiss Political Science Review, Cilt. 6, No. 3, 2000, ss. 45-69

[76] Browne, R. S., & Vernon, R. (1968). On black separatism. New York: Pathfinder Press

çevrilişindən sonra Dövlət Departamentinə göndərdiyi ilk teleqramında, hər şeydən əvvəl, yazırdı ki, yerli əhalinin böyük bir hissəsi və ordu bolşeviklərin arxasınca getməkdən imtina etmişdilər[77].

Üstündən 9 gün keçəndən sonra Smit Dövlət Departamentinə göndərdiyi başqa bir teleqramında isə göstərmişdi ki, Bakı bolşeviklərin əlindədir, lakin Zaqafqaziyanın başqa yerlərində əhalinin böyük bir hissəsi və onların rəhbərləri qətiyyətlə bolşevik hakimiyyətini qəbul etmək istəmir… hakimiyyəti ələ aldıqdan sonra da Bakıda, ümumən Zaqafqaziyada nüfuzu aşağıdır. Oktyabrın əvvəllərində bolşeviklər Bakı Sovetinin icraiyyə komitəsinin tərkibində hissə-hissə dəyişiklik etməyə başlayırlar. Lakin bu dəfə də seçilən 12 üzvün içərisində bir nəfər azərbaycanlı yox idi. Belə ki, onun tərkibinə M.Jqenti, M.Semyonov, B.Avakyan, Yarışev və başqaları seçilir. Növbəti gün isə, Bakı Sovetinin hərbi bölməsinin katibi B.Avakyan seçilir."[78]

## 2.3. Millətçiliyin ünsürləri

Ölkəci Dünya görüşü millətçilik ilə Türk millətçiliyini bilindiyi kimi bu şəkildə təsvir edir:

Millətçilik millətini və bu milləti meydana gətirən milliyyət ünsürlərini sevmək, qorumaq, yüksəltmək və ucaltmaq idealıdır. Türk millətçiliyi isə Türk milləti ilə Türk millətini meydana gətirən İslamiyyət, Türkçə və Türk soyunu sevmək, qorumaq, yüksəltmək və ucaltmaq idealıdır[79].

Bu təriflərindən də açıqca aydın olduğu kimi gərək milliyyətçiliyin istərsə bunun xüsusi bir halı olan Türk millətçiliyinin dörd ünsürü var: [80]

---

[77] Hall, R. L. (1978). Black separatism in the United States. Hanover, N.H.: Published for Dartmouth College by the University Press of New England

[78] Tural Mehbaliyev "Millətçilik nədir? Tarixi əsasları və inkişafı" 21.10.2014

[79] Lloyd, Cynthia B., ed. Sex, Discrimination, and the Division of Labor. New York: Columbia University Press, 1975. Print

[80] Ağaoğulları, Mehmet Ali. Ulus-Devlet ya da Halk Egemenliği (Ankara: İmge, 2006)

1) Sevmək,

2) qorumaq

3) yüksəltmək

4) ucaltmaq

Sevmək - insan işə əvvəla millətini sevərək başlamalıdır. Amma bu yetməz, sonra daki bu yalnız sözün gəlişi deyilən bir sözdür, yoxsa bu bir prioritet və ya sonralık məsələsi deyil. Əslində bu eyni zamanda, hətta eyni anda olması lazım olan bir "şey" dir, millətini meydana gətirən milliyyət ünsürlərini də sevəcək . Çünki "sevgi" hər şeyin başıdır. İnsan milləti ilə millətini meydana gətirən milliyyət ünsürlərini sevməzsə, bunları qorumaz, bunları qorumadığı kimi bunların yüksəlməsi üçün də, ucalması üçün də işləməz, səy göstərməz[81].

Bundan daha asan nə ola bilər ki deyə düşünülə bilər, lakin bu heç də asan deyil, hətta çox da çətindir. İki hecalı bir tək söz olaraq söylədiyimiz millət içində yaşadığımız üçün, hamımızın bildiyini zənn etdiyi millət bir insan birliyidir. Lakin yaxından baxanda bu "birlik" bilsəniz nə qədər kompleks və girifttir[82]. Yaxşıları-pisləri, gözəlləri-çirkinləri, doğruları-səhvləri, haqlıları-haqsızları, halalları-haramlara vardır və sevərkən bunların tək-tək hamısını, ayrı-ayrı hər birini, heç bir ayrı-seçkilik etmədən və heç birisini ayırmadan sevmək lazımdır. Bax bu çox çətindir.

Bu çətinliyi Remzi Oğuz Arık belə izah edir:

“İlk baxışda hər kəsin millətini sevməsi asan, təbii kimi gəlir. Amma iş elə deyil. Bir dəfə tək söz olaraq söylədiyimiz millət hamımızın bildiyi, içində yaşadığı bir birlikdir. Lakin yaxından baxanda bu birlik nə qədər qarmaqarışıq, anonim bir şeydir. Bu anonim birliyi sevmək dediyimiz zaman naməlum, davamlı bir sevgidən bəhs olunur. Bu anonim milyonların içində sizin zalım, vicdansız dediyiniz, mənim şüursuz, həyasız dediyim, o birinin xain, oğru, qatil, şəxsiyyətsiz, cahil dediyi insanlar vardır. Bütün bunları sevmək və ya bütün bunları seçərək geriyə qalanı

---

[81] Michael Korda, Male Chauvinism! How It Works. New York: Random House, 1973

[82] Könül Cəfərli “Millət və millətçilik özətləməsi”

sevmək bir-birindən çətin, edilməsi demək olar ki qeyri-mümkün şeylərdir. O zaman millətini sevmək dedikdə görünən asanlığın, təbiiliyin nə qədər müvəqqəti olduğu meydana çıxar”[83].

Nəticə olaraq insan bütün çətinliyə baxmayaraq, millətinin bütün mənsublarını, bunların hər birini, heç bir mövzuda və heç bir ayrı - seçkilik etmədən sevmək məcburiyyətindədir, sevməlidir. Ancaq adamın mənsubu olduğu millətin hər bir fərdini, heç bir ayrı - seçkilik etmədən ayrı-ayrı və tək-tək sevməsi belə yetməz. Bu sevgisinin də səmimi-içdən və gerçək-xalis olması da lazımdır ... Ölkəci hərəkatın böyük mütəfəkkiri rəhmətlik S.Əhməd Arvasi bunu belə izah edir: “"Sevgi" söz deyil, özünü iş və hərəkətlə müəyyən edən bir davranışlar bütünüdür. Sevən insanın "sevgisi", danışmasam da bəlli olur. Siz, heç, bir-birini can ü könüldən sevən iki insanın bir-birinə baxışını, bir-birlərinə qarşı rəftarlarını və hərəkətlərini incələdiniz mi? Bir "ana" ilə "balası" arasındakı "sevgi bağı" nə qədər ovsunlayıcıdır”.

Biz insanlar "sevgi" sözünü çox asan və pulsuz cinsindən istifadə edirik. "Yalancı sevgilər" ilə həm özümüzü, həm başqalarını aldadarıq. Məsələn, şiddətli bir qışda, yolların qarla bağlandığı iztirab dolu günlərdə, tədarük etdiyi qida maddələrinə artım edən və ya əl altından od bahasına satan karaborsacının "millət sevgisindən", "xalq sevgisindən" söz etməsi nə qədər iyrənc bir yalandır. Yenə "qonşusu ac ikən, tıxa - basa yeyən" kimsənin "qonşularımızı və insanları sevirəm" deməsi nə qədər boş bir sözdür[84].

Misalları çoxaltmaq mümkündür. Adam "meşələri məhv edər", "dənizləri və gölləri dinamitləyər", "prospekt və küçələri zibilxana halına gətirir" sonra çox rahatca bizə "vətənpərvərlik dərsi" verir. Digər tərəfdən adam Türklüyə və İslama aid nə qədər dəyər varsa küfr edər, mədəniyyət və mədəniyyətimizi aid nə qədər dəyər varsa kiçik hesab edər, sonra qalxar "ulusallıktan" və "milli sevgilərdən" söz edər. Adam sabah - axşam, dinimlə müqəddəslərimlə lağlağı edər, həyasızca bir neşriyyat ilə

---

[83] Tural Mehbaliyev “Millətçilik nədir? Tarixi əsasları və inkişafı” 21.10.2014

[84] Female Chauvinist Pigs: Women and the Rise of Raunch Culture, Ariel Levy, 2006

vicdanlarımızı yaralar, sonra qalxar bizə "din və vicdan azadlığının müqəddəsliyi" ətrafında nitq çəkər. Tariximi sevdiyini söyləyər, tariximi yerin dibinə batırar, millətimi sevdiyini söyləyər, onu xor və alçaq görər, vətənimi sevdiyini söyləyər, onu ya şəxsən məhv edər, yaxud məhv etməyə cəhd göstərir. Adam dövlətimizi sevdiyini söyləyər, lakin ona vergi verməmək üçün nə mümkünsə edər. O qədər nümunə var ki, saymaqla bitməz.

Ölkəçi hərəkatın ilk ideoloqlarından mərhum Necmətdin Hacıeminoğlu millətini sevmək mövzusunu belə izah edir:[85]

Millətçiliyi təsvir edərkən "milləti və ona aid bütün dəyərləri şüurlu olaraq sevmək" ifadəsi istifadə edilmişdi. Diqqət edilsə burada "sevmək" hərəkətinə "şüurlu olaraq" şərti kəsilmişdir. Çünki şüurlu olmayan sevginin heç bir əhəmiyyəti yoxdur. Hər canlı instinktinin təsiri ilə mənsub olduğu icma və ya qrupu, təbii bir şəkildə sevər. İnsanlar da bir tərəfdən instinktləri, bir tərəfdən də vərdişləri səbəbiylə öz millətlərini sevərlər. Lakin bu "təbii sevgi" milliyyətçiliyin tərifindəki "şüurlu olaraq sevmək şərtinə girməz. İkisi arasında mahiyyət fərqi vardır. Siyasi mənadakı millətçiliyin şərtlərindən biri olan vətənpərvərlik üçün də vəziyyət belədir. Necə ki "vətənpərvər" sifətinə layiq görülmüş bir kimsənin vətəninə qarşı duyduğu sevgi ilə hər hansı bir insanın, sırf doğulub böyüdüyü yer olduğu üçün, məmləkətini sevmək arasında da yenə belə bir mahiyyət fərqi vardır. Məsələn, minlərlə günahsız Türkü öldürdükləri üçün ölkəmizdən sürülən Ermənilərlə, istiklal savaşında işğal qüvvələri ilə əməkdaşlıq etdikləri üçün Türkiyənin hüdudu xaricinə qaçan rumların Türkiyəyə qarşı duyduqları həsrət və sevgiyə heç bir zaman vətənpərvərlik deyilməz. Bu quru və eqoist bir duyğudan ibarətdir. Əsas olan milləti və milli dəyərləri şüurla sevməkdir.

Qorumaq - millətçiliyin ikinci ünsürüdür. Ancaq əsla unudulmamalıdır ki, bu ikinci olma halı yalnız ifadə asanlığını təmin etməküçün deyilməkdədir, yoxsa qorumaq, yüksəltmək və ucaltmaq eyni anda olmalıdır. Başa dönsək millətini sevən adam millətini və milliyyət ünsürlərini qorumalıdır. Əks təqdirdə qoruyacaq millət də, milliyyət ünsürləri də qalmaz. Qaldı ki, həqiqətən sevən adam bunu onsuz da

[85] Aktürk, Şener. "Etnik Kategori ve Milliyetçilik: Tek-etnili, Çok-etnili ve Gayri-Etnik Rejimler", Doğu Batı, Cilt 9, No. 38, Ağustos-Ekim 2006, ss. 23-53

edər. Adam sırf milləti ilə milliyyət ünsürlərini deyil, sevdiyi hər şeyi təbii olaraq qoruyar[86].

Beynəlxalq mübarizə hər zaman çox mərhəmətsiz olmuşdur, amma dövrümüzdə bu yaxşıca çərçivədən çıxmışdır. Artıq millətlər yalnız bir-birlərini keçmək və ya məğlub etmək üçün deyil, sanki yox etmək üçün çalışmaqdadırlar. Üstəlik inkişaf edən texnologiya nə təəssüf ki, buna imkan təmin edə biləcək bir səviyyəyə çatmışdır. Bu görə millətini sevən adamın, milləti ilə bərabər zamanlı olaraq milliyyət ünsürlərini qoruması daha da mənalı bir hala gəlmişdir[87].

Tarixdə millətlər yalnız hərbi və iqtisadi imperializm təhlükəsinə məruz qalarkən bu gün artıq bunlara mədəniyyət imperializmi ilə siyasi imperializm də əlavə edilmişdir. Hətta buna demokratiya və insan hüquqları imperializmi deyə yeni və lakin qorunması heç də asan olmadığı üçün çox daha təhlükəli bir imperializm şəklini də əlavə edənlər vardır.

Adam sevdiyi milləti ilə milliyyət ünsürlərini hər cür - hərbi, iqtisadi, mədəni, siyasi və demokratiya və insan hüquqları hücumlarına qarşı qorumalıdır. Bu ancaq adamın çox təchizatlı və şüurlu olması ilə təmin edilə bilər. Elə isə adam özünü çox yaxşı yetişdirmək məcburiyyətindədir. Bu isə yalnız milləti ilə milliyyət ünsürlərini və millətinə düşmən və ya düşmən millətləri tanımaq üçün çox oxumaq, araşdırmaq və xüsusilə ola biləcək qədər təşkilatlı olmaqla mümkündür. Çünki millətlərə qarşı edilən bu fikri yaxud həm fikri həm də hərəkətli hücumlar təşkilatlı olan bəzi qüvvələr tərəfindən həyata keçirilir. Hətta bir çoxu dövlətlər tərəfindən təşkil edilib,idarə edilməkdədir[88].

Adamın milləti ilə milliyyət ünsürlərini qoruması adamın özünü hazırlamasından sonra, milləti ilə milliyyət ünsürlərini gücləndirməsi ilə mümkündür.

---

[86] Əhməd Şahidov "XXI əsrin ideal tələbəsi ifrat dini və şovinist ideyalardan uzaq olmalıdır" 12.05.2012

[87] Beland, Daniel ve André Lecours, "Sub-state nationalism and the welfare state: Nations and Nationalism, 12 (1), 2006, ss. 77-96

[88] Beran, Harry. "A democratic theory of political self-determination for a new world order", Percy Lehning (der.) (1998), Theories of Secession (London: Routledge, 1998), ss. 32-59

Millətini sevən kəslər öz içlərində təşkilatlanaraq millətini və millətini təşkil edən milliyyət ünsürlərini kifayət qədər güçləndirərsə, bunlar özbaşlarına qorunmuş olurlar. Qaldı ki, millətçilər ilə millətçi təşkilatlar da millətləriylə milliyyət ünsürlərini ayrıca müdafiə edəcək və qoruyacaqlar.

Yüksəltmək - Çox doğru bir söz var; "Yerində sayan geri qalar" ... Elə isə sevən adam millətini və milliyyət ünsürlərini qorumaq məcburiyyətindədir, amma, millətini qorumaq üçün bu yetməz, millətini və milliyyət ünsürlərini sevirsə və bunların sonsuza qədər var olmalarını istəyirsə, o zaman bunları eyni zamanda yüksəltmək və ucaltmaq məcburiyyətindədir. Əks halda "yerində sayan geri qalacağı üçün" uzun müddətdə bunları sevmiş də qorumuş da olmaz. Ola bilməz.[89]

Elə bu anda araya bir məlumat qeyd etməliyik. Bizim burada istifadə etdiyimiz "yüksəltmək" və "ucaltmaq" anlayışlarının qarşılığı olaraq Ölkəçi hərəkatın böyük mütəfəkkiri S. Əhməd Arvasi "maddi inkişaf" və "mənəvi inkişaf" ifadələri haqqında yazmış və bunları bu şəkildə təsvir etmişdir. "Maddi inkişaf" ifadəsi insandan qeyri bütün təbiət gücləri və varlıqlarını (dünyada və ya kainatda olsun), elm və texnologiyanın köməyi ilə "insanın xidmətinə" vermək, zərərlərini aradan yox etməkdir. (Hal-hazırda "maddi inkişaf" sənayeləşmə deməkdir. Sənayeləşməmiş ölkələrə "geri qalmış cəmiyyətlər" adı verilməkdədir.) İslam bunu mümkün hesab edir[90].

Həqiqətəndə bir millətin təbiətdəki pis qüvvədən doğulacaq olan bəlalardan özünü qoruması, onu zəbt və idarə etməsi müsbət elmsiz, teknikasız ola bilməz. Bunun kimi tək olsun, zümrə olsun, böyük kütlələr halında olsun bu günün insanlarını idarə etmək, onları dincliyə, səadətə çatdırmaq müsbət elmdən, müsbət elm metodundan və zehniyyətindən xəbərsiz olanların başaracağı şey deyildir. Ucaltmaq - "Palçıq" bir dünyada "palçıqdan yaradılmış" bir məxluq olduğumuz

[89] Mansbridge, Jane; Katherine Flaster (2005). "Male Chauvinist, Feminist, Sexist, and Sexual Harassment: Different Trajectories in Feminist Linguistic Innovation". American Speech (Harvard University) 80 (3): 261

[90] Potkay, Charles R., Matthew R. Merrens. Sources of Male Chauvinism in the TAT. Journal of Personality Assessment, 39.5 (1975): 471-479. Web. 31 Jan 2012

şübhəsizdir. Lakin içimizdə bu "palçıq dünyanı" aşmaq, sonsuzluqlara çatmaq arzu və iradəsi, sönməz bir atəş halındadır.

Biz "ucalmaq" istəyirik, "palçıq dünya" ətəyimize asılmış, bizi aşağılara çəkməkdədir. Mövlana Cəlaləddin Həzrətləri insanın bu dramını nə gözəl ifadə edir. Həm də bir misra ilə:[91]

"Başım, səninlə dərdə girdi palçıq dünya!".

İnsanın "ucalma" arzusu və iradəsi onun təbiəti halındadır. Çünki Allah ona "öz ruhundan bir nəfəs" əmanət etmişdir. Bunun təbii bir nəticəsi olaraq insan əsla "maddi dırmanışlar" və "maddi yüksəlmə" ilə təmin olmamaqdadır. Psixanalistlər obyektiv olaraq təsbit etmişlər ki, insanlar bir-birini əzərək, bir-birlərini tapdalayaraq, bir-birlərinin çiyinlərinə basaraq - Alfred Adların deyimi ilə - "bir pecking sırası" meydana gətirərək xoşbəxt olmur və ucalmanın dadına vara bilmirlər. Əksinə beləcə üzləşən və didişən cəmiyyətlərdə "ucalma" deyil "alçalma" söz mövzusudur.[92]

---

[91] The Columbia Guide to Standard American English. Retrieved 4 December 2008. Chauvinism is "fanatical, boastful, unreasoning patriotism" and by extension "prejudiced belief or unreasoning pride in any group to which you belong." Lately, though, the compounds male chauvinism and male chauvinist have gained so much popularity that some users may no longer recall the patriotic and other more generalized meanings of the words.

[92] Anderson, Benedict. Imagined Communities: Reflections on the Origins and Spread of Nationalism (London: Verso, 1991)

# III Fəsil. Separatizm və şovinist millətçiliyin beynəlxalq münasibətlərə təsiri

## 3.1. Müasir dünyada separatizm və beynəlxalq münasibətlər

Tədqiqatçılar müasir dünyada 50 əsas separatizm ocağı olduğunu, 220 milyon əhalini və 12,7 milyon kvadratkilometr ərazini əhatə etdiyini bildirirlər. Coğrafi tipinə görə Qərbi Avropaya 8, Şərqi Avropaya 12, Asiyaya 14, Afrikaya 6, Amerikaya 4, islam tipinə görə isə 6 mərkəz düşür. Bunlardan 20-si silahlı qarşıdurma xarakteri daşıyır. Separatizm əsasən etnik mənsubiyyətdən qaynaqlanan bir hal olmaqla həm də etnik-dini zəmində özünü göstərir[93].

Dünyada 180-dən çox dövlət var, onlardan yalnız 20-si etnik-monoton ölkədir, yəni başqa millətlərin sayı bu ölkələrdə 5%-dən aşağıdır. Dövlətlərin 40 faizində isə ən azı 5 azsaylı xalq yaşayır[94]. Nəzərə alsaq ki, planetdə 8 min xalq yaşayır və nəzəri baxımdan onların hər biri müstəqilliyinə can ata bilər, onda dünyanın böyük qisminin millətlərarası savaş meydanına çevrilməsini təsəvvür etmək çətin olmaz. Hətta sakit Qərbi Avropada belə separatizmin dərin kökləri mövcuddur. Böyük Britaniyada irlandlar və şotlandlar, İspaniyada basklar Fransada korsikalılar və başqalarının separatçı mübarizəsi 10 illərdir davam edir.

SSRİ və Yuqoslaviyanın dağılması nəticəsində etnik konfliktlərin yeni dalğası başlandı və bu gün də o ərazilərdə münaqişələrin bir qismi öz gərginliyini saxlayır[95].

Etnik konfliktlər törətdiyi nəticələrə görə çox təhlükəlidir və bu yalnız qarşıduran tərəflər üçün deyil, bütün dünya üzrə təhlükəyə çevrilə bilər. Yadımıza salaq ki, Birinci Dünya müharibəsi də serblərlə Avstriya-Macarıstan arasında olan etnik konfliktdən başladı.

---

93 Spencer, Metta (1998). Separatism: Democracy and Disintegration. Rowman & Littlefield. pp. 2–4

94 Arendt, Hannah (October 1945). "Imperialism, Nationalism, Chauvinism". The Review of Politics **7** (4): 457

95 D.L. Horowitz's "Patterns of Ethnic Separatism", originally published inComparative Studies in Society and History, 1981, vol 23, 165-95. Republished in John A. Hall, The State: Critical Concepts, Routledge, 1994

Avropa Birliklərinin yaradılması digər məqsədlərlə yanaşı, həm də milliyyətçiliklə mübarizə aparmaq və post-milli cəmiyyətlər qurmaq kimi hədəflərə xidmət edirdi. Bununla belə, Avropa liderləri regional və sub-dövlət milliyyətçiliyinin potensialını düzgün hesablaya bilmədilər. Dövlətin zəifləməsini şərtləndirən Avropa İttifaqı sub-dövlət elementlərinin güclənməsi ilə nəticələndi. Artıq bəzi üzv dövlətlərdə, o cümlədən Belçika, Böyük Britaniya və İspaniyada parçalanma ehtimalları o qədər realdır ki, müzakirələr atılacaq növbəti addımların üzərində qurulub[96].

Ən real parçalanma ehtimalı Şotlandiyaya aiddir. Bu ilin 18 sentyabrında şotlandiyalılar Böyük Britaniyanın tərkibində qalıb-qalmamaq istəklərini referendum vasitəsilə ifadə edəcəklər. 26 noyabr 2013-cü il tarixində nəşr olunmuş "Şotlandiyanın gələcəyi" adlı ağ kitabda şotland hökuməti referendumdan "hə" çıxacağı halda, 18 aylıq keçid dövrü təklif edir[97]. Bununla da əsl müstəqillik 24 mart 2016-cı ildən başlayır. Bu müddət ərzində şotland parlamenti konstitusiyanın hazırlanması ilə məşğul ola, gələcək dövlətin institusional strukturunu hazırlaya bilər. Bundan əlavə, müstəqil Şotlandiya keçid dövrü ərzində Böyük Britaniya hökuməti ilə milli borcun bölüşdürülməsi, britaniyalı dövlət qulluqçularının taleyi, Şotlandiya ərazisində yerləşən hərbi bazaların, xüsusilə də nüvə silahlarının gələcək statusu haqda razılığa gəlməlidir[98]. Eyni anda Avropa institutları və digər beynəlxalq institutlarla davamlılıq prinsipinin qorunması üçün danışıqlar aparılması da zəruri olacaqdır. Təbii ki, şotland hökuməti Aİ-yə üzvlük məsələsində Avropa İttifaqı Müqaviləsinin 49-cu deyil, 48-ci maddəsinin tətbiq olunmasını üstün tutardı. Xatırladaq ki, 49-cu maddə yeni üzvlərin qəbulu, 48-ci maddə isə mövcud müqavilələrə dəyişiklik prosedurasını müəyyən edir. Şotland hökumətində ümid edirlər ki, 28 üzv dövlət Şotlandiyanın Böyük Britaniya daxilində 40 illik Aİ üzvlüyünü nəzərə alaraq onu hər şeyi yenidən başlamağa məcbur etməzlər.

---

[96] Woods, Sherwyn M. (January 1976). "Some Dynamics of Male Chauvinism". Archives of General Psychiatry 33 (1)

[97] Dobratz, Betty A.; Shanks-Meile, Stephanie L. (Summer 2006). "Strategy of White Separatism". Journal of Political and Military Sociology.

[98] Michael Korda, Male Chauvinism! How It Works. New York: Random House, 1973

Edinburqun şərtlərinin bəziləri isə əvvəlcədən məlumdur: Avroya qoşulmamaq və funt-sterlinqi saxlamaq, Şengen zonasına daxil olmamaq və Böyük Britaniyanın istisna müddəalarını saxlamaq[99].

İspaniyada isə regional Katalan hökuməti bu ilin noyabrında müstəqillik referendumunun keçirilməsinə nail olmaq istəyir. Plan baş tutsa, seçicilərdən Kataloniyanı ştat, yoxsa müstəqil dövlət kimi görmək istədikləri soruşulacaq. Ancaq ispan hökuməti bu referendumun konstitusiyaya zidd olduğunu əsas gətirərək onun keçirilməsinə icazə vermir. Hazırkı İspaniya konstitusiyasına görə, referendum Kataloniya da daxil olmaqla, İspaniyanın 17 muxtar vilayəti tərəfindən deyil, yalnız Madriddəki milli hökumət tərəfindən təşkil oluna bilər. Bundan əlavə, İspaniya Konstitusiya Məhkəməsinin Basklar ölkəsinin referendum keçirmək hüququ ilə bağlı 11 sentyabr 2008-ci il qərarı regionların referendum keçirmək səlahiyyətinin olmadığını təsdiq edir. İspaniyanın hər iki aparıcı partiyası - baş nazir Mariano Raxoyun Xalq Partiyası və müxalifətdəki Sosialist Partiyası referenduma qarşı çıxacaqlarını çoxdan açıq şəkildə bildiriblər. Belə olan halda, milli parlamentdə referenduma qarşı olanlar mütləq səs çoxluğuna malik olurlar. Aİ və hətta NATO rəsmiləri müstəqil olacağı təqdirdə, avtomatik olaraq Kataloniyanın üzvlükdən çıxarılacağını bəyan ediblər[100].

Böyük Britaniya və İspaniya ərazilərinin iqtisadi cəhətdən çox əhəmiyyətli parçalarını itirə bilərlər. Şotlandiyanın Böyük Britaniyadan ayrılacağı təqdirdə, Birləşmiş Krallıq ərazisinin üçdə birini, əhalisinin isə 10 faizini güzəştə getməli olacaq[101]. Bundan əlavə, Şimal dənizinin neft-qaz ehtiyatları Şotlandiyanın ərazisində qalacaq. İspaniyanın 4-cü ən varlı əyaləti olan Kataloniya ölkə ərazisinin 6, əhalisinin isə 16 faizini təşkil edir. İspaniya iqtisadiyyatının 20 faizi məhz Kataloniyanın payına

---

[99] Lloyd, Cynthia B., ed. Sex, Discrimination, and the Division of Labor. New York: Columbia University Press, 1975

[100] Mughal, Muhammad Aurang Zeb. 2012. Spain. Steven L. Denver (ed.), Native Peoples of the World: An Encyclopedia of Groups, Cultures, and Contemporary Issues, Vol. 3. Armonk, NY: M .E. Sharpe, pp. 674-675

[101] Cabestan, Jean-Pierre; Pavković, Aleksandar, eds. (2013). Secessionism and Separatism in Europe and Asia: To have a state of one’s own. Routledge

düşür. Müstəqilliyə can atan aktiv qrupların olduğu digər region - Basklar ölkəsi isə İspaniya ərazisinin 1,5, əhalisinin 5 faizi deməkdir. Bununla belə, bu əyalət İspaniyanın ən varlı əyaləti olmaqla yanaşı, Aİ-nin də ən varlı regionları arasındadır[102]. Ancaq bu itkilər İspaniya və Böyük Britaniyanın dövlət əsaslarına zərbə vurmaq iqtidarında deyil. Bu ölkələr öz ərazilərini itirdikləri halda, əvvəlki statuslarını qorumuş olacaqlar. Əsl problem Belçika parçalanarsa ortaya çıxa bilər. Bu ilin may ayında keçiriləcək parlament seçkilərində Flandriya əhalisi milliyyətçilərə mütləq çoxluqla səs versə, Belçikanın iki və daha çox hissəyə parçalanması real ola bilər. Bu halda hansı hissənin hansı şəkildə Aİ üzvlüyünə qatılması məsələsi daha mürəkkəb olacaqdır. Dövlətlərin varislik hüququnun detallarına varmadan belə aydın olur ki, Belçikanın köhnə statusuna köklü dəyişikliklər edilməsi zərurətə çevriləcəkdir. Bu ölkənin parçalanmasının necə mürəkkəb məsələ olduğunu bilmək üçün onun federal quruluşuna nəzər salmaq kifayət edir.

Təbii ki, Aİ-nin Qərbi Balkanlara uzandığı bir vaxtda qapılarını Şotlandiya, Flandriya və Kataloniyaın üzünə bağlayacağı ağlabatan deyil[103]. Böyük ehtimalla Avropa İttifaqı Şurası yaranacaq yeni dövlətlərin üzvlüyü ilə bağlı sadələşdirilmiş prosedura təşkil edəcək. Bu həm siyasi arenadakı gərginliyi, həm də Avropa institutlarının iş yükünü yüngülləşdirmək üçün edilə bilər. Digər obyektiv səbəb üzvlük qaydaları ilə bağlıdır. 1993-cü ildə qəbul olunmuş və Kopenhagen meyarları kimi tanınan 3 uyğunluq şərti - hüquqi dövlət, bazar iqtisadiyyatı və bu günədək qəbul olunmuş Aİ qaydalarının toplusunun (acquis communautaire) tətbiqidir. Üçüncü şərt danışıqların və namizədliyin müddəti baxımından çox əhəmiyyətlidir. Həmin qaydalar toplusu 35 fəsildən və minlərlə maddədən ibarətdir. Hər bir maddənin namizəd ölkə tərəfdən tətbiq olunması müəyyən vaxt və keçid müddəti tələb edir. İspaniya və Böyük Britaniyadan ayrılan hissələrin bu qaydaların demək

[102] Female Chauvinist Pigs: Women and the Rise of Raunch Culture, Ariel Levy, 2006

[103] Hall, Raymond L. (1978), Black Separatism in the United States, University Press of New England

olar ki, hamısını öz ərazilərində tətbiq etdiyini düşünmək olar. Odur ki, yeni dövlətlərin bu mürəkkəb proseduradan yan keçəcəyi aydındır[104].

O ki qaldı valyuta məsələsinə, Aİ üzvlüyü avronun milli valyuta kimi istifadəsinin sine qua non şərti deyil. Təbii ki, müstəqil olacaqları təqdirdə, Kataloniya və ya Basklar ölkəsi Avro institutlarına üzvlük üçün müraciət etməli olacaqlar, lakin bunun uzun bir prosedura olmadığı bəllidir. Andorra, Çernoqoriya, Monako, San-Marino və Vatikan Aİ üzvü olmadan milli valyuta kimi avrodan istifadə edirlər.

Dünyada getdikcə yayılan separatizm meyilləri zaman getdikcə bütün ərazilərdə öz təsirini göstərməyə başlayırdı. Separatizm meyillərinin yayıldığı ərazilər siyahısına Cənubi Osetiyanı da aid etmək olar.

Cənubi Osetiya Cənubi Qafqazda yerləşən BMT, Avropa İttifaqı, ABŞ tərəfindən və eyni zamanda, beynəlxalq razılaşmalara əsasən, Gürcüstanın ərazisi kimi tanınan mübahisəli bölgədir. 2008-ci il avqustun 26-da Rusiya Federasiyası, sentyabrın 3-də Nikaraqua 2009-cu il sentyabrın 10-da Venesuela tərəfindən müstəqil dövlət kimi tanınır. Cənubi Osetiya Rusiya, Nikaraqua və Venesuela istisna olmaqla bütün başqa dünya dövlətləri tərəfindən Gürcüstanın əyaləti kimi tanınır. Paytaxtı Sxinvali şəhəridir[105]. Cənubi Osetiya müstəqilliyini 1990-cı ildən elan edib. Gürcüstan hökuməti isə osetinlərin müstəqillik istəyinə onların muxtariyyət hüququnu ləğv etməklə və osetinlərin yaşadıqları əraziyə ordu yeritməklə cavab verib. Bu, Cənubi Osetiya müharibəsinə səbəb oldu. Müharibə nəticəsində Cənubi Osetiya de-fakto müstəqillik əldə etsə də, bu, heç bir dövlət tərəfindən tanınmırdı[106].

2008-ci ilin avqustun 8-də gürcü qoşunları öz ərazi bütövlüyünü bərpa etmək üçün separatçı Cənubi Osetiyanın paytaxtı Sxinvali şəhərinə hücum etdi. Qısa müddət ərzində Sxinvali şəhərini ələ keçirən gürcü ordusu tezliklə kapitulyasiya haqqında müqavilənin imzalanacağına ümid etdiyi vaxt Rusiya tərəfi Gürcüstanı

---

[104] Hall, Raymond L. (1978). Black Separatism in the United States. Hanover, New Hampshire: University Press of New England

[105] Arendt, Hannah (October 1945). "Imperialism, Nationalism, Chauvinism". The Review of Politics **7** (4): 457

[106] İlham ismayıl "Açıq separatizmin məxfi tərəfləri" 24.12.2010

işğalçılıqda günahlandıraraq Sxinvalini tərk etməsi haqqında ultimatum göndərdi. Bunun ardınca Rusiya öz vətəndaşlarını qorumaq adı ilə Gürcüstana hücum edəcəyini bildirdi. Gürcüstan Rusiyanın xəbərdarlıqlarına məhəl qoymayaraq Sxinvalini tərk etməyəcəyini bəyan etdi. Nəticədə elə həmin gün rus qoşunları Şimali və Cənubi Osetiyanı birləşdirən Rogun keçidi vasitəsilə öz vətəndaşlarını və sərhəddə yerləşdirilən rus sülhməramlılarını qorumaq bəhanəsi ilə Cənubi Osetiyaya daxil oldu. Tezliklə Sxinvali şəhərini ələ keçirən rus qoşunları Gürcüstan ərazisinin içərilərinə doğru irəlilədilər. İşğal zamanı Rusiya tərəfdən 150 tank və zirehli texnika iştirak etmiş, Gürcüstan ərazilərini bombalamaq üçün Pskov şəhərinin diviziyası cəlb edilmişdir. Rus -osetin qoşunları Sxinvaliyə hücumu davam etdirərək Gürcüstanın Qori şəhərini tutdular. Gürcüstanın paytaxtı olan Tbilisi şəhərinin 40 kilometrliyində olan Qori şəhəri çox strateji bir yerdə yerləşir. Qori şəhərinin tutulması ilə Gürcüstan faktiki olaraq iki hissəyə bölündü. Belə olduqda işğal altında olan Gürcüstanın şimal hissəsi dövlətin nəzarətindən çıxdı. Rusiyanın dəniz qüvvələri də işğalı davam etdirərək Gürcüstanın Poti limanını və Kadori ərazilərini tutdu[107].

Beynəlxalq aləm Rusiyanı işğalçılıqda ittiham edərək bu hərbi əməliyyatları birmənalı olaraq pislədi və Qərbin səyi ilə Rusiya Prezidenti 12 avqust 2008-ci ildə işğalı dayandıraraq danışıqlara başlamağa qərar verdi. Münaqişənin həll edilməsi üçün Qərb dövlətlərindən Fransanın Prezidenti N. Sarkozi atəşkəs müqaviləsinin imzalanmasını təklif etdi. Uzun diplomatik danışıqlardan sonra Gürcüstan Prezidenti Mixeil Saakaşvili 15 avqust 2008-ci ildə atəşkəs müqaviləsini imzaladı.

ABŞ və Avropa Birliyi bu müharibədə Gürcüstanı dəstəklədiklərini bildirsələr də, faktiki olaraq ona lazımı yardımı göstərə bilmədilər[108].

Bundan sonra hadisələrin ağırlıq mərkəzi cənuba, Rusiya qüvvələrinin yerləşdiyi Krım yarmadasına keçib. Moskvanın addımlarına Kiyev ölkədə ümumi

---

[107] Little, Malcolm (1964), The Ballot or the Bullet, April 4, 1964

[108] Moses, Wilson Jeremiah (1988), The Golden Age of Black Nationalism, 1850-1925, Oxford: Oxford University Press

səfərbərlik elan etməklə cavab verib.Krımda separatçılıq üçün zəmin mövcuddur. Yarmadada 2.3 milyon əhali yaşayır, onların çoxu etnik rus və rusdilli əhalidir[109].

Bölgə 2010-cu il prezident seçkilərində Viktor Yanukoviçə səs verib. Krım əhalaisinin əksəriyyəti Kiyevdə çevrilişin baş verdiyini düşünür. Nəticədə Krım parlamentində separatçılar Ukraynadan ayrılmaq məsələsini qaldırdılar.

Son 200 il ərzində Krım Rusiyanın nəzarəti altında olub. Lakin 1954-cü ildə Moskva vilayəti Ukraynaya hədiyyə edib. Etnik ruslar bu addımın "tarixi səhv" olduğunu deyirlər .

Lakin Krım tatarları onların bir vaxtlar Ukraynada çoxluq təşkil etdiklərini diqqətə çəkirlər. Onlar adadan 1944-cü ildə nasist işğalçılarla əməkdaşlıq etdiklərinə görə Stalin tərəfindən deportasiya edilmişdilər[110].

2001-ci ilin statitikasına görə Krımda etnik ukraynalılar 24%, ruslar 58%, tatarlar isə 12% təşkil edib. 1991-ci ildə SSRİ dağılandan sonra tatarlar Krıma qayıtmağa başlayıblar. Bu etnik ruslarla krım tatarları arasında gərginliyin torpağa görə artmasına səbəb olub.Qanunla Krım Ukraynanın tərkib hissəsidir. Bu statusu Rusiya 1994–cü ildə ABŞ, Britaniya və Fransa ilə birgə memorandum imzalayaraq təsdiqləyib.

Muxtar respublikanın seçilən parlamenti var. Prezident vəzifəsi isə 1995-ci ildə rusiyapərəst separatçı siyasətçi böyük üstünlüklə qələbə qazandıqdan sonra ləğv edilmişdi. Rusiyanın Sevastopol üzərində icarə hüququ 2042-ciilədəkdir. Rusiyanın Sevastopolda hərbi dəniz bazası var. Orada Rusiya Qara Dəniz donanması mənzillənir. İcarə müqaviləsi şərtlərinə görə, Rusiya rəsmi Kiyevi qoşunlarının hərəkəti barədə xəbərdar etməlidir. Lakin Moskva yarımadaya əlavə qüvvə

---

[109] Arendt, Hannah (October 1945). "Imperialism, Nationalism, Chauvinism". The Review of Politics **7** (4): 457

[110] Elxan Şahinoğlu "Ukraynanın separatizm üzərində qələbə çalmaqdan başqa alternativi yoxdur" 23.01.2015

göndərərək Krımı nəzarətinə alıb. Moskva bunu etnik rusların təhlükəsizliyi üçün etdiyini deyir[111].

Krımda Rusiya pasportlarının paylanması xəbərləri verilib. Rusiyanın müdafiə qanunları icazə verir ki, xaricdə “Rusiya vətəndaşlarını müdafiə etmək üçün hərbi aksiyalara icazə verir. Rusiya Krıma əlavə qüvvə yeridə bilər[112]. Vladimir Putin Ukraynada qoşun yeridilməsinə parlamentin icazəsini alıb. Kiyevdəki yeni hakimiyyəti "faşist hökuməti" sayan Moskva bundan sonra Ukraynanın şəqindəki rusdilli əhalini müdafiə etmək məqsədilə bu ölkəyə qoşun göndərə bilər. Qanlı hadisələri istisna etmək çətindir. Ukraynanın qərbində millətçilər Moskvanın hərəkətlərindən qəzəblidirlər.

Beynəlxalq səviyyədə də müəyyən tədbirlər görülə bilər - Qərb Krımın ələ keçirilməsini kəskin pisləyir. Lakin NATO hərbi tədbir görüləcəyi ehtimalını istisna edib. Buna baxmayaraq, NATO-nun Mərkəzi Avropadan olan üzvləri qoşunların Polşa-Ukrayna sərhədində yerləşdirilməsini tələb edə bilərlər. Qərb Rusiyaya qarşı sanksiyalar yeridə bilər, lakin prezident Putin güman edə bilər ki, Gürcüstan müharibəsindən sonra olduğu kimi bu dəfə də sanksiyalar uzun çəkməyəcək. Krım uğrunda dəfələrlə müharibələr baş verib, yarımada əldən-ələ lkeçib. Belə müharibələrdən biri 1853-1856 ildə baş verib və məhşur "Sevastopolun mühasirəsi" də o zaman olub.

Həmin dövrdə dünya imperiyaları arasında gedən rəqabət müharibəyə səbəb olub. Osmanlı İmperiyasının zəiflədiyi dövrdə, Britaniya və Fransa Rusiyanın Balkanlara iddiasından narahat olduqlarından, rusları geriyə oturtmaq üçün Krıma qoşun göndəriblər. 4 il çəkən müharibə nəticəsində Rusiya məğlub olub[113].

---

111 Бодрова Е. В. К вопросу о причинах роста национального сепаратизма на Северном Кавказе в годы Великой Отечественной войны // Знание. Понимание. Умение. — 2005. — № 2. — С. 23-30

112 Miller, Michelle Ann (2012). Autonomy and Armed Separatism in South and Southeast Asia

113 Абдулатипов Р. Г. Этнополитология. СПб.: Питер, 2004. С. 249

Moskva suveren dövlətin ərazisini zəbt etdi; Dünya güclərinin etirazına baxmayaraq yarımadada avtomat lülələri altında referendum keçirildi; tatarlar səsverməni boykot etdilər; Qərb Kremli "sərt cəzalar"la hədələdi; Rusiya "Böyük səkkizlik"dən çıxarıldı.

2014-cü il martın 16-da Krım və Sevastopolun dövlət mənsubiyyəti barədə referendum keçirildi. Ukraynada Yanukoviçin devrilməsindən sonra genişlənən separatçılıq dalğasında Krım Muxtar Respublikasının parlamenti tərəfindən təyin olunan referendum rəsmi Kiyev və Qərb tərəfindən öncədən qanunsuz elan edilmişdi. Ukrayna hakimiyyəti Krım parlamentini buraxmışdı. Buna baxmayaraq Moskvadan dəstəklənən Krım separatçıları yarımadanın Rusiya tərkibinə daxil olması və ya Ukrayna tərkibində daha geniş muxtariyyətə sahib olması sualı ilə, faktiki, avtomat lülələri altında səsvermə təşkil elədilər. Referendumu 23 ölkədən 800-dən artıq jurnalist və 180-dən çox müşahidəçi izləyib[114]. "Exit poll"un keçirilməsi üçün yeganə təşkilat – Respublika Sosioloji və Siyasi Araşdırmalar İnstitutu akkreditasiya alıb. Referendumun yekun nəticəsi martın 17-də elan olundu.

Qanunsuz referendum beynəlxalq aləmdə geniş etirazla qarşılanıb. "Ukranskaya pravda" qəzeti yazıb ki, Rusiyanın Krımla bağlı siyasətinə cavab olaraq "Böyük yeddilik" ölkələri artıq Rusiyanın iştirakı olmadan növbəti sammiti keçirməyə hazırlaşırlar. Bununla da "Böyük səkkizlik" formatının ləğv olunduğu, yenidən "yeddilik" formatına qayıdış ola bilər[115]. Ancaq bildirilir ki, iyuna planlaşdırılan görüşün Britaniyada keçirilməsini təklif olunsa da, qrupa üzv olan digər dövlətlər sammitin Londonda keçirilməsinin əleyhinə çıxıblar.

Almaniya hökuməti isə növbəti dəfə Rusiyanı Ukrayna ilə bağlı mövqeyini dəyişməyə çağırıb. Almaniyanın xarici işlər naziri Frank-Valter Ştaynmayer "Welt am Sonntag" qəzetinə müsahibəsində deyib ki, "əgər Rusiya son anda Ukrayna ilə bağlı mövqeyini dəyişməsə, Avropa Birliyi martın 17-də müvafiq cavab verəcək".

[114] Конституція України | від 28.06.1996 № 254к/96-ВР (Сторінка 2 з 4)
[115] Dr. Zbigniew Brzezinski - "RUSSIA AND UKRAINE" July 9, 2014

Putin söhbət zamanı diqqəti ona yönəldib ki, Krım əhalisinin iradəsi BMT nizamnaməsinə əsasən, beynəlxalq hüquq normalarına tam uyğun olaraq keçirilir. Rusiya prezidenti həmçinin vurğulayıb ki, Rusiya Krım sakinlərinin seçiminə hörmətlə yanaşacaq. "Rusiya prezidenti Kiyev hökumətinin səhlənkarlığı üzündən Ukraynanın şərq və cənub-şərq bölgələrində radikal qruplaşmalar tərəfindən gərginliyin yaranması ilə əlaqədar yenidən narahatlığını bildirib", – Kremlin mətbuat xidməti xəbər verir.

Bundan başqa, Putin Merkel ilə vəziyyətin monitorinqi üçün Ukraynaya ATƏT-in miqyaslı missiyasının göndərilməsinin mümkünlüyünü müzakirə edib. Almaniya kansleri həmçinin, Soçidə Paralimpiya Oyunlarının uğurlu keçirilməsi ilə əlaqədar Putini təbrik edib.

Qeyd edək ki, Krımda referendumun nəticəsi bir gün sonra elan edilsə də, bir sıra mütəxəssislər onun nəticələrinin artıq müəyyən olduğunu düşünürdülər. "Euronews" kanalının məlumatına görə, yarımadada aparılan son sorğulara əsasən, yerli əhalinin 80 faizi Krımın Rusiyaya birləşməsinin tərəfdarı idi. Telekanalın məlumatında bu nəticənin xüsusən də son həftələrdə yüksəldiyi qeyd olundu.

Xatırladaq ki, referendumda seçicilərə verilən bülletenlərdə sual iki bənddən ibarət olub. Birinci bənddə sual "Krımın Rusiyanın ərazisi olmasını istəyirsinizmi", ikinci bənddə isə "1992-ci il Konstitusiyasına əsasən Krımın Ukrayna torpağı olmasını istəyirsinizmi" şəklində idi[116].

Ancaq müşahidəçilər artıq nəticələrin bəlli olduğunu, böyük çoxluğun Rusiya ilə birləşməyə dəstək verdiyi qənaətində idilər. Yarımadadakı siyasi proseslər həm də rus ordusunun yüksək hərbi hazırlığı ilə müşayiət olunurdu. Ukrayna hökuməti iddia edir ki, Ukrayna ordusu Xerson vilayəti ərazisinə Rusiya silahlı qüvvələrinin desant çıxarmasının qarşısını alıb. Bununla belə, Rusiyanın Krıma 4 batareya "S 300″ zenit

---

[116] Конституція України | від 28.06.1996 № 254к/96-ВР (Сторінка 2 з 4)

raket kompleksi gətirdiyi xəbər verilirdi. Məlumata görə, seçki məntəqəsindən bir neçə metr aralıda yerləşən Ukraynanın ən böyük hərbi hissələrindən birini Rusiya qoşunları mühasirəyə alıblar. Yol kənarlarında hər 30 metrdən bir silahlı əsgərlər keşik çəkirmiş.

Bu arada isə Rusiya ilə ABŞ-ın Ukrayna məsələsində ilkin razılığa gəlməsi haqda da xəbər yayılmışdı. Rusiyanın xarici işlər naziri Sergey Lavrov və ABŞ-ın dövlət katibi Con Kerri konstitusiya islahatının köməyi ilə və ölkənin bütün regionlarının maraqlarına hörmət etməklə Ukraynada böhrandan çıxış yolu axtarmağa razılaşıblar[117]. Rusiya Xarici İşlər Nazirliyindən verilən açıqlamada bildirilir ki, Lavrov və Kerri arasında telefon danışığı zamanı Ukraynadakı vəziyyət və Krımda keçirilən referendum müzakirə olunub. Lakin anlaşmanın reallığa çevrilib-çevrilməyəcəyi bilinmir. Lakin bu problem dünyada yaşanan sonuncu separatizm prosesi deyil. Hələ İkinci Dünya müharibəsindən sonra dövlətlərin sərhədlərinin dəyişdirilməsini yasaqlayan beynəlxalq təşkilatlar, böyük dövlətlər çalışırlar ki, üçüncü böyük müharibəyə səbəb ola biləcək silsilə hərəkətlərə rəvac verməsinlər. Avropanın özündə bir-birinin tarixi əyalətlərinə sahib olan dövlətlər var. Əgər hər dövlət "öz əzəli torpağını özünə qaytararaq tarixi ədaləti bərpa etmək" təşəbbüsü göstərsə, Avropa böyük separatizm dalğası və yeni müharibələrlə üzləşər[118].

Gündən-günə qloballaşan, vahid valyuta tətbiq edən, sərhədləri götürən Avropa dövlətləri artıq böyük Avropa dövlətində birləşmək istiqaməti götürdüklərindən qoca qitədə separatçılıq ocaqları öz-özünə sönmüş olub. Bununla belə, problem tam həll olunmayıb. Bir neçə il öncə az qala Belçika əvvəlcə iki, sonra üç hissəyə bölünəcəkdi. Bu ölkədəki separatçılar Belçikanı Flandriya, Valloniya və Brüsselə bölmək istəyirdilər. Ancaq bu ittifaq könüllülük əsasında baş tutduğu, heç kim bir-birini zorla bir arada tutmadığı üçün sağlam düşüncə qalib gəldi. Tərəflər

---

[117] Dr. Zbigniew Brzezinski - "RUSSIA AND UKRAINE" July 9, 2014

[118] Michael Korda, Male Chauvinism! How It Works. New York: Random House, 1973

başa düşdülər ki, bu sayaq separatçılıq hər tərəfin zəifləməsinə gətirib çıxaracaq, arada cırtdan dövlətlərin sayını artıracaq.

## 3.2. Şovinist millətçilik nədir, müasir dünyada şovinist millətçiliyin özünü göstərməsi

Şovinist millətçilik deyə bir ifadənin olması ağla batan deyil, çünki şovinizm; yəhudi milliyyətçiliyinin digər adıdır. Bu məzmunda milliyyətçilik fikri bir az araşdırılsa, bu anlayış 6 fərqli alt başlıqda şərh ediləcək. Bunlar sırasıyla;[119]

- Ictimai millətçilik
- Sosial mədəni millətçilik
- Mədəni millətçilik
- Etnik millətçilik
- Siyasi millətçilik
-antropolojik irqçilik.

Eyni zamanda millətçilik cəmiyyətdə milli mədəniyyəti gücləndirmək və hakim qılmaq, mənsub olunan millətə aid, xüsusilə mənəvi dəyərlərin ucaldılmasını məqsəd bilmək, milli ideal və əməllərlə ənənələrə sahib çıxan və bənzərləri arasında onlara prioritet vermək, milli dəyərləri, idealları, ənənələri tamamilə milli mədəniyyəti xarici təsir və təxribatın, elə və ya belə, o və ya bu səbəblə meydana gələn pozulmalara qarşı qorumaq və müdafiə etmək,mənsub olunan millətin dövlətinə səmimi bir sədaqət hissi içində bağlı olmaq, millət və dövləti üçün hər cür fədakarlığı edə biləcək bir ruhiyyənin və əxlaqi yaşayış içində olmaq, millətinin tarixinə şüurla bağlanmaq, milli zəfərlərlə fəxr etmək və qürurlanmaq, milli fəlakət və iztirablara yanmaq və kədərlənmək, millətinin gələcəyi haqqında ümidli və optimist olmaq, dinamik bir inkişaf içində çətinlikləri məğlub edərək millətini millətlər cəmiyyətinin azad, bərabər, şərəfli və qüdrətli bir üzvü etmək, millətinin var

[119] Newman, Gerald G. (1987). The Rise of English Nationalism: A Cultural History, 1740–1830. New York: St. Martin's

olmaq və var qalmaq yolunda əzm və iradəsinə bütün mənliyi ilə bağlanaraq xidmət etmək, şəxsi həyatını milli dəyərlərə səmimi bir bağlılıq içində təşkil etmək və milli bir üslubla yaşamaq, varlığını millət varlığından ayırmayan, millət üçün fədakarlığı əsas qəbul edən idealist bir İslam əxlaqını fərdlərin və cəmiyyətin həyatına hakim qılmağa çalışmaq, millətin bütün fərdlərini dərddə və iftixarda ortaq, bölünməz bir bütün və bir-birlərinin qardaşları olduqları duyğu və şüurunda birləşdirməyə səy etməkdir deyə ifadə edilə bilər[120].

O halda milliyyətçilik kökü insan ruhunun dərinliklərinə qədər çatan bir ictimai zərurətdir. Romantik bir hiss yumağı ilə sarılmış, qarışmış və qaynaşmış olaraq, bir millətə mənsubiyyəti və bu mənsubiyyətin tələb etdiyi yaşayış və davranış praktikasının şüur halıdır. Məqbul bir mənlik duyğusu və bir dərəcəyə qədər bir eqoizm davranışıdır; bu da insanın təbiətində vardır[121]. Ancaq bunun mütləq təcavüzkar olması lazım deyil. Çünki öz şəxsiyyətinə düşkün olan, başqalarının şəxsiyyətinə də hörmət edər. Millətlər də milli hiss və mənfəətləri ilə və öz milliyyətçilik səyləri ilə başqa millətlərin milli duyğu və maraqlarını və yüksək insani idealları uzlaşdıra bilərlər. Uzlaşdırmalıdırlar. Bu ölçülər içində, yəni doğru, aydın bir millətçilik irqçiliklə də, nasizm və faşizmlə də qarışdırılmaması lazım olan bir fikirdir[122].

Qısaca milliyyətçilik yox olmaq istemiyən, var olmaq və qalmaq, yüksəlmək və ucalmaq istəyən millətlərin imtina edilməz və əsla uzaqlaşdırıla bilməyən ideologiyasıdır[123]. Milliyyət hissi ilə milliyyətçilik şüurunun hər nə səbəb və surətlə olursa olsun bir millətə edilən ən böyük düşmənçilik və pislikdir[124].

Mərhum Ustad Nəcib Fazil milliyətçilik nədir sualına belə cavab verir:

---

120 Arendt, Hannah (October 1945). "Imperialism, Nationalism, Chauvinism". The Review of Politics **7** (4): 457

121 Woods, Sherwyn M. (January 1976). "Some Dynamics of Male Chauvinism"

122 Tanıl Bora, Türk Sağının Üç hali MİlIiyetçilik, Muhafazakarlık, Birikim, İstanbul, 1999

123 Tural Mehbaliyev “Millətçilik nədir? Tarixi əsasları və inkişafı” 21.10.2014

124 Masami Arai, Modernleşme ve Milliyetçilik, İletişim, İstanbul

"Milliyyətçilik anlayışı müsəlmanlıqla məhdud o sərhədli milliyətçilikdir ki, bu sərhədin ən kiçik miqyasına özünü hüdudsuz və başıboş bilən heç bir milliyyətçilik çata bilməz."

"İslam inqilabının milliyyətçiliyi bütünlüklə insanlıq heyətində ruhun qaynağını Müsəlmanlıq olaraq qəbul etdikdən sonra, o ruhu daşımağa, rəngləndirməyə, mizaçlandırmaya qarşı ləyaqət ifadəsi baxımından bütün qövmlər arası yarışmada üstünlük məfkurəsindən ibarətdir."[125]

"Beləcə milliyyət məfkurəsi, irq, tayfa və soy ifadəsiylə də Peyğəmbərinə layiq olmağa cəhd etməyin əsəridir ki, hər cür irq və qövm sərhədini əhatə edən və aşan Müsəlmanlığı incitmək yerinə şad edecək və ana ölçüyə bir dəfə bağlandıqdan sonra ən irəli hüquqlara qədər icazəli milliyyətçiliyin də özü olacaq. "

"Şəriətlə hududlu milliyyətçilik həqiqətdə hüdudsuz milliyyətçiliyin tam özüdür."

"Milliyyətçiliyin bu ölçü xaricində qalan bütün alovlu təzahürləri yalnız gövdələri yandırıb kül edən dar və xəsis bir nefsanîlik, xam və doğmatik bir bütçülükdən başqa bir şey deyil."

Ölkəci dünya görüşünə görə görə millətçilik ən başda bir dəfə, cəmiyyət vahidləri içindən milləti seçim etmək, sonra bu milləti 1) sevmək 2) qorumaq 3) yüksəltmək və 4) ucaltmaq idealıdır ... Yəni Ölkəci dünya görüşü milliyyətçiliyi belə təsvir edir[126]:

“Millətçilik millətini sevmək, qorumaq, yüksəltmək və ucaltmaq idealıdır”[127].

Tərifi bir az daha açaraq, təkrarlasanız belə deməmiz mümkündür: Millətçilik millətini və millətini meydana gətirən milliyyət ünsürlərini sevmək, qorumaq, yüksəltmək və ucaltmaq idealıdır. Ancaq bu sevmək, qorumaq, yüksəltmək və

---

[125] Tanıl Bora, Türk Sağının Üç hali MİlliyetçiIik, Muhafazakarlık, Birikim, İstanbul, 1999

[126] Dr. Serab Sezer, Türk Devrim Tarihi-"çöküşten dirilişe", 2006

[127] Əhməd Şahidov “XXI əsrin ideal tələbəsi ifrat dini və şovinist ideyalardan uzaq olmalıdır” 12.05.2012

ucaltmaq ünsürlərinin istiqaməti, şəkli və sərhədləri təsadüfi çizilməmişdir, İslamiyyət tərəfindən təyin olunmuşdur . Ona görə, bunların xaricinə çıxıla bilməz.

İrqçilik " (şovinizm) və" milliyetçilik " bu anlayışlar zaman-zaman bir-birləriylə bərabərləşdirilməyə çalışılır.

İrq - ortaq fiziki və fizioloji xüsusiyyətlərə sahib olan insanlar birliyidir. Adamın rəng, irq və milliyyətindən təyin etmə haqqı olmadığı kimi bunları seçim etmə haqqı və şansı da yoxdur. İnsanın irqi, rəngi, milliyyəti, soyu doğumla qazanılmış xüsusiyyətləridir. Yəni yaradılışının fitrətindən qaynaqlanır.

İrqçilik: İnsanların ictimai xüsusiyyətlərini bioloji, irqi xüsusiyyətlərinə əsaslanaraq bir irqin başqa irqlərə üstün olduğunu irəli sürən təlimdir.

Yer üzündə heç bir İrqin, millətin, qövmün birinin digərindən üstünlüyü yoxdur. Yaşadıqları coğrafiya baxımından fiziki olaraq, həyat tərzləri olaraq, Dil, inanc və Mədəniyyət baxımından yalnız fərqliliklər sərgiləyə bilərlər. Bu fərqliliklər üstünlük və ya alçaqlıq mənası daşımaz.

Fiziki, dil, inanc və mədəniyyət birlikdəliyi olan bir cəmiyyətin digər bir cəmiyyət üzərində üstünlük iddia etməsi və ya bu düşüncəsini təzyiq və şiddət yolu ilə qəbul etdirməyə çalışması əvvəlcə insanlığın yaradılış qayəsinə zidd, əxlaq və insanlıq xarici bir düşüncədir.

Millət - Əksəriyyətlə eyni torpaqlar üzərində yaşayan, aralarında dil, tarix, duyğu, ülkü, ənənə və adət birliyi olan insan birliyi, xalqdır.

Milliyyətçilik - Maddi və mənəvi bucaqlardanibarət millət və ölkəsinin maraqlarını hər şeyin üstündə tutma anlayışı, xalqçılıqdır[128].

İqtisadi və siyasi faktları güdmədən xalqın maraqların, müstəqilliyini və vətən sevgisini ön plana çıxarmaq. Milliyyətçilik anlayışı ayrıca dil, tarix və mədəniyyət birliyinə söykənən ulusun və dövlətin mütləq və təməl bir dəyər olduğunu qəbul edən anlayış olaraq. Fərdlərin dövlətin varlığını böyüklüyünü təmin edəcək və qoruyacaq şəkildə, dövlətin ehtiyaclarına uyğun olaraq davranmaları lazım olduğunu, davranışlarını bu məqsədə görə nizamlaması lazım olduğunu önə sürən axın olaraq

[128] Utku Kızılok "Özerklik Tartışmaları ve Şovenizm" May 2014

milliyyətçilik, ulus faktını, o ulusu meydana gətirən fərdlərə, hüquqi bir quruluş olan dövlətə çevirmək imkanı təmin etmişdir.

Şovinizm, hər hansı bir şeyə olan həddindən artıq, səbəbli və ya səbəbsiz ibarət bağlılıqdır. Xüsusilə də başqa millətlərə qarşı dözümsüzlük və təcavüzkarlıq, həddindən artıq və fanatik milliyyətçilik mənasında istifadə edilsə də şovinizm milliyyətçilik anlayışının özünə ziddir. Çünki şovinizm tez-tez qarşı qrupa olan nifrət və pis niyyət duyğularını da özü ilə gətirər[129].

Sosial Şovenizm anlayışı, İkinci enternasyonal də ortaya çıxan, İkinci beynəlxalq döneklerinin, işçi sinifini, paylaşma döyüşündə öz ölkə burjuvalarının yanında yer almağa çağıran ictimai yurtsevərlikdir. İctimai yurtsevərliklə ictimai şovinizm biri-birindən ayrılmayan, bir-birini tamamlayan iki anlayışdır.

[129] Абдулатипов Р. Г. Этнополитология. СПб.: Питер, 2004. С. 249.

# Nəticə

Əslində, separatizmin əsasında neoimperializm kontekstində dünyanı idarə etmək iddiasında olan aktorların milli və transmilli ambisiyalarının reallaşdırılması naminə atılan addımlar dayanır. Məsələn, Britaniya Hindistanında müsəlmanlarla hindular arasında olan çəkişmələr 2 dövlətin - Hindistan və Pakistanın yaranmasına səbəb oldu. Bu nəticənin əsasında isə imperialist Britaniya siyasətinin dayandığı hər kəsə məlumdur. Bununla yanaşı, Hindistan Banqladeşə dəstək verməsəydi, Banqladeş dövləti yaranmazdı. Göründüyü kimi, separatizm "zəncirvari proses" kimi davam edən destabillik mənbəyidir.

Etimoloji mənada separatizm suveren bir dövlətin beynəlxalq hüquq normaları ilə təsbit edilmiş ərazisi daxilində başqa bir dövlət qurmaq və ya milli, etnik zəmində parçalanma tendensiyası yaratmaq məqsədilə başladılan hərəkətlənmədir. Yəni dövlət içində "dövlət" yaratmaqla bir dövlətin suverenliyi təhlükə altına atılır, bundan sonra isə separatizmə təkan verən güc mərkəzləri bu amildən maksimum səviyyədə yararlanmağa çalışırlar. Bununla da regional miqyaslı, qlobal xarakterli ziddiyyətlər və münaqişələrin "toxumu səpilir".

Deməli, separatizm açıq müstəvidə cərəyan edən müharibədən belə daha ciddi fəsadlara səbəb ola bilir. Ən azından separatizmin "boğulmuş" (sonrakı qarşıdurmalara səbəb olan gizli motivlər) rüşeymlərinin daha uzunmüddətli konfliktlərə səbəb olduğu heç kəsə sirr deyil. Ona görə də, separatizm dünyada qarşısı alınması zəruri olan başlıca təhdidlərdəndir.

Bu baxımdan, Ermənistanın Azərbaycanın 20 faiz torpaqlarını işğal etməsi nəticəsində yaranmış qondarma, separatist "Dağlıq Qarabağ" da faktiki destabillik mənbəyidir. İşğal məhsulu olan bu qurumun mövcudluğu beynəlxalq hüquq normalarının növbəti dəfə ayaqlar altına alınmasının bariz təcəssümü və təzahürüdür.

Dolayısıyla, qondarma "Dağlıq Qarabağ"ın mövcudluğu Azərbaycanın ərazi bütövlüyünün pozulduğunu göstərən bir nömrəli dəlildir. BMT başda olmaqla qlobal miqyasda sülh və sabitliyin təmin olunması missiyasına xidmət etdiyini iddia edən aktorlar isə hələ də "səssizlik siyasəti" yeritməkdə davam edirlər. Beynəlxalq hüquq normalarında birmənalı şəkildə təsdiq və müəyyən olunur ki, separatizm bir dövlətin

ərazi bütövlüyünün pozulmasına səbəb olan əsas amildir və bu, yolverilməzdir. Amma buna baxmayaraq, qondarma “Dağlıq Qarabağ”ın “sərbəst” fəaliyyət göstərməsinə nəinki mane olunmur, hətta bəzi hallarda buna şərait yaradılır. Məsələn, vaxtaşırı qondarma qurumda seçkilərin keçirilməsi bütövlükdə beynəlxalq hüquq normalarına ziddir. BMT-nin nizamnaməsində bu barədə qeyd edilir: “Beynəlxalq hüququn müstəqil subyektlərinin ərazi bütövlüyünü pozan addımlar qəti şəkildə yolverilməzdir. Dövlətlərin razılığı olmadan onun sərhədləri daxilində hər hansı bir akt həyata keçirilə bilməz”.

Bundan başqa, ATƏT-in Helsinki Yekun Aktı və Paris Xartiyasında da milli dövlətlərin sərhədləri daxilində dağıdıcı məqsədlərə xidmət edən aktlar qəti şəkildə pislənilir.

XIX əsrin əvvəllərində mühafizəkarlar millətçiliyi siyasi sabitliyə təhlükə yaradan radikal və təhlükəli bir güc olaraq qəbul edirdilər. Lakin, əsrin ortalarından etibarən Disraeli, Bismarck və hətta çar III Aleksandr kimi bir çox mühafizəkar dövlət xadimlərinin sosial stabilliyin və ənənəvi dövlət qurumlarının müdafiəsi uğrunda millətçiliyi müttəfiq olaraq qəbul etdiklərini görürük. Müasir dövrdə artıq millətçilik bir çox mühafizəkar üçün siyasi inanc halına gəlmişdir. İngiltərədə daha aydın müşahidə olunan bu vəziyyət Margaret Thatcherin 1982-ciil Falklands müharibəsinə göstərdiyi müsbət münasibət ilə təsdiq olunur.

Biz bu hala həmçinin Mühafızəkarlar Partiyasının Avropaya inteqrasiya məsələsinə göstərdikləri antipatiyada açıq şəkildə rast gəlirik. Xarici siyasəti Grenadanın işğalından Liviyanın bombalanmasına kimi irəliləyən Ronald Reagan Amerikada millətçiliyi yenidən alovlandırmağa çalışırdı. Ata George Bush isə Panamanı işğal edir və 1991-ci ildə Amerika qüvvələrini Körfəz müharibəsinə göndərərək bu siyasi xətti davam etdirdiyini nümayiş etdirir. George W. Bush “terrorla mübarizə”nin, oxşar formada hərbi cəhətdən özünə inamın milli dəyərlərin müdafiəsinə və milli xarakterin təsdiqinə xidmət etdiyini iddia edirdi.

Mühafizəkar millətçilik “millətin inşası” dövründə olan ölkələrdən çox artıq formalaşmış milli dövlətlərdə rast gəlinir. Mühafizəkarlar ümumbəşəri millətçilikdən daha çox sosial bütövlük və ictimai sabitlik ideyasına üstünlük verirlər.

Mühafizəkarlara görə cəmiyyət fərdlərin istəklərinə cavab verməlidir və hər bir fərdin özünə bənzəyən, özü ilə eyni düşüncəyə və vərdişlərə sahib olan şəxslərlə birlikdə yaşamaq istəyi təbiidir. Beləliklə onlar mühafizəkar insanın yalnız milli cəmiyyət içində məna və təhlükəsizlik axtaran məhdud və qüsurlu varlıq olduğunu iddia edir. Bu səbəbdən mühafizəkar millətçiliyin əsas hədəfi xüsusi ilə sosialistlərin "siniflərin mübarizəsi" ideyasına qarşı çıxaraq vətənpərvər sədaqət və "ölkə ilə fəxr etmə" düşüncəsini canlandırmaq və milli birliyi müdafiə etməkdir.

Həqiqətən də işçi sinifini millətin tərkibində görən mühafizəkarlar millətçiliyi sosial inqilaba qarşı əsas silah olaraq görürlər. Fransanın dövlət başçısı Charles De Gaulle xüsusi bacarıq və qıvraqlıqla millətçiliyi Fransada mühafizəkar mübarizə üçün istifadə etməyi bacardı. Milli qürur ideyasına müraciət edən De Gaulle xarici siyasətdə anti Amerika xəttini izləyərək fransız qoşunlarını NATO-dan çıxartdı. O, həmçinin, sosial həyatda stabilliyi, siyasi nüfuzu və güclü dövləti yenidən bərpa etmək üçün rəhbərliyin gücünü artırdı. Bu tərz siyasət beşinci cümhuriyyətin qurulduğu 1958-ci ildən Mitterandın prezident seçildiyi 1981-ci ilədək Fransada dövlətə mühafizəkarların nəzarətini təmin etmiş oldu. Bir yöndən baxarsaq, İngiltərədə Thatcherizm güclü dövlət və təsirli liderlik vədi və Avropada müstəqillik ideyası ilə Gaullizmin ingilis versiyası idi.

Millətçiliyin mühafizəkar xarakterinə tarix və adət-ənənələr bələdçilik edir. Bununla da millətçilik ənənəvi qurumların və həyat tərzinin müdafiəçisi halına gəlir. Mühafizəkar millətçilikəsas etibarı ilə keçmişdəki parlaq və müzəffər günlərə istinad edən geriyə yönəlmiş düşüncə tərzidir. Millətin tarixi günlərinin və hərbi zəfərlərinin göstərişli şəkildə rituallarla xatırlanmasının əsas səbəbi budur. Buna paralel olaraq ənənəvi qurumların milli kimliyin simvolu kimi istifadə olunması bunun açıq göstəricisidir. Məsələn, ingilis millətçiliyi bir başa krallıqla bağlıdır. Britaniya ilə Şimali İrlandiya birlikdə Birləşmiş Krallığı formalaşdırırlar və bu krallığın milli marşı "Tanrı kraliçanı qorusun"dur (God Save the Queen). Həmçinin kral ailəsi Atəşkəs günü (Armistice Day) və Parlamentin açılışı kimi mühüm bayramlarda önəmli rol oynayır.

Mühafizəkar millətçilik kimliyinin təhlükə altında olduğu və ya yox olma riskinin artdığı dövrlərdə millətə daha çox əhəmiyyət qazandırır. Bu səbəbdəndir ki, xaricilərin köçü vəsupranationalism modern ölkələrdə mühafizəkar millətçiliyin canlı qalmasında mühüm rol oynayır. Xaricilərin ölkəyə köçü ilə meydana çıxan bir sıra narahatlıqlar cəmiyyətdəki mədəniyyət fərqinin çaxnaşmalara və qeyri stabilliyə səbəb olacağı qorxusundan irəli gəlir. Yəni bu tərz millətçiliyə görə stabil və uğurlu cəmiyyətdə fərdlər ortaq dəyərlərə və mədəniyyətə söykənmək məcburiyyətindədirlər. Həll yolu kimi isə fərqli dinə və adətlərə sahib olan şəxslərin ölkəyə köçünün məhdudlaşdırılması və ya azlıq təşkil edən etnik qrupların ölkənin "ana" mədəniyyətində assimilyasiyaya məruz qoyulması göstərilir.

Məsələn, Fransada Milli Cəbhə (Front National) və İngiltərədə BNP azlıqların könüllü və ya zorla öz ölkələrinə göndərislməsini vacib sayan mühafizəkar millətçi ideyanı mənimsəmişdir. Mühafizəkar millətçilik oxşar formada Avropa İttifaqı kimi beynəlxalq qurumları milli kimliyə və xüsusi ilə toplumun mədəni bağlarına ciddi təhlükə olaraq görür. Bu ideya öz ifadəsini İngiltərə Mühafizəkar Partiyasının "Avropa şübhəçiliyi (Euroceptisim)" anlayışında tapır. Avropa şübhəçiləri ancaq müstəqil milli qurumları və üzərində milli simvollarəks olunan milli pulu müdafiə etməklə kifayətlənmir, eyni zamanda siyasi quruluşyn milli və mədəni fərqlilik əsasında qurulmasını absurd sayaraq Avropa düşüncəsinin ölümcül səhv olduğu qənaətindədirlər. Mühafizəkar siyasətçi və partiyalar millətçiliyin bu sərt mövqesindən böyük siyasi qazanclar əldə etsələr də müxaliflər onların fikirlərinin bəzən yalnış yönləndirildiyi qənaətindədirlər. İlk etapda mühafizəkar millətçilik elit təbəqənin bir manipulyasiyası kimi görünə bilər. Belə ki, "Millət" anlayışı onu öz məqsədləri üçün istifadə etmək istəyən siyasi liderlər tərəfindən icad və tərif edilmişdir. Bu həqiqət özünü "millət"-in "vətən"-ini vətənpərvər duyğularla müdafiəsinə ehtiyac duyulduqda açıq şəkildə biruzə verir. Bundan əlavə mühafizəkar millətçilik qeyri tolerantlıq, dar düşüncəlik, fanatizmin yayılmasında böyük rol oynaya bilər. Ümumi mənada mühafizəkar millətçilərin xaricdən gələn hər şeyə belə aqresiya göstərmələri gələcəkdə irqçiliyi və yadlara qarşı düşmənçiliyi təbliğ edən siyasəti qanuniləşdirməyi məqsəd seçdiklərini göstərməkdədir.

## Ədəbiyyat


**Azərbaycan – dilində**

1. Samin Həsənov "Separatizm və dini amillər", Dirçəliş – XXI əsr – 2008, Bakı
2. L.N.Tolstoy – Patriotizm və hakimiyyət
3. Aqşin Yenisey. Şovinizm azadlığı

**Məqalələr**

1. İlham ismayıl "Açıq separatizmin məxfi tərəfləri" 24.12. 2010
2. Qarabağ xəbərləri "Harınlıqdan doğan separatizm" 28.09. 2010
3. Könül Cəfərli "Millət və millətçilik özətləməsi"
4. Elxan Şahinoğlu "Ukraynanın separatizm üzərində qələbə çalmaqdan başqa alternativi yoxdur" 23.01. 2015
5. Nurlan Qələndərov "Separatizm neqativ geopolitik faktor kimi"
6. Əbülfəz Elçibəy "Fars şovinizmi"
7. Tural Mehbaliyev "Millətçilik nədir? Tarixi əsasları və inkişafı" 21.10.2014
8. Əhməd Şahidov "XXI əsrin ideal tələbəsi ifrat dini və şovinist ideyalardan uzaq olmalıdır" 12.05. 2012

**Türk - dilində**

1. Utku Kızılok "Özerklik Tartışmaları ve Şovenizm" May 2014
2. Lenin "Sosyalizm ve Savaş"
3. Tanıl Bora, Türk Sağının Üç hali MİlliyetçiIik, Muhafazakarlık, Birikim, İstanbul, 1999
4. Tanıl Bora, Kemal Can, Devlet ve Kuzgun 1990'lardan 2000'lere MHP, İletişim
5. Suavi Aydın, Modernleşme ve Milliyetçilik, Gündoğan Yayınları
6. Masami Arai, Modernleşme ve Milliyetçilik, İletişim, İstanbul
7. Günay Göksu Özdoğan, "Turan"dan "Bozkurt"a Tek Parti Döneminde Türkçülük (1931-1946), İletişim, İstanbul

8. G. Gürkan Öztan,“Milliyetçilik”, Resmi İdeoloji Sözlüğü, Özgür Üniversite Kitaplığı, 2007
9. G. Gürkan Öztan, “Türk Milliyetçiliğinde Taşra Fetişizmi ve Toplumsal Cinsiyet”, Doğu-Batı, no: 38, 2006
10. G. Gürkan Öztan, “Türk Milliyetçiliğinde Vazgeçilmez Bir Atıf Noktası: Japon Öykünmesi” Türkiye’de Neoliberalizm, Demokrasi ve Ulus Devlet, Yordam Kitap, İstanbul, 2009
11. Mustafa Keskin, Atatürk'ün Millet ve Milliyetçilik Anlayışı, Atatürk Araştırma Merkezi Ankara
12. Jean Leca, Uluslar ve Milliyetçilikleri, Metis, İstanbul
13. Umut Özkırımlı, Milliyetçilik Kuramları, Doğu-Batı, Ankara
14. Hugh Poulton, Silindir Şapka, Bozkurt ve Hilal, Sarmal Yayınları
15. Ahmet Yıldız, Ne Mutlu Türküm Diyebilenene, İletişim, İstanbul
16. Hikmet Tanyu, Atatürk ve Türk Milliyetçiliği, Elips İstanbul
17. Hüseyin Kalaycı - Ayrılıkçılık, Kanada

**İngilis- dilində**

1. Hall, Raymond L. (1978). Black Separatism in the United States. Hanover, New Hampshire: University Press of New England.
2. Moses, Wilson Jeremiah (1988), The Golden Age of Black Nationalism, 1850-1925, Oxford: Oxford University Press,
3. Anderson, Talmadge; Stewart, James B. (2007), Introduction to African American studies: Transdisciplinary Approaches and Implications,
4. Little, Malcolm (1964), The Ballot or the Bullet, April 4, 1964.
5. Hall, Raymond L. (1978), Black Separatism in the United States, University Press of New England
6. Jenkins, B. L., & Phillis, S. (1976). Black separatism: a bibliography. Westport, Conn: Greenwood Press.

7. Hall, R. L. (1977). Black separatism and social reality: rhetoric and reason. New York: Pergamon Press.
8. Hall, R. L. (1978). Black separatism in the United States. Hanover, N.H.: Published for Dartmouth College by the University Press of New England.
9. Bell, H. H., Holly, J. T., & Harris, J. D. (1970). Black separatism and the Caribbean, 1860. Ann Arbor: University of Michigan Press.
10. Browne, R. S., & Vernon, R. (1968). On black separatism. New York: Pathfinder Press.
11. X, Malcolm (1964). By Any Means Necessary. New York City, New York.
12. Dobratz, Betty A.; Shanks-Meile, Stephanie L. (Summer 2006). "Strategy of White Separatism". Journal of Political and Military Sociology.
13. Cordesman, Anthony (October 9, 2007). "Pandora's Box: Iraqi Federalism, Separatism, "Hard" Partitioning, and US Policy" (PDF). Working Draft. Center for Strategic and International Studies.
14. Millard, James (2004). "Violent Separatism in Xinjiang: A Critical Assessment" (PDF). East-West Center.
15. Miller, Michelle Ann (2004). The Nanggroe Aceh Darussalam law: a serious response to Acehnese separatism?. Asian Ethnicity. pp. 333–351. **5**(3)
16. Miller, Michelle Ann (2012). Autonomy and Armed Separatism in South and Southeast Asia. Singapore: ISEAS.
17. Dobratz, Betty A.; Shanks-Meile, Stephanie L. (Summer 2006). "Strategy of White Separatism". Journal of Political and Military Sociology.
18. Michael Korda, Male Chauvinism! How It Works. New York: Random House, 1973.
19. Woods, Sherwyn M. (January 1976). "Some Dynamics of Male Chauvinism". Archives of General Psychiatry 33 (1): 63
20. Arendt, Hannah (October 1945). "Imperialism, Nationalism, Chauvinism". The Review of Politics 7 (4): 457

21. Mansbridge, Jane; Katherine Flaster (2005). "Male Chauvinist, Feminist, Sexist, and Sexual Harassment: Different Trajectories in Feminist Linguistic Innovation". American Speech (Harvard University) 80 (3): 261
22. Dobratz, Betty A.; Shanks-Meile, Stephanie L. (Summer 2006). "Strategy of White Separatism". Journal of Political and Military Sociology.
23. Howell, Nancy B. "Radical Relatedness and Feminist Separatism"

**Rus – dilində**

1. Д. В. Заяц выделял 54 очага — вместе с Сербией, Черногорией и Восточным Тимором, которые стали независимыми государствами, признанными ООН
2. Абдулатипов Р. Г. Этнополитология. СПб.: Питер, 2004. С. 249.
3. Бодрова Е. В. К вопросу о причинах роста национального сепаратизма на Северном Кавказе в годы Великой Отечественной войны // Знание. Понимание. Умение. — 2005. — № 2. — С. 23-30.
4. Dr. Zbigniew Brzezinski - "RUSSIA AND UKRAINE" July 9, 2014

**Internet saytları**

1. http://azerdict.com/english/separatizm
2. http://www.tdk.gov.tr
3. http://azertag.az/xeber/etnik_separatizm_tahlukasi_dagliq_qarabag_problemi_va_onun_halli_yollari_movzusunda_beynalxalq_konfrans_kechirilmisdir-415787
4. http://www.kaspi.az/news.php?id=19420
5. http://tbayram.com/2009/05/26/turksam-turkiye-rusya-iliskileri-ve-separatizm-faktoru/
6. http://nedir.az/separatizm-nedir-separatizm-haqqinda
7. http://separatist.nedir.com/
8. http://tr.wikipedia.org/wiki/%C5%9Eovenizm
9. http://www.izinsizgosteri.net/new/?issue=45&page=1&content=357

10. http://www.turkcebilgi.com/%C5%9Fovenizm

11. http://sovenizm.nedir.com/

12. http://blog.milliyet.com.tr/irkcilik---sovenizm--ve
milliyetcilik/Blog/?BlogNo=483923

13. http://www.moderator.az/?xeber=45701

14. http://www.msxlabs.org/forum/felsefe/199298-sovenizm.html